

# Nə qədər ki Azərbaycan var, Mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!


Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 104 (7831) ÇƏRŞƏNBƏ, 9 may 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik




## ƏBƏDİYAŞARLIQ RƏMZİ

**Hər bir xalqın mənəvi-intellektual potensialı, qüdrəti onun yetişdirdiyi tarixi şəxsiyyətin fərdi keyfiyyətlərində, tarixin özünün inkişafını şərtləndirən titanik fəaliyyətində təzahür edir. Azərbaycan xalqının tarixində tarix yaradan şəxsiyyətlər kifayət qədərdir. Xalqımızın XX əsrdə meydana çıxardığı belə görkəmli şəxsiyyət ümummilli lider Heydər Əliyevdir.**

Azərbaycan tarixinin Heydər Əliyev dövrü taleyüklü məqamları, dövlətçilik uğrunda gərgin mübarizə və sair ilə öz tutumuna, kütləsinə görə bütöv bir mərhələ, epoxadır. Zaman etibarilə bizlərə çox yaxın olduğu üçün bu gün həmin dövrün tarixi qiymətini, dəyərini bəlkə də düzgün ifadə etmək bir qədər çətindir. Ancaq heç şübhəsiz, dövlətçilik, idarəetmə, regional siyasət, elm, təhsil, mədəniyyət, idman və s. haqqında yazılacaq nüfuzlu kitablar məhz Heydər Əliyev epoxasından və irsindən qaynaqlanacaq, xalqımızın bu dahi oğlunun fəaliyyəti elmi cəhətdən daha mükəmməl öyrəniləcəkdir. Təbii ki, bu kitablarda ümummilli lider Heydər Əliyev bir hakimiyyət ustadı kimi, qətiyyətli dövlət başçısı, müdrik siyasətçi, məsuliyyətli vətəndaş, cəsur və tədbirli sərkərdə, Vətənini və millətini hədsiz məhəbbətlə sevən bir insan kimi, çətin anlarda hər zaman millətinin yanında olmağı bacaran şəriksiz və alternativsiz lider olaraq hərtərəfli şəkildə öyrənilməlidir. Bütün bunlar gənc nəsil üçün xüsusilə vacibdir.

Ölkə üçün milli intibahın təminatında başlıca vasitə sayılan elm və təhsil cəmiyyətdə bir çox problemlərin həllində mühüm rol oynayır. Dünyəvi təhsilə inteqrasiya yolunu seçən Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra bu strateji sahəyə ümummilli inkişafın mühüm amillərindən biri kimi xüsusi diqqətin yetirilməsi belə bir nəticəyə gəlməyə əsas verir ki, ölkədə elm və təhsil problemləri ümumi inkişaf və dövlət siyasəti ilə vəhdət təşkil edir. Tərəqqiyə gedən yolda uğurlar qazanmaq üçün isə dünyanın sivil dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-iqtisadi, mədəni, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması zəruridir. Bunun üçün də xüsusilə strateji əhəmiyyətə malik olan təhsil sistemində köklü islahatlar aparılması Azərbaycan dövlətinin ali məqsədinə çevrilmişdir. Bu mənada ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi həm birinci, həm də ikinci mərhələdə elm və təhsil siyasəti paralel şəkildə aparılmış və bir-birini tamamlamışdır.

Müasir Azərbaycanın ictimai-mədəni həyatının elə sahəsi yoxdur ki, orada Heydər Əliyevin quruculuq fəaliyyətinin fundamental nəticələri aydın şəkildə görünməsin. Bu sahələr içərisində elmin və təhsilin xüsusi yeri vardır. İstər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Heydər Əliyevin elm və təhsil siyasəti milli quruculuq siyasətinin əsas istiqamətlərindən birini təşkil etmişdir. Nəticə etibarilə bu siyasət Azərbaycan cəmiyyətində milli ziyalılığın qızıl fondunun yaradılması ilə nəticələnmişdir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizdə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Heydər Əliyev hər il azərbaycanlı gənclərin təhsil almaq üçün böyük qruplarla keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsinin əsasını qoymuşdur. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır. O dövrdə bütövlükdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın azərbaycanlı gənc göndərilmişdir. Həmin böyük hərəkatın yetirmələri sırasından sonralar yüksək vəzifəli dövlət qulluqçuları ilə yanaşı, ölkə miqyasında tanınmış böyük elm və təhsil xadimləri də çıxmışdır. Bu gün Azərbaycan Milli Elmlər Akademiyasında və ali təhsil sistemində həmin nəslin xüsusi yeri və rolu vardır.

Sovet dövründə Azərbaycanda elmin və təhsilin inkişafında böyük xidmətləri olmuş Heydər Əliyev müstəqillik şəraitində açılan yeni imkanlardan bacarıqla istifadə etməklə ilk növbədə əvvəllər qazanılmış nailiyyətləri daha da möhkəmləndirmək və inkişaf etdirmək mövqeyindən çıxış etmiş, bu sahədə yeni islahatların zəruriliyini diqqət mərkəzinə çəkmişdir: "İndi bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir. Bu yolda keçiriləcək islahatlar gərək müstəqil Azərbaycanın milli mənafelərinin inkişafına yönəldilsin. Güman edirəm ki, bizim alimlər, müəllimlər, təhsil sahəsində ixtisaslaşmış institutlar bu işlərin öhdəsindən gələcəklər".

Ulu öndər Heydər Əliyev azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. Ümummilli liderin fikrincə, ana dili azərbaycançılığın təməl prinsipidir. Buna görə də xalqa milli-mənəvi dəyərlərini aşılamaq üçün ona ilk növbədə öz dilini qorumağın, inkişaf etdirməyin vacibliyini mənimsətmək lazımdır. Xatırlamaq yerinə düşər ki, ulu öndər o dövrdə bütün rəsmi nitqlərini Azərbaycan dilində edir, bunu digər rəhbər vəzifəlilərə də tövsiyə edirdi. Sovet rejimi çərçivəsində Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırmaq ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan tarixi xidmətdir. Azərbaycan Sovet Sosialist Respublikasının 1978-ci ildə qəbul olunmuş Konstitusiyasında ulu öndərin Azərbaycan dilini dövlət dili kimi qəbul etdirməsi ölkəmizdə milli dövlət quruculuğunun möhkəm təməllərindən biri idi. Məhz bu mühüm tarixi əhəmiyyətə malik olan addımdan sonra dövlət idarələri ilə yanaşı, Elmlər Akademiyası sistemində və ali məktəblərdə də ana dili faktorunun dairəsi genişlənmiş, rolu artmış, mövqeyi möhkəmlənmişdir. Akademiyada və universitetlərdə Azərbaycan dilinin üstün mövqe qazanması bütövlükdə respublikada millilik amilinin qüvvətlənməsinə xidmət etmişdir.

*Ardı 5-ci səh.*

## Demokratik və bəşəri dəyərlərə sadiq müdrik rəhbər



**Otuz ildən artıq bir müddətdə Azərbaycan dövlətçiliyinin taleyi dahi və uzaqgörən şəxsiyyət, öz xalqını və vətənini canından artıq sevən ən böyük azərbaycanlı, şərəfli adı bizim üçün həmişə əziz və unudulmaz olan Heydər Əliyevlə bağlı olmuşdur.**

Bu illər xalqımızın milli mənlik şüurunun oyanışı, azadlıq və müstəqillik hissinin güclənməsi, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatının vüsətli dirçəlişi ilə əlamətdar olmuşdur. Bütün həyatını və siyasi fəaliyyətini böyük tarixi keçmişi və zəngin mədəniyyəti ilə fəxr etdiyi xalqının və vətəninin tərəqqisinə həsr etmiş Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxaraq, ölçüyəgəlməz irəliləyişə nail olmuşdur.

1969-cu ilin iyulunda Heydər Əliyevin respublika rəhbəri seçilməsi ilə Azərbaycanın taleyində və tarixində dönüş başlandı. Xalqımızın mənəvi-əxlaqi dəyərlərinə söykənən genişmiqyaslı tədbirlər həyata keçirilməsi sayəsində insanlarda nəinki milli ruhun və özünüdərkin oyanışını şərtləndirdi, həmçinin onların ictimai fəallığının və işgüzarlığının yüksəlməsinə təkan verdi. Milli qürur hissinin güclənməsi, milli şüurun yüksəlməsi sosial-iqtisadi və mədəni həyatın bütün sahələrinin dirçəlişi üçün zəmin oldu. Bu, xalq ruhuna dərindən bələd olan respublika rəhbərinin təşəbbüskarlığının və uzaqgörənliyinin nəticəsi idi.

XX-XXI əsrlərin qovuşuğunda Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması böyük öndərimizin titanik siyasi fəaliyyətinin nəticəsi, 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə onun hakimiyyətə qayıdışının bəhrəsidir.

*Ardı 3-cü səh.*



## Heydər Əliyev yolu milli inkişafın rəhnidir

**Bu gün müasir dünyamızda qloballaşma prosesləri gedir. Qloballaşma iqtisadi cəhətdən dövlətlərin bir-birinə daha sıx yaxınlaşması, informasiya mübadiləsinin sürətlənməsi, qlobal miqyaslı problemlərin dünya miqyasında həllində dövlətlərin əməkdaşlığı olsa da, milli mədəniyyətlərin aradan çıxmasını və milli-mənəvi dəyərlərin arxa plana keçməsini də şərtləndirmişdir.**

Bu gün Azərbaycan bir çox beynəlxalq təşkilatların üzvüdür. BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı kimi qurumlardakı fəaliyyətimiz, həmçinin bir çox dövlətlərlə ikitərəfli münasibətlərimiz Azərbaycanı dünyaya qovuşdurur, inteqrasiyasına təkan verir. Amma dünyaya qovuşmaq Azərbaycan xalqının özünəməxsusluğuna zərər vurmamalıdır. Ona görə də xalqımızın əldə etdiyi nailiyyətlər varislik, yaradıcı təkamül prinsipinə uyğun olaraq inkişaf etdirilərək gələcək nəsillərə ötürülməlidir. Bu baxımdan milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunması və yeni dövrə uyğun olaraq inkişaf etdirilməsi, xarici siyasətimizdə müsəlman ölkələri və türk dünyası ilə münasibətlərimizin özəlliyi və digər bu kimi istiqamətlər diqqəti cəlb edir.

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi, möhkəm iradəsi, məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində respublikamız hərtərəfli və dinamik inkişaf yoluna qədəm qoydu.

*Ardı 4-cü səh.*

## Heydər Əliyev Partiyası - zəfər istinadgahı



**Bir əsrdə iki dəfə müstəqillik əldə edən Azərbaycanın XX əsrin 90-cı illərində öz müstəqilliyini qorumasını, tarixin səhnəsində özünəməxsus yer tutmasını təmin edən başlıca amil ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət olub.**

Bu siyasət milli maraqlara əsaslanmaqla yanaşı, Azərbaycanı tənəzzüldən, xaos və parçalanmaq təhlükəsindən xilas edərək tərəqqi yoluna çıxarıb, perspektiv inkişafın konturlarını aydın müəyyənləşdirib.

Ümummilli lider Heydər Əliyevin müstəqillik dövründə Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərinin mahiyyəti və əhəmiyyətini anlamaq üçün bir sıra məqamlara toxunmaq lazımdır. Əvvəla, Azərbaycanın xilası və intibahının təmin olunması üçün siyasi sabitliyin təmin olunması zəruri idi. Ümumiyyətlə, müstəqillik dövründə Azərbaycanın əldə etdiyi ən mühüm nailiyyətlər məhz dinamik iqtisadi inkişaf və sarsılmaz ictimai-siyasi sabitliklə bağlıdır. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtmasından sonra Azərbaycanda sabitlik təmin edildi, ölkəmizdə beynəlxalq inteqrasiya prosesinə qoşularaq iqtisadiyyatın və bütün sahələrin inkişafı istiqamətində sistemli tədbirlər görülməyə başlandı.

*Ardı 2-ci səh.*

# Qafqaz Müsəlmanları İdarəsi ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş konfrans təşkil edib

Mayın 8-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, din və elm xadimlərinin, müxtəlif dini konfessiyaların təmsilçilərinin, dövlət və hökumət rəsmilərinin, Milli Məclisin deputatlarının, ictimaiyyətin nümayəndələrinin iştirak etdikləri konfransda müqəddəs "Qurani-Kərim"dən ayələr oxunub.







Sonra ümummilli lider Heydər Əliyev haqqında film nümayiş etdirilib.

Tədbirin moderatoru QMİ sədrinin müavini, Bakı İslam Universitetinin rektoru **Sabir Həsənli** ümummilli lider Heydər Əliyevin Azərbaycanda dinə və dindarlara qayğısından danışıb. Bildirilib ki, ulu öndər ölkəmizdə yeni məscidlərin tikintisinə, köhnələrinin isə təmirinə hər zaman xüsusi diqqət yetirirdi. Dindarlar ümummilli lider Heydər Əliyevin diqqət və qayğısını hər zaman hiss edib və yüksək qiymətləndiriblər.

QMİ-nin sədri Şeyxülislam **Allahşükür Paşazadə** çıxış edərək bildirib ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin həyatı boyunca Azərbaycan naminə göstərdiyi xidmətlər misilsizdir. Bu görkəmli şəxsiyyətin onilliklər ərzində vətənə, millətə xidmətinin cövhərində böyük mənəviyyat sahibi olması dayanır. Heydər Əliyev ölkəmizi dini, etnik separatçılıq zəminində parçalamaq, mənəvi cəhətdən zəiflətmək, məzhəb ayrı-seçkiliyi salmaq istəyənlərin niyyətlərini puça çıxararaq dövlətçiliyimizi xilas edib. Milli və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarımızı azərbaycançılıq məfkurəsi ətrafında səfərbər etməklə ulu öndər Azərbaycan dövlətçiliyinin sarsılmaz əsaslarını yaradıb. "Heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrdən istifadə edərək gələcəyimizi quracağıq" sözləri Heydər Əliyevin dünyalar qədər sevdiyi Azərbaycanın gələcək səadətinin təminində müqəddəs dinimizin oynayacağı rolu uzun illər əvvəldən düşündüyünü göstərir, onun İslam dəyərlərinə sədaqətindən xəbər verirdi. Təsadüfi deyil ki, ümummilli lider hakimiyyətə qayıdandan sonra ilk addımlarından birini məhz ibadət məkanına atdı - Təzəpir məscidini ziyarətə gələrək dindarlar qarşısında çıxış etdi, "Allahın yolunda hamımız bir olaq" - dedi. Ulu öndərin ilk sərəncamlarından biri nisgilli Bibiheybət məscidinin bərpası ilə bağlı oldu. Bibiheybət məscidinin təməlinin qoyulması mərasimində ulu öndər deyib: "Biz Azərbaycanda bütün dini abidələri, ocaqları, müqəddəs yerləri sizinlə birlikdə bərpa edəcəyik. Bizim görə bilmədiyimiz işləri davamçılarımız sona çatdıracaqlar".

Şeyxülislam qeyd edib ki, dinindən, dilindən asılı olmayaraq Azərbaycan vətəndaşlarına eyni münasibət bəsləyən ümummilli lider illərin sınağından çıxmış adət-ənənələrimizə ehtiramla yanaşırdı, müxtəlif icmaların bayramlarında iştirak edir, onları təbrik edirdi. "Ulu öndərimizin ən böyük arzusu ölkəmizin ərazi bütövlüyünün bərpası, qaçqın və məcburi köçkün soydaşlarımızın öz də-də-baba yurdlarına qayıtmaları, doğma Qarabağımızda dağıdılmış mədəni-mənəvi abidələrimizin bərpa edilməsi idi. Mən əminəm ki, inşallah, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə onun bu arzusu da gerçəyə çevriləcək", - deyə QMİ sədri qeyd edib.

Şeyxülislam bildirib ki, Heydər Əliyevin dövlətçilik məktəbi var olduqca müstəqilliyimiz və rifahımız da əbədi olacaq. O deyib: "Biz dindarlar bünövrəsi ulu öndər tərəfindən qoyulan, Azərbaycan xalqının gələcəyi və rifahı naminə aparılan dövlət siyasətini bəyənir və dəstəkləyirik. İnşallah, uca Yaradanın köməyi və müdrik dövlət başçımızın rəhbərliyi ilə Azərbaycan xalqı dünya miqyasında daha böyük uğurlara və qələbələrə imza atacaq".

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi **Əli Həsənov** tədbirdə çıxış edərək Azərbaycanın tarixinə qurucu və xilaskar kimi daxil olmuş ulu öndər Heydər Əliyevin xalqımızın taleyində, mənəvi, siyasi və ictimai həyatında misilsiz xidmətlərindən danışıb. Bildirib ki, ümummilli lider Heydər Əliyev 95 il bundan əvvəl Tanrının Azərbaycan xalqına bəxş etdiyi bir lider idi. O, nəinki özünün, ailəsinin, doğulduğu elin-obanın sonrakı taleyini müəyyən etdi, eləcə də Azərbaycan xalqının bugünkü inkişafının, bugünkü taleyinin müəyyən olunmasında əvəzsiz xidmətlər göstərdi. Heydər Əliyev məhz o liderlərdən idi ki, Azərbaycan xalqının həm keçmiş, həm bugünkü, həm də gələcək taleyində önəmli nümunələr yaratdı və bu nümunələr ətrafında Azərbaycan xalqı yaşayır, fəaliyyət göstərir və cəmiyyətimiz dünyaya çoxsaylı nümunələr verir - tolerantlıq nümunəsi, ictimai-siyasi sabitlik nümunəsi, xalqlar, millətlər, dinlər arasında birgəyaşayışın sivil normalarının gözəl nümunəsi. Biz bu nümunələrlə fəxr edirik və həmişə fəxr edəcəyik. Prezident İlham Əliyevin bu gün yürütdüyü siyasət hər bir taleyüklü məsələnin həllində həmişə öz ətrafında ölkənin ziyalıları, dövlət və ictimai xadimləri ilə bərabər din xadimlərini də birləşdirən ümummilli liderin yaratdığı monolit milli-etnik birliyin nümunəsidir.

Əli Həsənov qeyd edib ki, ulu öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bütün vasitələrlə Azərbaycan dövlətini xilas etdi və onun qurtuluş missiyasını öz çiyninə götürdü. Əlbəttə, dövlətin təməlində milli birlik, ictimai-siyasi sabitlik və vətəndaşların iradəsi dayanmalıdır. Ona görə də ümummilli lider milli birlik, vətəndaş birliyi yaratdı. Bu vətəndaş birliyini də çox zərgər dəqiqliyi ilə seçdi. Bu vətəndaş birliyinin təməlində insanların dininə, dilinə, mədəniyyətinə hörmət dayanır. O vaxta qədər Azərbaycan cəmiyyətini müxtəlif xalqlar və etnik qruplar arasında mübarizəyə sürükləyən insanlar Azərbaycanda ciddi milli-etnik qarşıdurma yaratmışdı. Heydər Əliyev bu qarşıdurmanı aradan qaldırdı və hər bir insanın dininə, etnik dəyərlərinə, mədəniyyətinə hörmətlə yanaşdı və bu əsasda milli-etnik monolitliyi yaratdı. Ümummilli lider dövlət-din münasibətlərinin nümunəvi modelini yaratdı. Azərbaycanın bugünkü İslam dini modelinə və dini tolerantlığına baxın. Bizim dini modelimiz elə qurulub ki, inanclı insanlar dövlətin dünyəvi normalarına, dövlət isə inanclı insanların dini ayinlərinə müdaxilə etmir. Hər birinin öz yeri, öz çərçivəsi var. Bu qızıl ortamı ümummilli lider müəyyən edib.

Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycanda bütün dinlərin, mədəniyyətlərin nümayəndələrinə hörmətlə yanaşılır. Azərbaycan cəmiyyətində məzhəbçilik yoxdur, heç zaman ölkəmizdə sünni-şiə qarşıdurması olmayıb. Ona görə ki, Azərbaycanda heç kimin qəlbində belə ayrı-seçkilik yoxdur. Ümummilli liderin yaratdığı nümunə budur.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı **Fəttah Heydərov** bildirib ki, Heydər Əliyev ömrünü Azərbaycan xalqına həsr edib. Sovet dövründə Azərbaycan 15 respublika arasında ən aşağı yerlərdə idi. Ulu öndər 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başladıqdan sonra respublika çox böyük nailiyyətlər əldə etdi. Gördüyü işlər nəticəsində Heydər Əliyev SSRİ kimi hegemon dövlətin rəhbərliyində təmsil olundu. Ulu öndər bir müddət siyasətdən uzaq qaldı. Azərbaycanın Heydər Əliyevsiz qalması ölkəni böyük fəlakətlərə apardı, torpaqlarımızın 20 faizi işğal olundu, minlərlə şəhid verdik, vətəndaşlarımız məcburi köçkünə çevrildi. Naxçıvan da Qarabağ kimi işğal ediləcəkdi. Heydər Əliyevin Naxçıvana gəlməsi muxtar respublikanı işğal təhlükəsindən xilas etdi. Ulu öndər Azərbaycan xalqının tarixində əbədi bir yer qazandı. Azərbaycan Prezidenti İlham Əliyev də apardığı siyasətlə ümummilli liderin layiqli davamçısı olduğunu sübut etdi.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri **Mübariz Qurbanlı** Heydər Əliyevin müstəqil Azərbaycan yolundakı tarixi xidmətlərindən danışıb. O qeyd edib ki, ulu öndər müasir müstəqil Azərbaycanın təməl prinsiplərini müəyyənləşdirib. Bu təməl prinsiplərə azərbaycançılıq, mənəvi dəyərlərə sadiqlik, dövlət-vətəndaş həmrəyliyi və s. aiddir. Bu təməl prinsiplər bizim üçün əbədidir.

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri **Siyavuş Novruzov** bildirib ki, ulu öndər Heydər Əliyev uzaqgörən, böyük siyasi xadim idi. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan dünya ölkələri arasında özünə layiqli yer tutdu. Bu gün Azərbaycan ümummilli liderin ideyaları, strategiyası əsasında inkişaf edir. Ümummilli lider hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilib.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri **Eldar İbrahimov** ulu öndərin hələ keçmiş SSRİ dövründə Azərbaycana rəhbərlik etdiyi vaxtlarda gördüyü mühüm işlərdən, əldə olunan nailiyyətlərdən söz açıb. Qeyd edilib ki, ümummilli lider müstəqil Azərbaycanın tarixində olduqca çətin bir vaxtda xalqın tələbi ilə yenidən rəhbərliyə qayıdıb, respublikanı tənəzzüldən, böhrandan çıxararaq müasir inkişafımızın bünövrəsini qoyub.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, Azərbaycan Dillər Universitetinin rektoru, akademik **Kamal Abdulla** deyib ki, müasir müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyev bütün həyat və fəaliyyətini xalqımızın və respublikamızın hərtərəfli inkişafına, azərbaycançılıq ideyasının milli şüurda qərarlaşmasına, müstəqil dövlətçiliyin möhkəmlənməsinə, mədəniyyətimizin və incəsənətimizin dünyada tanıdılmasına həsr edib.

Bakı Dövlət Universitetinin rektoru, akademik **Abel Məhərrəmov** vurğulayıb ki, bu gün ölkəmizdə qazanılan böyük uğurlar məhz Heydər Əliyev dühasının bəhrəsidir. Ümummilli liderin hakimiyyətinin istər sovet, istərsə də müstəqillik dövründə ölkəmizin hərtərəfli inkişaf etdiyini bildirən rektor qeyd edib ki, ulu öndər Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi, respublikamızın tərəqqisi yolunda böyük addımlar atıb.

Daha sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin Elmi-Dini Şurasının sədri, akademik **Vasim Məmmədəliyev**, QMİ sədrinin birinci müavini, müfti **Salman Musayev**, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu **Aleksandr İşein**, Azərbaycan Dağ Yəhudiləri İcmasının sədri **Milix Yevdayev**, Azərbaycanda katolik icmasının başçısı **Vladimir Fekete** və başqaları dünya şöhrətli siyasi xadim, ulu öndər Heydər Əliyevin vətən və xalq qarşısındakı xidmətlərindən, ölkəmizdəki dini icmalara diqqət və qayğısından, milli-mənəvi dəyərlərin qorunması istiqamətində gördüyü işlərdən danışıblar.

# Heydər Əliyev Partiyası - zəfər istinadgahı

*Əvvəli 1-ci səh.*

Digər tərəfdən, həmin dövrdə siyasi sistemin təşəkkülü və inkişafı istiqamətində həyata keçirilən tədbirlər də müstəsna əhəmiyyətə malik idi. Bu baxımdan, ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının (YAP) fəaliyyətini xüsusi vurğulamaq lazımdır. YAP-ın fəaliyyəti ölkəmizdə ictimai-siyasi təsisatların siyasi sistemdə səmərəli təmsilçiliyinin uğurlu nümunəsini yaratmış oldu. YAP həm də sivil siyasi mübarizə forması və qaydalarının müsbət örnəyini yaratdı.

İnkaredilməz həqiqətdir ki, ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında mühüm tarixi xidmətlərindən biri məhz YAP-ın yaradılması idi. Yeni Azərbaycan Partiyası həmin dövrdə Azərbaycanı düçar olduğu xaos və anarxiyadan xilas etmək, ölkədə sabitlik və inkişafın yaradılmasını təmin etmək üçün xalqımızı milli maraqlar ətrafında birləşdirməyi bacardı. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalı ulu öndər Heydər Əliyevə müraciət etdi. Ümummilli lider isə ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və ulu öndər Heydər Əliyev partiyanın sədri seçildi. Reallıqlar və proseslər göstərdi ki, YAP-ın yaranması tarixi zərurət idi. Partiya xilaskar bir missiya üçün yarandı və sonrakı dövrdə Azərbaycanı inkişaf yoluna çıxararaq parlaq gələcəyə apardı. YAP-ın yaradılması həm də Azərbaycanın siyasi sisteminin əsasının qoyulması demək idi.

Yeni Azərbaycan Partiyası yarandıqdan qısa müddət sonra xalqın inam və etimadını qazanaraq iqtidar partiyasına çevrildi. Ümummilli liderimizin nüfuzu, Azərbaycan xalqının ona göstərdiyi yüksək etimad Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Yeni Azərbaycan Partiyası dünyada analoqu olmayan bir siyasi təşkilat kimi yarandığı müddətdən 6 ay sonra siyasi hakimiyyətə gəldi. Bunun əsasında duran başlıca amil partiyaya rəhbərlik edən ümummilli lider Heydər Əliyevin xarizması və yüksək nüfuzu idi. Azərbaycan xalqı böyük dövlət xadimi Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi və yüksək vətənpərvərlik mövqeyi əsasında ölkəmizi tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxaracağına dərin ümidlər bəsləyir və onun rəhbərlik etdiyi partiyaya sonsuz etimad göstərirdi. Bu inam və etimad özünü doğrultdu, ümummilli lider Heydər Əliyevin sədri olduğu partiya Azərbaycanın inkişafına, tərəqqi yolunda inamlı addımlarla irəliləməsinə müstəsna töhfələr verdi.

2005-ci ilin mart ayında keçirilən YAP-ın III Qurultayında Azərbaycan Prezidenti, YAP sədrinin birinci müavini cənab İlham Əliyevin partiyanın sədri seçilməsi ilə təşkilatın həyatında yeni mərhələ başladı. Prezident İlham Əliyevin YAP-ın sədri seçilməsindən sonra partiyada əhəmiyyətli dərəcədə mühüm dəyişikliklər müşahidə olundu. Ötən müddət ərzində Yeni Azərbaycan Partiyası öz fəaliyyətini məhz ümummilli lider Heydər Əliyevin ideyaları əsasında uğurla davam etdirərək ölkəmizin inkişafında mühüm rol oynadı. III Qurultaya qədər partiyanın üzvlərinin sayı 360 min nəfərə yüksəlmişdisə, hazırda partiyamızın üzvlərinin sayı 700 mindən çoxdur. Bu, öz növbəsində xalqın Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətə verdiyi dəstəyin ifadəsi, eyni zamanda, YAP-ın cəmiyyətdə yüksək nüfuzunun göstəricisidir. Partiyanın yüksək nüfuzunu göstərən başlıca amillərdən biri də odur ki, 700 min nəfərdən çox üzvü olan YAP bu müddət ərzində ölkədə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində inamlı qələbələr qazanaraq qələbələr partiyası kimi çıxış edib. Prezident İlham Əliyev diqqətə çatdırıb ki, son 25 il ərzində partiyamız uğurla inkişaf edib və bütün seçkilərdə - həm parlament, həm prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəlib: *"Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Buna baxmayaraq, biz həmişə qabağa baxmalıyıq və əldə edilmiş uğurlarla kifayətlənməməliyik. Uğurlarımızın səbəblərindən biri də məhz ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir. Çatışmayan cəhətləri aradan qaldırmaq, sosial ədaləti daha da böyük dərəcədə bərqərar etmək üçün biz bundan sonra da fəal çalışmalıyıq".*

Yeni Azərbaycan Partiyasının növbəti zəfəri 11 aprel 2018-ci il tarixində keçirilən prezident seçkilərində partiyamızın sədri cənab İlham Əliyevin möhtəşəm qələbəsi oldu. Xalqımız aprelin 11-də öz iradəsini ifadə etdi və Prezident İlham Əliyevə növbəti dəfə yüksək etimad göstərdi. Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri, ümummilli lider Heydər Əliyevin layiqli varisi İlham Əliyevin seçicilərin 86,02 faizinin dəstəyini qazanmaqla növbəti möhtəşəm qələbəyə imza atması Azərbaycanın son 15 ildə keçdiyi inkişaf yoluna verilən adekvat qiymətdir. Bu qələbə Azərbaycan xalqının Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf siyasətinə mütləq inam və etimad bəslədiyini nümayiş etdirdi.

Ötən müddət ərzində Yeni Azərbaycan Partiyası sosial sifarişə əsaslanaraq bir sıra ciddi təşəbbüslərlə də çıxış edib. 2008-ci ilin dekabr ayında YAP Azərbaycan Konstitusiyasında dəyişikliklər təşəbbüsü ilə çıxış edərək bununla bağlı ümumxalq səsverməsinin - referendumun keçirilməsini təklif etdi. Konstitusiya Məhkəməsi bu təkliflərə müsbət rəy verdikdən sonra Milli Məclis 2009-cu il martın 18-də Konstitusiya dəyişikliklərinin edilməsi ilə bağlı ölkədə referendum keçirilməsi haqqında qərar qəbul etdi. Referendumun nəticələri isə xalqın YAP-a olan inamını bir daha təsdiqlədi. 2016-cı ilin 26 sentyabr tarixində isə ölkə Prezidenti, YAP-ın sədri İlham Əliyevin təşəbbüsü ilə Konstitusiyaya əlavə və dəyişikliklərlə əlaqədar referendum keçirildi. Bu prosesdə YAP "Yeni Azərbaycan" təşviqat qrupu yaradaraq referenduma çıxarılan məsələlərin cəmiyyətdə geniş təbliğatını həyata keçirdi. Bu ümumxalq səsverməsinin nəticələri də xalqın YAP sədri, ölkə Prezidenti İlham Əliyevin siyasətinə böyük dəstək verdiyini, partiyamızın cəmiyyətdə yüksək nüfuza malik olduğunu bir daha nümayiş etdirdi.

Hazırda Yeni Azərbaycan Partiyası Cənubi Qafqazın ən böyük ictimai-siyasi təşkilatı olmaqla yüksək beynəlxalq nüfuza və geniş, çoxşaxəli əlaqələrə malikdir. Yeni Azərbaycan Partiyasının müxtəlif ölkələrin siyasi partiyaları və demokratik təsisatları ilə qurduğu işgüzar və səmimi münasibətlər ardıcıl olaraq inkişaf edir. YAP-ın beynəlxalq əlaqələrində dost və qardaş Türkiyənin, MDB üzvü olan ölkələrin, Avropa və Asiyanın bir sıra aparıcı siyasi partiyaları və qurumları ilə münasibətlərin inkişafı prioritet istiqamət kimi əsas götürülüb. Yeni Azərbaycan Partiyası Türkiyə, Rusiya, Gürcüstan, Qazaxıstan, Kanada, Hindistan, Çin, Cənubi Koreya, Vyetnam, Pakistan, Tacikistan və digər ölkələrin aparıcı siyasi partiyaları ilə uzun müddətdən bəri sıx və qarşılıqlı münasibətlərə malikdir, partiyalar arasında intensiv görüşlər keçirilir, fikir və təcrübə mübadilələri aparılır. Partiyamız 51 ölkənin təmsil olunduğu siyasi partiyaların Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransı (ICAPP) Daimi Komitəsinin üzvüdür. YAP bu kimi nüfuzlu beynəlxalq qurumda təmsil olunmaqla Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində də mühüm tribuna əldə edib. Bununla yanaşı, YAP-ın Avratlantik məkanda baş verən siyasi proseslərə təsir imkanları genişdir və müxtəlif beynəlxalq qurumlarla inteqrasiya tendensiyaları dərinləşməkdədir. Xüsusilə, Almaniyanın, Fransanın, İtaliyanın, İspaniyanın və digər ölkələrin hakimiyyətdə olan sağ partiyalarını özündə birləşdirən və Avropa Parlamentində çoxluğa sahib olan Avropa Xalqları Partiyası (EPP) ilə münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. YAP-ın təşkilatçılığı ilə Bakıda müxtəlif mövzularda keçirilən konfranslar partiyamızın beynəlxalq əlaqələrinin geniş coğrafiyasına və intensiv xarakterinə əyani misal ola bilər. Ümumiyyətlə, Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrinin coğrafiyası getdikcə genişlənir. Bu əlaqələr, eyni zamanda müstəqil Azərbaycan Respublikasının siyasi partiyalar səviyyəsində beynəlxalq təşkilatlarda təmsilçiliyinin yüksək nümunəsidir.

Bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi YAP ölkə daxilində alternativsiz ictimai-siyasi təşkilat, eləcə də siyasi sistemin lokomotiv gücü kimi çıxış edir. Partiyamız Azərbaycanın inkişafına layiqli töhfələr verir, öz fəaliyyətində xalqın ali mənafeyini və dövlətçilik maraqlarını əsas götürür. Bütün bunlar deməyə əsas verir ki, xalqın partiyası olan Yeni Azərbaycan Partiyası bundan sonra da öz fəaliyyətini uğurla davam etdirəcək, xalqın dəstəyi ilə növbəti qələbələr qazanaraq yeni zirvələri fəth edəcək, ölkəmizin inkişafına layiqli töhfələrini davam etdirəcək. Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində çıxışı zamanı ölkə Prezidenti, partiyamızın sədri İlham Əliyev bu məqamlara toxunaraq diqqətə çatdırıb ki, bu gün Yeni Azərbaycan Partiyası öz sıralarında 700 mindən çox insanı birləşdirir, onların 40 faizi gənclərdir: *"Yəni bu gün partiyamızın fəaliyyəti, ideyaları, apardığı siyasət gənc nəsil üçün də cəlbedicidir və bu, çox müsbət haldır. Bu, onu göstərir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq və partiyanın təbliğ etdiyi, bəyan etdiyi prinsiplər bu gün xalq tərəfindən tam dəstəklənir. İndi Azərbaycanda görülmüş işlər, ölkəmizin uğurlu inkişafı, əlbəttə, hər bir vətənpərvər insana əyani şəkildə göstərir ki, bugünkü iqtidarın apardığı siyasət yeganə düzgün siyasətdir".*

Nəticə etibarilə, öz fəaliyyətini Azərbaycan xalqının və dövlətinin maraqlarının müdafiəsi prinsipi üzərində quran, ölkəmizin inkişafına layiqli töhfələrini verən, buna görə də ümumxalq partiyası kimi xarakterizə edilən Yeni Azərbaycan Partiyası ümummilli lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Partiyamızın 25 ildən çox müddəti əhatə edən fəaliyyət dövrü müstəqil Azərbaycanın siyasi tarixinin səhifələrində şərəf və qürur tarixi kimi yer alır.

*Ümumxalq partiyası olan YAP ötən müddət ərzində Azərbaycan xalqının maraqlarının ifadəçisi, dövlətimizin inkişafına xidmət edən siyasətin hərəkətverici qüvvəsi olub. Bütün bu reallıqlar isə ümummilli lider Heydər Əliyevin zəfər partiyası olan YAP-ın yeni və daha möhtəşəm qələbələrə doğru əmin addımlarla irəlilədiyini göstərir.*

***Hüseyn PAŞAYEV,***
***YAP Siyasi Şurasının üzvü,***
***YAP Mətbuat Xidmətinin rəhbəri***

1923 **Azərbaycanın özü qədər əbədi** 2018

# Demokratik və bəşəri dəyərlərə sadiq müdrik rəhbər



*Əvvəli 1-ci səh.*

Hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsini, xalqın birliyinin təmin olunmasını, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş üçün zəmin yaradılmasını özünün dövlətçilik strategiyasının prioritet istiqaməti kimi müəyyənləşdirdi.

Müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının təmini məqsədilə həyata keçirilən hüquqi islahatlar içərisində ən mühümü məhz yaşamaq hüququnun təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər planı olmuşdur. 1993-cü ildə Heydər Əliyevin ilk qərarlarından biri məhz ölüm cəzasının tətbiqi üzərində moratorium qoyulması oldu.

Demokratik hüquqi dövlət quruculuğu yolunu tutmuş Azərbaycan xalqı milli müstəqillik əldə etdikdən sonra bir çox çətinliklərlə qarşılaşmışdı. O dövrdə ölkəmizdə hökm sürən hərc-mərclik, özbaşınalıq, qanunsuz silahlı birləşmələrin mövcudluğu, cinayətkarlığın tüğyan etməsi, insanların dinc və təhlükəsiz yaşamasını qəsdə məruz qoymuşdu.

Ulu öndərin həyata keçirdiyi siyasət nəticəsində dövlətçiliyimiz möhkəmləndirildi, ictimai-siyasi sabitlik bərqərar edildi, qanunsuzluqlara, zorakılığa, cəzasızlıq əhval-ruhiyyəsinə son qoyuldu. Vətəndaşlarımız təhlükəsiz yaşamaq hüququ əldə etdilər. Bütün bunlar demokratik cəmiyyətin qurulmasına, insanların hüquq və azadlıqlarının müdafiəsinə təminat verdi.

1994-cü il mayın 12-də atəşkəs barədə sazişin imzalanması ordu quruculuğunda köklü islahatlar aparılmasına şərait yaratdı. Orduya çağırışla bağlı bütün problemlər həllini tapdı, fərarilik halları aradan qalxdı. Dövlətçiliyi və hərbçi şərəfini uca tutan zabitlər rəhbər vəzifələrə irəli çəkildi. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi. Ordu quruculuğunun müxtəlif sahələri ilə bağlı digər zəruri addımlar atıldı.

1993-cü il noyabrın 1-də Prezidentin müvafiq fərmanı ilə Dövlət Müdafiə Şurası yaradıldı. Şuranın ilk iclasında ordu quruculuğu, müdafiə məsələləri geniş müzakirə olundu, müvafiq qərarlar qəbul edildi. Səfərbərliyin təşkili, döyüş hazırlığının, qoşun hissələrinin, şəxsi heyətin təlim-tərbiyəsinin təkmilləşdirilməsinə, sosial şəraitin yaxşılaşdırılmasına istiqamətləndirilmiş tədbirlər müəyyən olundu. Bu, olduqca vacib amillər idi və ümummilli lider ordu quruculuğuna məhz bu məsələləri həll etməklə başladı. Nəticə etibarilə bu proses dünya təcrübəsinə və milli dəyərlər sisteminə əsaslanmaqla uğurla davam etdirildi. Qısa müddətdə atılan düşünülmüş addımlar öz bəhrəsini verdi - nizami ordu yaradıldı və formalaşmağa başladı.

1995-ci il noyabrın 12-də Azərbaycanın tarixində ilk dəfə olaraq müstəqil dövlətimizin Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əsas müddəalarını özündə əks etdirən Konstitusiyada insan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan olundu. Çoxəsrlik dövlətçilik ənənələrimizə, milli və ümumbəşəri dəyərlərə söykənərək yaradılan Konstitusiyamız hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu.

Qeyd olunduğu kimi, 1993-cü ilin iyun ayından ölkəmizdə ölüm cəzasının icrasına moratorium qoyulmuş, daha sonra ölüm cəzasının tətbiqi məhdudlaşdırılmış və 1998-ci il fevralın 10-da ölüm cəzası ləğv edilmişdir. Bu tarixi addım fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığımıza əsaslanmaqla humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan prezidentimizin gələcək nəsillərə misilsiz töhfəsi oldu.

Bu bir həqiqətdir ki, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunması və müstəqillik tariximizdə ilk parlament seçkiləri keçirilməsi ilə Azərbaycanın tarixi inkişafının yeni bir mərhələsi başlandı. Ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış ümumxalq müzakirəsinə çıxarılan Konstitusiya layihəsi həmin il, yəni, 1995-ci ilin noyabrın 12-də keçirilən referendumda - ümumxalq səsverməsində qəbul edilmişdir. Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyasında yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər, fundamental hüquq və azadlıqlar öz əksini tapmışdır.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə islahatların hüquqi bazasının yaradılması, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm sənədlər qəbul edilmiş, respublikamız müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşulmuş, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədi ilə xeyli tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər sırasında Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli sərəncamı ilə yaradılmış Hüquq islahatları komissiyasını xüsusi qeyd etmək lazımdır. Bu komissiya xalqımızın dövlətçilik tarixində yaratdığı ənənələri qorumaqla inkişaf etmiş dövlətlərin hüquq islahatları ilə bağlı təcrübəsindən də bəhrələnmişdir. Komissiyanın 4 may 1996-cı ildə keçirilmiş iclasında ümummilli liderimiz Heydər Əliyev demişdir:

*“Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının həyata keçirilməsi prosesi hər birimizin əsas vəzifələrindən biridir. Bu baxımdan məhkəmə, hüquq-mühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanması, qəbul olunması çox mühüm əhəmiyyət kəsb edir. İndi qarşımızda Konstitusiya əsasında qanunların qəbul olunması kimi çox böyük vəzifələr var. Hər sahədə qanunlar qəbul edilməlidir. İndi mən vaxt deyə bilmərəm - bir il, iki il, - hər halda, müəyyən bir zaman ərzində nail olmalıyıq ki, bütün sahələr üzrə müstəqil Azərbaycan dövlətinin qanunları olsun”.*

Heydər Əliyevin Hüquq islahatları komissiyasındakı bu nitqi respublikamızda qanun yaradıcılığı sahəsində həyata keçirilən böyük işlərin proqram sənədi kimi mühüm əhəmiyyətə malikdir.

Hüquq islahatları sahəsində çox əhəmiyyətli sənədlərdən biri də Heydər Əliyevin 1996-cı il iyunun 8-də imzaladığı “Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında” sərəncamdır. Bu sənədə əsasən, beynəlxalq standartlara uyğun “Konstitusiya Məhkəməsi haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Prokurorluq haqqında” qanun və digər hüquqi sənədlərin layihələri hazırlanıb Milli Məclisdə müzakirə edilmiş və müvafiq qaydada qəbul olunmuşdur.

Milli Məclisin bu günə qədər qəbul etdiyi hüquqi sənədlərin böyük bir hissəsi Heydər Əliyev tərəfindən parlamentin müzakirəsinə verilmiş qanun layihələri, konvensiyalar və sazişlərdir. Respublika parlamenti son illər ərzində bu istiqamətdə, yəni, hüquq islahatları sahəsində xeyli tarixi sənədlər qəbul etmişdir.

Ulu öndərin 22 fevral 1998-ci il tarixli “İnsan və vətəndaş hüquqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” fərmanı da hüquq islahatları baxımından mühüm əhəmiyyət kəsb edən tarixi sənədlərdəndir. Bu fərmanda ölkəmizdə insan hüquq və azadlıqlarının cəmiyyətimizdə əsas meyar olduğu xüsusilə vurğulanmış, icra strukturlarının vəzifələri müəyyən edilmişdir.

Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisdə ölkəmizin Avropa xalqları ailəsi ilə inteqrasiyasını gücləndirən normativ sənədlər də qəbul olunmuşdur. Parlament bu sahədə “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Konvensiyanı, “İşgəncələrin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında” Avropa Konvensiyasını, “Yerli özünüidarəetmə haqqında” Avropa Xartiyasını təsdiq edən sənədləri, “Vətəndaşlıq haqqında”, “Sərbəst toplaşmaq azadlığı haqqında”, “Dini etiqad azadlığı haqqında” qanunları qəbul etmişdir.

Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması hüquq islahatları baxımından respublikamız qarşısında mühüm öhdəlik və vəzifələr qoymuşdu. Bu vəzifələrin yerinə yetirilməsi sahəsində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilmiş, Prezidentin təşəbbüsü ilə Milli Məclisdə dövlət qulluğunu tənzimləyən bir sıra qanunvericilik aktları qəbul edilmişdir.

Hüquq islahatları sahəsində Milli Məclis Heydər Əliyevin təşəbbüsü ilə bir neçə konstitusiya qanunu da qəbul etmişdir. Bunlar “Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında”, “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında”, “Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında” konstitusiya qanunlarından ibarətdir. Bütün bu sənədlər ölkəmizdə insan hüquq və azadlıqlarının qorunmasına necə böyük əhəmiyyət verildiyinin əyani təsdiqidir.

Heydər Əliyev ölkəmizdə aparılan hüquq islahatları haqqında respublikamızın dövlət müstəqilliyinin onuncu ildönümünə həsr olunmuş təntənəli mərasimdə demişdir:

*“1995-ci ildə müstəqil Azərbaycanın ilk milli Konstitusiyası qəbul olundu. Həmin o il Azərbaycanın ilk Milli Məclisi seçildi. Baxmayaraq ki, 1995-ci ildə biz hələ ağır iqtisadi vəziyyətdə yaşayırdıq, ictimai-siyasi vəziyyət ardıcıl surətdə sabitləşdirildi. Bunların hamısı bizə Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, Azərbaycana xarici investisiyanın cəlb edilməsini təmin etmək, Azərbaycanın ordusunu yaratmaq, onu möhkəmləndirmək və insanların rifah halını yaxşılaşdırmaq üçün imkanlar yaratdı.*

*Hər bir qanunun arxasında Azərbaycanda dövlət quruculuğunu təmin etmək, iqtisadi islahatları həyata keçirmək, siyasi islahatları həyata keçirmək, sosial islahatları həyata keçirmək məsələləri durur. Azərbaycanı keçmiş sosialist ictimai-siyasi, iqtisadi sistemindən yeni sistemə keçirmək prosesini biz bu illərdə apardıq və buna da nail olmuşuq. Məhz bunların nəticəsində indi Azərbaycanda demokratik, hüquqi dövlət öz fəaliyyətini uğurla həyata keçirir. Azərbaycan xalqı bunların nəticəsində öz müstəqil ölkəsində tam azadlığa çıxıbdır.”*

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci ildə ümumxalq referendumu ilə qəbul olunduqdan bir müddət sonra - 2002-ci ildə Azərbaycanın həmin dövrdəki inkişaf səviyyəsinə və perspektivlərinə uyğun olaraq keçirilmiş referendumda bir sıra mühüm məsələlər öz həllini tapmışdı, o cümlədən seçki prosesi ilə bağlı proporsional seçki sistemi ləğv olunmuş, mojaritar seçki sisteminə keçirilmişdi.

Ölkədə siyasi, iqtisadi, sosial və hüquq islahatlarının qanunvericilik mexanizminin yaradılmasına və təkmilləşdirilməsinə yönəldilmiş yüzlərlə qanun layihəsi Heydər Əliyevin imzası ilə parlamentə təqdim edilmiş və qəbul olunmuşdur. Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisin qəbul etdiyi qanunvericilik aktları, o cümlədən Mülki Məcəllə, Mülki-Prosessual Məcəllə, İnzibati Xətalar Məcəlləsi, Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəllə, Cəzaların İcrası Məcəlləsi, “Torpaq islahatı haqqında”, “Konstitusiya Məhkəməsi haqqında”, “Məhkəmələr və hakimlər haqqında”, “Prokurorluq haqqında”, “Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” və digər qanunlar Azərbaycanın demokratik yolla ardıcıl inkişafı üçün bütün hüquqi təminatları yaratmışdır.

Bunlar bir tərəfdən Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun təmin edilməsi, çoxpartiyalılığa, müxtəlif siyasi cərəyanların ideyalarının azad ifadə olunmasına əsaslanan siyasi sistemin yaradılması, insan və vətəndaş hüquqlarının qorunmasına qulluq edən təsisatların formalaşması, digər tərəfdən isə ölkəmizdə azad rəqabətə, inkişaf etmiş mülki dövriyyəyə, müasir bazar münasibətlərinə əsaslanan iqtisadiyyatın qurulması məqsədini güdən qanunvericilik tədbirlərini əhatə etmişdir.

Bu gün Azərbaycanda respublika Prezidenti möhtərəm İlham Əliyevin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatları ümummilli lider Heydər Əliyevin bu sahədə həyata keçirdiyi dövlət siyasətinin məntiqi davamıdır.

İqtisadi inkişaf üçün hüquqi bazanın və islahatların əhəmiyyəti ondan ibarətdir ki, hüquqi baza və normativ əsaslara söykənərək fəaliyyət göstərən dövlət institutları əlverişli biznes mühitinin yaranmasını və tərəflər üçün bərabər imkanları təmin edir. Belə ki, xüsusi mülkiyyət hüquqlarının qorunmasını təmin edə bilən və uzunmüddətli müqavilələrin bağlanmasını təşviq edən qanunvericilik sistemi investisiyaların həcminin artması və iqtisadi inkişaf üçün mühüm şərtlərdir.

Hüquqi islahatlara olan yanaşma və onların davamlılığı sosial-iqtisadi rifahı təmin edir. Digər ölkələrin də təcrübəsi göstərir ki, məhz demokratik sistemin və hüququn aliliyinin inkişafını daha möhkəm təmin etmiş dövlətlər daha sürətli və uğurlu iqtisadi inkişafa nail olmuşlar. Eyni zamanda, iqtisadi göstəricilərin və inkişafın zəif olduğu ölkələr daha kövrək hüquq sisteminin və siyasi sabitliyin olduğu ölkələrdir. Yəni, iqtisadi inkişafı hüquqi islahatlarla paralel həyata keçirən, bir-birini tamamlayan yanaşma ortaya qoyulduqda həmin dövlətlərdə iqtisadi inkişaf və vətəndaş rifahı dayanıqlı olur.

Dövlətin inkişafı və vətəndaşların rifahı ilkin olaraq sosial-iqtisadi siyasətlə və göstəricilərlə əlaqələndirilir, ancaq bu proses paralel həyata keçirilən dərin, hərtərəfli hüquqi islahatlarsız səmərəli olmur. İlham Əliyevin prezident seçildiyi 2003-cü ildən ötən dövr ərzində ölkəmizin iqtisadi sahədə olan uğurları birmənalıdır və statistik rəqəmlərlə, eləcə də beynəlxalq qiymətləndirmələrlə təsdiqlənmişdir. Həyata keçirilən sosial proqramlar, yoxsulluq səviyyəsinin azaldılması, infrastruktur layihələri, təhsil və səhiyyə islahatları vətəndaşların rifahını əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır.

Bu inkişafı və artımı şərtləndirən, onun üçün zəmin yaradan və davamlılığını təmin edəcək hüquqi islahatlar da daim İlham Əliyevin islahatlar konsepsiyasının ayrılmaz hissəsi olmuşdur. 2003-cü ildən başlayaraq Azərbaycanda iqtisadi inkişafı gücləndirəcək və onun davamlılığını təmin edəcək kompleks məhkəmə, inzibati-idarəçilik və kadr islahatları həyata keçirildi. Müstəqil Azərbaycanın ilk Konstitusiyasında müəyyən edilmiş əsaslarla qurulan məhkəmə sisteminin İlham Əliyevin prezidentliyi dövründə təkmilləşdirilməsi davam etdirildi. Azərbaycan ümummilli lider Heydər Əliyevin prezidentliyi dövründə, 2002-ci ildə ədalət mühakiməsində daha yüksək standartları təmin etmək üçün Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət hüququnu tanıyan Avropa İnsan Hüquqları Konvensiyasını ratifikasiya etmişdi. Möhtərəm Prezident İlham Əliyev 19 yanvar 2006-cı il tarixli fərmanında Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının apelyasiya məhkəmələrinə və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işini təşkil etmələri və onu məhkəmə təcrübəsində nəzərə almalarını tövsiyə etdi. Həmin fərmandan sonra İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin bir çox işləri Azərbaycan dilinə tərcümə olundu, hüquq-mühafizə orqanlarının əməkdaşları və ümumiyyətlə, bütün hüquqşünaslar tərəfindən geniş şəkildə öyrənilməyə başlandı.

İlkin hüquqi islahatlardan biri məhkəmə hakimiyyətində şəffaflığın artırılması idi. 2004-cü ildə “Məhkəmələr və hakimlər haqqında” qanuna edilən dəyişikliklə kassasiya və apelyasiya instansiyası məhkəmələrinin bütün qərarlarının elektron qaydada yayılması tələbi gətirildi. Bu istiqamətdə tədbirlər daim diqqətdə saxlanıldı və müasir informasiya texnologiyalarının tətbiq edilməsi ilə təkmilləşdirildi. 2014-cü ildə Prezident İlham Əliyevin fərmanı ilə yaradılan “Elektron məhkəmə” informasiya sistemi belə tədbirlərin əhəmiyyətli nümunələrindən biridir. Bu sistem məhkəmələrdə şəffaflığın artırılmasını, prosessual hərəkətlərin izlənilməsini, məlumatların sistemləşdirilmiş şəkildə saxlanılmasını, ərizə, şikayət və digər sənədlərin elektron formada qəbulunu və ümumi olaraq məhkəmələrin fəaliyyətində informasiya texnologiyalarının tətbiqini və səmərəliliyin artırılmasını təmin edir.

İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanda mühüm hüquqi islahatlardan biri məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurasının yaradılması idi. 28 dekabr 2004-cü ildə “Məhkəmə-Hüquq Şurası haqqında” qanun qəbul edildi və 2005-ci ilin fevralından Məhkəmə-Hüquq Şurası fəaliyyətə başladı. Məhkəmə-Hüquq Şurasının yaradılması ilə hakimlərin fəaliyyətinə kənar müdaxilə olduqda, onların bu barədə Məhkəmə-Hüquq Şurasına müraciət imkanı da yaranmış oldu. Həmin qanunla həmçinin vakant hakim vəzifələrinə hakim olmayan namizədlərin seçkisini həyata keçirmək məqsədi ilə müstəqil qurum olan Hakimlərin Seçki Komitəsi formalaşdırıldı. Bununla da Azərbaycanda hakimlərin qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan şəffaf seçki proseduru yaradılmış oldu. Hakimlərin seçki proseduru ilə yanaşı, onların hüquqlarının müdafiəsi və məhkəmə hakimiyyətinin müstəqilliyinin gücləndirilməsi məqsədilə 2004-cü ildə hakimlərin ictimai birliklər (assosiasiyalar) yaratmaq və birləşmək hüququ qanunla tanınmış oldu. Həyata keçirilən məhkəmə islahatları bu sahə üzrə qiymətləndirmələr aparan beynəlxalq qurumlar və Avropa təsisatları tərəfindən təqdirəlayiq hesab edilmişdir.

Azərbaycanda iqtisadi inkişaf bazar iqtisadiyyatının prinsiplərinə əsaslanır. Ancaq dövlət sosial rifahı nəzərə almayan, əhalinin bir qrupunun daha çox varlandığı, digər bir qisminin isə yoxsullaşdığı iqtisadi mühiti qəbul etmir. Təbii ki, dövlətin sərbəst iqtisadi mühitdə iqtisadiyyatın əsas sahələrini öz əlində saxlaması mümkün deyil və üstəlik, hüquq sistemi də buna imkan tanımır. Ancaq dövlət iqtisadi siyasətində sosial rifahı nəzərə alır və bunu hüquq normaları vasitəsilə edə bilər. İqtisadi fəaliyyət subyektlərinin mənafeyi ilə əhalinin sosial rifahı bir-biri ilə ziddiyyət təşkil etməsə də, aradakı balansı tam qorumaq o qədər də asan deyil. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2009-cu ildə keçirilən referendumla Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi konstitusion səviyyədə dövlətin ali məqsədi kimi tanındı.

Bu referendumla həmçinin Ali Məhkəmənin qərarlarının dərc edilməsi məcburiyyəti gətirildi, uşaq hüquqlarının müdafiəsi və ətraf mühitin mühafizəsi gücləndirildi, Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşına qanunvericilik təşəbbüsü hüququ verildi və insan hüquq və azadlıqlarının, ədalət mühakiməsinin müstəqilliyi və şəffaflığının yüksəldilməsi üçün digər əlavə və dəyişikliklər edildi.

26 sentyabr 2016-cı ildə keçirilmiş digər referendumla da Konstitusiyamıza insan hüquq və azadlıqları, xüsusilə seçki və ədalətli mühakimə hüquqlarının genişləndirilməsi, sosial, iqtisadi təhlükəsizliyin gücləndirilməsi ilə bağlı əlavə və dəyişikliklər edilmiş oldu. Beləliklə, dövlət başçımız tərəfindən təşəbbüs edilən iki referendum da xalq tərəfindən müsbət qarşılandı və nəticədə, insan hüquq və azadlıqlarına daha ali səviyyədə təminat verən, şəffaf cəmiyyət və dövlət aparatının ən qabaqcıl beynəlxalq standartlarda qurulmasını asanlaşdıran Konstitusiya və hüquq sistemi formalaşdırılmış oldu.

Hüquq sistemi islahatlara daim əlverişli və açıq olmalıdır, yeni ortaya çıxan məsələlərin tənzimlənməsində gecikməməlidir. Prezidentin son illərdə həyata keçirdiyi dərin iqtisadi islahatlar proqramları da paralel hüquqi islahatlarla müşayiət edilmiş və bu islahatların da uğurunu şərtləndirmişdir.

2015-ci ildə İlham Əliyevin təşəbbüsü ilə “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” qanun qəbul olundu və bu qanuna 2017-ci ildə edilən dəyişikliklə sahibkarlıq sahəsində aparılan yoxlamalar 2021-ci il yanvarın 1-dək dayandırıldı. Bu qanunların qəbul edilməsi biznes mühitinin əlverişliliyinin artırılması barədə hüquqi-inzibati islahatların davamı idi.

İqtisadi inkişafı dayanıqlı hala gətirmək məqsədilə həyata keçirilən mülki (vergi, sahibkarlıq və s. hüququ daxil olmaqla) hüquqi sahədə islahatlara paralel olaraq cinayət qanunvericiliyi də diqqətdə saxlanılmış və dövrün tələblərinə uyğunlaşdırılmışdır. Azərbaycan Respublikasının cinayət qanunvericiliyi iqtisadi fəaliyyət sahəsində inkişafın dinamikası ilə əlaqədar mütəmadi olaraq təkmilləşdirilmişdir. Keçən il İlham Əliyevin təşəbbüsü ilə cinayət qanunvericiliyində iqtisadi fəaliyyət sahəsini də əhatə edən köklü dəyişikliklər edilmişdir. Belə ki, Prezident İlham Əliyev 10 fevral 2017-ci il tarixində cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı sərəncamında iqtisadi fəaliyyət sahəsində cinayətlərin dekriminallaşdırılması məsələsini xüsusi qeyd etmiş və bunun davamı olaraq 20 oktyabr 2017-ci ildə Milli Məclisə Prezident İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihəsi ilə Cinayət Məcəlləsinə iqtisadi fəaliyyət sahəsində bir sıra cinayətlərin dekriminallaşdırılması, bir sıra cinayətlərə görə müəyyən edilən cəzaların yüngülləşdirilməsi, zərərçəkmiş şəxslə barışmaqla və ziyanın ödənilməsi şərti ilə cinayət məsuliyyətindən azadetməni nəzərdə tutan yüzlərlə dəyişiklik edilmişdir.

Hüquqi islahatlar həmçinin korrupsiyanın qarşısının alınması və açıq hökumət prinsiplərinin tətbiqi sahələrini də geniş əhatə etmişdir. 2004-cü ildə ilk dəfə korrupsiyaya qarşı mübarizə sahəsində dövlət proqramının imzalanması, sahəvi qanunların təşəbbüs edilməsi ilə bu sahədə möhkəm siyasi iradə ortaya qoyulmuş və həmin istiqamətdə davamlılığın təmin edilməsi üçün mütəmadi proqramlar və milli fəaliyyət planları qəbul edilmişdir. İnzibati-iqtisad məhkəmələrinin yaradılması, məhkəmə qərarlarının elektron formada yayılması, korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış orqanların yaradılması iqtisadi fəaliyyətin subyektləri üçün iqtisadi mühitdə atılacaq hər addımın nəticələrini qabaqcadan görməyi asanlaşdırır, sağlam, proqnozlaşdırıla bilən sahibkarlıq mühitinin mövcudluğunu təmin etmişdir.

Hüquq sisteminin təkmilləşdirilməsi yüksək iqtisadi inkişafı şərtləndirən və onun ayrılmaz hissəsidir. Eyni zamanda, uyğun hüquqi çərçivə təmin edilmədən iqtisadi inkişaf uzunömürlü ola bilməz. Bu qarşılıqlı asılılığı hər mənada dərk edən və idarəçiliyi buna uyğun təşkil edən dövlətlərin inkişafı digərlərindən müsbət mənada xeyli fərqlənir. Hüquqi islahatlarla bağlı son 15 ildə Prezident İlham Əliyevin iradəsi və mövcud nailiyyətlər tətbiq edilən yanaşmanın səmərəli və düzgün olmasını bir daha təsdiq edir və gələcəkdə bu sahənin inkişafını, iqtisadiyyatın daha da güclənməsini və vətəndaş rifahının artmasını təmin edəcəkdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirlər bu gün onun siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən inamla, uğurla həyata keçirilir. Hərbi sahədə əsaslı islahatlar aparılması ilə yanaşı, ordumuz yeni silah və texnika ilə təchiz edilir. Yeni inkişaf mərhələsinə qədəm qoyan Silahlı Qüvvələrimiz regionun ən güclü ordusu və xalqımızın güvənc yeri, müstəqilliyimizin, dövlətçiliyimizin qarantıdır.

Azərbaycanın Silahlı Qüvvələri bu gün dünyanın ən peşəkar, NATO standartlarına cavab verən ordularından biridir. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu prosesi davamlı surətdə təkmilləşdirilir, hərbi hissələr ən müasir hərbi texnika ilə təchiz olunur, yüksək şəraitə malik hərbi şəhərciklər, döyüş poliqonları yaradılır. Bütün bunların nəticəsidir ki, hazırda torpaqlarımızı düşməndən azad etməyə qadir, yüksək döyüş ruhuna malik ordumuz formalaşıb. Bu, özünü uğurlu aprel döyüşləri zamanı əyani şəkildə təsdiqlədi.

Bu gün Azərbaycan cənab İlham Əliyevin rəhbərliyi ilə dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilmişdir. Qazanılan uğurlar Azərbaycanın beynəlxalq aləmdə mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirir. Prezident İlham Əliyevin həyata keçirdiyi qətiyyətli siyasətin parlaq nəticələrindən biri ondan ibarətdir ki, Qərb ölkələri, bir sıra xarici siyasi dairələr, onların maraqlarına xidmət edən təşkilatlar və antimilli ünsürlər tərəfindən aparılan qara piara, ölkəmizə qarayaxma cəhdlərinə baxmayaraq, Azərbaycan sözün əsl mənasında, tam müstəqil siyasət yürüdən ölkə olduğunu nümayiş etdirir.

Öz siyasi dəst-xətti, dövlətçilik siması, inkişaf yolu olan müstəqil Azərbaycan dövlətinin son illərdə mötəbər beynəlxalq tədbirlər mərkəzinə çevrilməsi ölkəmizin daha geniş müstəvidə mövqelərinin möhkəmlənməsini şərtləndirən əsas amillərdəndir. Təkcə ötən il ərzində Azərbaycanda həyatın müxtəlif sahələrini əhatə edən 40-dan çox beynəlxalq tədbirin keçirilməsi buna bariz sübutdur.

2018-ci ilin ilk aylarında da ölkəmizdə bir neçə mötəbər beynəlxalq tədbir keçirilib. Onlardan biri tarixdə ilk dəfə baş tutan dörd region dövlətinin - Azərbaycan, Türkiyə, İran və Gürcüstanın xarici işlər nazirlərinin dördtərəfli formatda görüşüdür ki, bu, diplomatiya tariximizə növbəti bir uğur kimi yazılıb. Belə ki, həmin görüşdə müzakirələrin nəticəsi olaraq imzalanmış bəyannaməyə görə, Azərbaycan “Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat dəhlizləri ilə yanaşı, “Cənub-Qərb” nəqliyyat marşrutunun da mərkəzinə çevrilib.

Bu ilin ilk rübü Qoşulmama Hərəkatına üzv ölkələrin xarici işlər nazirlərinin “Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi” mövzusunda ölkəmizdə keçirilən konfransı və Bakıda təşkil olunan “İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması” mövzusunda VI Bakı Qlobal Forumu ilə yaddaqalan olub. 50-dən çox ölkədən 47 fəaliyyətdə olan və sabiq dövlət və hökumət başçısının iştirakı ilə keçirilən bu forumda da beynəlxalq münasibətlərin gündəliyindəki ən mühüm məsələlər müzakirə edilib. Yeri gəlmişkən, Qlobal Bakı Forumunun əhəmiyyəti ildən-ilə artmaqdadır və dünyanın düşünən başları mütəmadi olaraq Bakıda toplaşıb bəşəriyyətin qarşısında duran bu və ya digər problemlə bağlı fikir mübadiləsi aparmaq imkanı qazanır.

İdman ölkəsi olduğunu dünyaya nümayiş etdirən Azərbaycanın baş şəhəri Bakı artıq dünyanın idman paytaxtlarından hesab olunur. Ölkəmizin dünyada etibarlı tərəfdaş, güclü iqtisadiyyata, sabit və təhlükəsizliyə malik olması belə tədbirlərə evsahibliyi etməsi imkanlarını artırır və bir çox hallarda digər ölkələrlə rəqabətdə üstünlüyə sahib olur. I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, “Formula-1” Qran-prisi və digər irimiqyaslı idman tədbirlərinin keçirilməsi üçün etimadın göstərilməsi, əslində, ölkəmizin beynəlxalq aləmdə əldə etdiyi yüksək nüfuzunun ifadəsidir.

Bununla yanaşı, son illər mədəniyyətlər və sivilizasiyalararası dialoq sahəsində keçirilmiş beynəlxalq səviyyəli tədbirlərin statistikasına və coğrafiyasına diqqət yetirsək, aydın şəkildə görərik ki, bu sahədə təşəbbüslərin çox böyük əksəriyyəti artıq beynəlxalq aləmdə müxtəlif mədəniyyətlərin qovuşduğu məkan statusu qazanmış Azərbaycan tərəfdən gəlib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycan mədəniyyətinin böyük hamisi Mehriban xanım Əliyevanın dəstəyi və bilavasitə təşkilatçılığı ilə ölkəmizdə reallaşdırılan nüfuzlu beynəlxalq mədəniyyət tədbirləri respublikamızı dünyanın mədəni həyatının mərkəzinə çevirib.

Hər bir beynəlxalq tədbirlə əlaqədar gələn qonaqlar ölkəmizlə əyani tanış olur və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında vasitəçilik edirlər. Bundan başqa, hər bir qonaq respublikamızda yatırımlar üçün əlverişli şəraitin və imkanların olmasını, eyni zamanda, sabitliyin hökm sürdüyünü görür. Bu mənada beynəlxalq tədbirlər investisiya cəlbi üçün də böyük əhəmiyyət kəsb edir.

Bir sözlə, son 15 il ərzində Azərbaycanın əldə etdiyi uğurlar, nailiyyətlər kifayət qədərdir. Bu uğurları iki mərhələyə də bölmək olar: ümummilli lider Heydər Əliyevin hakimiyyət dövrü sabitlik və inkişaf, İlham Əliyevin prezidentlik dövrləri isə müasirləşmə və yeniləşmə mərhələsidir.

Azərbaycanda bu ilin 11 aprel tarixində keçirilən və demokratiyanın təntənəsi kimi dəyərləndirilən prezident seçkiləri bir daha sübut etdi ki, xalqımız məhz tərəqqiyə və inkişafa, əldə edilən uğurların davamına səs verdi. Vətəndaşlarımızın mütləq əksəriyyətinin növbəti dəfə səs verdikləri 15 illik uğurlarımızın müəllifi cənab İlham Əliyev bu gün dövlətimiz qarşısında taleyüklü məsələləri xalqımızın dəstəyi ilə həll etməkdə və ulu öndər Heydər Əliyevin müstəqil dövlətçilik irsini öz quruculuq fəaliyyəti ilə daha da zənginləşdirməkdədir. Məhz bu fəaliyyətin nəticəsidir ki, keyfiyyət baxımından yeni mərhələyə daxil olmuş dövlətimiz beynəlxalq etirafa nail olmuş güclü dövlət statusu qazanmışdır. Belə dövlətin vətəndaşı olmaq isə şərəf və fəxarətdir.

**Ziyafət ƏSGƏROV,**

***Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü***

1923 *Azərbaycanın özü qədər əbədi* 2018

# Heydər Əliyev yolu milli inkişafın rəhnidir



*Əvvəli 1-ci səh.*

Heydər Əliyev özünün gərgin əməyi, uğurlu daxili və xarici siyasət strategiyası ilə ölkəmizin iqtisadi inkişafının, daxili siyasi sabitliyin və əmin-amanlığın, milli-mənəvi dəyərlərə qayıdışın, bu dəyərlərin qorunması və təbliğ edilməsinin rəhninə çevrildi.

İslam dünyasının bir parçası olan Azərbaycan dünyaya inteqrasiya edən ölkədir, bununla yanaşı, biz milli-mənəvi dəyərlərimizi və xalqımıza məxsus xüsusiyyətlərimizi də qoruyub saxlayırıq. Ümummilli lider Heydər Əliyev bununla bağlı fikirlərini hər zaman açıq şəkildə ifadə edirdi: *"Biz Avropa qitəsinə daxilik. Amma eyni zamanda, Avropa ilə Asiya arasında biz öz ölkəmizdə, öz xalqımızın tarixində, milli mədəniyyətində, tarixi köklərində və mentalitetində Şərqlə Qərbin, Avropa ilə Asiyanın sintezini təşkil edirik. Ona görə də öz tarixi missiyamızı dərk edirik və bunu həyata keçirmək üçün indiyə qədər lazımi işlər görmüşük".*

Milli-mənəvi dəyərlər xalqımızın özünəməxsus xüsusiyyətidir. Məhz bu amilə əsaslanaraq ümummilli lider hər zaman öz çıxışlarında vurğulayırdı: *"Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi xalq ola bilməz. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız Qurani-Şərifdə öz əksini tapmışdır. Ancaq bununla belə, Azərbaycanın təfəkkürlü insanları, mütərəqqi insanları, Azərbaycanın böyük şəxsiyyətləri, Azərbaycanın hörmətli siyasi və dövlət xadimləri, böyük elm, mədəniyyət xadimləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini yaradıbdır. Biz bunların hamısı ilə fəxr etməliyik".*

Azərbaycan xalqının söykəndiyi bu dəyərlər ulu öndər Heydər Əliyevin yaratdığı dövlətçilik prinsiplərinin əsasında durur. Ümummilli liderin yaratdığı dövlətçilik prinsiplərinin aparıcı xətti azərbaycançılıq ideologiyasıdır. Eyni zamanda, multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı bilavasitə dövlət dəstəyindən qaynaqlanır. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş, bütün sahələrdə inkişaf tempinə görə ölkəmizi dünyanın lider dövlətinə çevirən, ən əsası, dövlət maraqları, xalqın mənafeləri, həmçinin bəşəri dəyərləri əsas götürən praqmatik siyasi kursun hazırda möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda multikultural mühitin möhkəmlənməsinə, o cümlədən tolerantlıq ənənələrinin güclənməsinə də öz həlledici töhfələrini verməkdədir.

Xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə qayıdışı ümummilli lider Heydər Əliyevin növbəti xilaskarlıq missiyasının başlanğıcı oldu. Məhz ulu öndərin sayəsində milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişdi, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanıldı, bu dəyişikliyin fonunda ölkədə etiqad, inanc azadlığı bərqərar oldu. Vətəndaşların vicdan azadlığı Konstitusiyamızın 48-ci maddəsində öz əksini tapdı və Azərbaycan Respublikasının "Dini etiqad azadlığı haqqında" qanununda geniş şəkildə təsbit olundu.

Ulu öndər Heydər Əliyev milli-dini dəyərlərimizin qorunmasında, islam dininə ehtiram göstərilməsində, xalqımızın dini əqidəsinin daha da möhkəmləndirilməsində, eləcə də ölkədə vicdan azadlığının bərqərar edilməsində, tolerant və multikultural ənənələrimizin təbliğində və təşviqində əməli fəaliyyəti ilə misilsiz rol oynayıb: *"Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz islam dininə, islam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik".*

Azərbaycan tarixən tolerantlıq, dini dözümlülük ənənələri ilə fərqlənsə də, beynəlxalq standartlara cavab verən dövlət-din münasibətləri, tolerantlıq prinsipləri ölkəmizdə məhz Heydər Əliyevin xidmətləri sayəsində bərqərar olub. Ulu öndərin həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan Respublikasında insan hüquqlarının qorunmasına dair qanunvericilik bazası beynəlxalq hüquq normalarına uyğunlaşdırılıb, dövlət-din münasibətlərinin tənzimlənməsi prinsipləri təsbit olunub, dini etiqad azadlığı ilə bağlı normativ hüquqi aktlara riayət edilməsinə nəzarət gücləndirilib, konfessiyalar arasında dözümlülük mühiti yaxşılaşdırılıb, eləcə də dini-tarixi abidələrimizin tikintisi, bərpası və qorunması istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə başlanılıb.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ictimai həyatın bütün sahələrində mövqeyini ortaya qoymaq ehtiyacı ilə üzləşdi. Yenidən qurulan dövlətin dəyərlər sisteminin dəqiqləşdirilməsi mürəkkəb daxili və beynəlxalq vəziyyət şəraitində müstəqil dövlət quruculuğuna başlayan Azərbaycan üçün müstəsna əhəmiyyətə malik idi. Belə bir vaxtda vacib məsələlərdən biri də dövlətin din məsələlərinə münasibəti, ölkədə mövcud olan fərqli dini icmalara və konfessiyalara münasibətinin prinsipial məqamlarının müəyyənləşdirilməsi hesab olunurdu. Zaman keçdikcə belə bir vacib sahənin idarə olunması mexanizmlərinin mərkəzləşdirilməsi, müvafiq mərkəzi icra hakimiyyəti orqanının yaradılması zərurəti aktuallığını daha da artırırdı. Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir milyondan artıq soydaşımızın doğma yurdlarından qaçqın düşməsi o dövrdə ölkəmizi böyük humanitar fəlakətlə üz-üzə qoymuş, humanitar yardım adı altında müxtəlif ölkələrin fondları, yardım təşkilatları respublikamıza ayaq açmağa başlamışdı. Və bu fondların, təşkilatların "humanitar yardım" adı altında bölgədə möhkəmləndikdən sonra missionerlik fəaliyyəti həyata keçirəcəkləri, öz ölkələrinin dövlət-din münasibətləri modelini Azərbaycanda tətbiq etmək istəyəcəkləri Heydər Əliyev kimi uzaqgörən siyasətçi üçün gün kimi aydın idi. Buna görə də ulu öndər 2001-ci il iyunun 21-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) yaradılması barədə fərman imzaladı və dövlət komitəsinin qarşısına Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsi, dini qurumların dövlət qeydiyyatına alınması, zərərli təriqətlərin fəaliyyətinə son qoyulması və digər vəzifələr qoydu.

Xüsusi vurğulamaq lazımdır ki, dövlət-din münasibətlərini tənzimləyən hökumət üzvü statusunda mərkəzi icra hakimiyyəti orqanı MDB ölkələri arasında ilk dəfə məhz Azərbaycanda yaradılıb. Sonradan MDB-nin, eləcə də Avropanın bir sıra dövlətləri ölkəmizin təcrübəsindən yararlanaraq bu statusda dövlət qurumları təsis etməyə başlayıb. Ölkəmizdə dövlət-din münasibətlərinin əsasında iki fundamental baza durur: milli-mənəvi dəyərlər və qanunvericilik bazası. Bu sahədə qanunvericiliyimizin əsasını təşkil edən ölkə Konstitusiyası və "Dini etiqad azadlığı haqqında" qanuna ötən müddət ərzində edilmiş əlavə və dəyişikliklər nəticəsində hüquqi bazamız daha işlək, daha demokratik format qazanıb.

Ölkəmizdə dini zəmində münaqişələrin olmaması insanların sərbəst şəkildə öz əqidə formasını seçməsi, dini dözümlülük və tolerantlıq şəraitinin yaradılması, bu uğurların bir çox beynəlxalq təşkilatlar, dünyada nüfuzlu din xadimləri və böyük ölkələr tərəfindən etiraf olunması ümummilli lider Heydər Əliyevin dini sahədə balanslaşdırılmış siyasətinin bu gün uğurla davam etdirilməsinin nəticəsidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dinlə bağlı müəyyənləşdirdiyi siyasi kursun bir istiqamətini də müxtəlif beynəlxalq təşkilatlar, dini mərkəzlər, eyni zamanda, dünyəvi və teokratik üsul-idarəsi ilə idarə olunan dövlətlərlə ikitərəfli əlaqələrin qurulması təşkil edirdi. Bu mənada, İslam Konfransı Təşkilatı (İKT), Vatikan, Pakistan İslam Respublikası, İran İslam Respublikası, Səudiyyə Ərəbistanı Krallığı və digər dövlətlər və beynəlxalq təşkilatlarla qurulan əlaqələr çox böyük əhəmiyyətə malikdir. Beynəlxalq əməkdaşlığın qurulması və inkişaf etdirilməsi müstəqilliyini yeni bərpa etmiş dövlətimizin tanıdılması ilə yanaşı, müharibə şəraitində olan Azərbaycanın durumunu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədi daşıyırdı.

İslam Konfransı Təşkilatının 12 dekabr 1994-cü ildə Mərakeşdə keçirilən VII zirvə görüşündə iştirak edən ulu öndər Heydər Əliyev geniş və məzmunlu nitqində Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasında işğal etdikləri Dağlıq Qarabağ regionunda və ona bitişik yeddi digər rayonda ən qədim mədəniyyət abidələrini məhv etdiklərini diqqətə çatdırıb: *"...Bütün məscidlər dağıdılmış, müsəlman məzarları təhqir olunmuş, Qurani-Kərimin nüsxələri yandırılmışdır. Ən qədim müsəlman sivilizasiyasının bütün izləri yer üzündən silinir..."* Beynəlxalq aləmdə də böyük siyasi nüfuz sahibi olan ümummilli lider İKT-nin Kasablanka zirvə toplantısının yekun iclasında Asiya dövlətləri adından təbrik nitqini də söyləyib. Zirvədə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Ermənistan və Azərbaycan arasındakı münaqişə ilə əlaqədar və Azərbaycan Respublikasına iqtisadi yardım barədə qətnamə qəbul olunub. Qətnamədə Ermənistanın Azərbaycana qarşı təcavüzü qəti şəkildə pislənir, mülki azərbaycanlı əhaliyə qaşı törədilmiş hərəkətlər insanlığa qarşı cinayət hesab edilir, BMT qətnamələrinin yerinə yetirilməsi və Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılması tələb olunur. Digər qətnamə isə beynəlxalq təşkilatları Azərbaycana təcili humanitar və maliyyə yardımı göstərməyə çağırır.

Ulu öndərin müəyyənləşdirdiyi xarici siyasət kursunda Azərbaycan Respublikasının müsəlman ölkələri ilə əlaqələri həm beynəlxalq təşkilatlar çərçivəsində, həm də ikitərəfli əlaqələr müstəvisində uğurla inkişaf edirdi. Ümummilli lider Heydər Əliyev 1994-cü il iyulun 13-də Səudiyyə Ərəbistanına rəsmi səfərə yola düşərkən müxbirin sualını cavablandırarkən deyib: *"...İndiyədək Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında, demək olar, heç bir əlaqə olmamışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra bu sahədə müəyyən cəhdlər olsa da, bunlar bir nəticə verməmişdir. Ancaq bu ölkə dünya birliyində böyük nüfuza malik olduğuna görə, dini birliyimizi, tarixi ənənələrimizin oxşarlığını nəzərə alaraq, mən Səudiyyə Ərəbistanı məlikinin rəsmi dəvətini qəbul etmişəm və indi səfərə gedirəm...".* Səfər çərçivəsində Heydər Əliyev İki Müqəddəs Ocağın Xadimi Kral Fəhd, İslam Konfransı Təşkilatı, İslam İnkişaf Bankı, İslam Aləmi Liqasının rəhbərləri və s. rəsmi şəxslərlə danışıqlar aparıb. Səfər zamanı Azərbaycan Respublikası ilə Səudiyyə Ərəbistanı Krallığı arasında iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, gənclər və idman sahələrində əməkdaşlığa dair baş saziş imzalanıb. Səfərin yekunlarına dair Birgə Bəyanat qəbul edilib. Səfər zamanı Prezident Heydər Əliyev müqəddəs Kəbəni ziyarət edib.

Ümummilli lider Heydər Əliyevin 1996-cı ilin aprelində Pakistan İslam Respublikasının Prezidenti Fərrux Əhməd Xan Leqarinin dəvətilə bu ölkəyə rəsmi səfəri iki ölkə arasında münasibətlərin inkişafında əvəzsiz rol oynayıb. Ulu öndər Heydər Əliyev bu barədə fikirlərini bölüşərkən deyib: *"Pakistan ilə Azərbaycan arasında çox yaxşı əlaqələr, dostluq əlaqələri var. Bu əlaqələr keçmiş tarixi ənənələrimiz üzərində qurulur. Təsadüfi deyil ki, Azərbaycan müstəqilliyi haqqında bəyanat verdikdən sonra Pakistan ölkəmizin öz müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Sonrakı dövrdə, xüsusən axırıncı illərdə də Pakistanla Azərbaycan arasında çox yaxşı əlaqələr yaranıbdır".*

Dərin tarixi köklərə malik Azərbaycan - İran münasibətləri ölkəmizin dövlət müstəqilliyini yenidən bərpa edəndən sonra yeni müstəviyə keçdi. Bu əlaqələrin daha da inkişaf etdirilməsində ulu öndər Heydər Əliyevin xidmətləri böyükdür. Heydər Əliyev hələ fəaliyyətinin Naxçıvan dövründə (1990-1993) İran rəhbərliyi ilə sıx əlaqələr yaradıb. O, Ermənistanın blokadada saxladığı Naxçıvanın ehtiyaclarını təmin etmək məqsədilə İrana səfərə gedərək bu ölkənin rəhbərliyi ilə müvafiq müzakirələr aparıb. 1992-ci ilin avqustunda İrana səfəri zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev İranın dini rəhbəri Seyid Əli Xamneyi, Prezident Rəfsəncani, xarici işlər naziri Əli Əkbər Vilayəti ilə danışıqlar aparıb. Həmin səfərdə İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasına müxtəlif sahələrdə yardımı, tərəflərin əməkdaşlığını nəzərdə tutan sazişlər imzalanıb.

1993-cü il oktyabr ayının 26-28-də Azərbaycanda səfərdə olan İran İslam Respublikasının Prezidenti Haşimi Rəfsəncani ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bildirib: *"Biz belə fikirdəyik ki, son dövrdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında olan əlaqələrdə müəyyən soyuqluq yaradılmışdı. Bunların aradan götürülməsi üçün biz son vaxtlar, sizə məlumdur ki, lazımi tədbirlər görmüşük. Bundan sonra da bu tədbirləri görmək fikrindəyik".* Səfər zamanı iki ölkə arasında dostluq, əməkdaşlıq, iqtisadi, elmi, mədəni tərəfdaşlıq haqqında müqavilələr imzalanıb.

Müsəlman ölkələri ilə paralel olaraq Avropa dövlətləri, o cümlədən Vatikanla da münasibətlər ümummilli lider Heydər Əliyevin hər zaman diqqət mərkəzində olub. Azərbaycan Respublikası ilə dünya katolik xristianlarının mərkəzi sayılan Vatikan dövləti arasında diplomatik münasibətlər 1992-ci ilin mayında yaradılsa da, iki dövlət arasında münasibətlərin inkişaf etdirilməsində Prezident Heydər Əliyevin Vatikana rəsmi səfərinin böyük rolu olub. 1997-ci il sentyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Vatikana rəsmi səfəri zamanı Roma papası II İohann Pavellə görüşüb. Görüşdə Azərbaycanda müxtəlif dini konfessiyaların sərbəst fəaliyyət göstərdiyini vurğulayan ulu öndər Heydər Əliyev bildirib ki, Azərbaycanda insan hüquqları möhkəm qorunur, demokratik cəmiyyət quruculuğu prosesi böyük uğurla həyata keçirilir, siyasi plüralizmə, mətbuat azadlığına geniş yer verilir. II İohann Pavel də öz növbəsində qeyd edib ki, *"Vatikan dövlətinin bütün katoliklərinin başçısı kimi mən də Ermənistan-Azərbaycan münaqişəsinin Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplər əsasında həllinə tərəfdar olduğumu bildirirəm və hamını da bu işə yardım göstərməyə çağırıram. Vurğulayıram ki, yeni müstəqillik qazanmış ölkələrin ərazi bütövlüyünün qorunması çox vacibdir, separatçılığa qarşı birgə mübarizə aparılmalıdır..."*

2002-ci il mayın 22-də Vatikan dövlətinin başçısı Roma papası II İohann Pavelin ilk dəfə olaraq Azərbaycana rəsmi səfəri zamanı Prezident Heydər Əliyev onun qarşılanması mərasimindəki nitqində Vatikan rəhbərini dinindən, dilindən və irqindən asılı olmayaraq bütün bəşəriyyətin dostu, dünya vətəndaşı adlandırıb. Azərbaycanın dövlət başçısı II İohann Pavelin müsəlman ölkələrinə səfərlərinin dinlər arasında qarşılıqlı etimad və hörmətin gücləndirilməsinə xidmət etdiyini bildirib. II İohann Pavel isə çıxışında Azərbaycanda dinlər arasında dözümlülüyün və qarşılıqlı anlaşmanın mövcud olmasını fəxr etməli hal kimi qiymətləndirib. Roma papası Azərbaycanın Şərq və Qərb arasında qapı olmasını bir daha təsdiqləyib. Vatikanın dövlət başçısı Bakıya səfəri zamanı Azərbaycanın katolik icmasının keçirdiyi mərasimdə iştirak edib. Heydər Əliyev II İohann Paveli qarşılayarkən çıxışında onun diqqətinə Ermənistanın Azərbaycana təcavüzü məsələsini və bu təcavüz qurbanlarının ehtiyaclarını çatdırıb: *"Siz insanlar arasında şəfqət və rəhmdillik ideyaları təbliğ edir, ağır fəlakətə düşənlərə səbir və təsəlli diləyirsiniz. Azərbaycanda da belə fəlakət qurbanları var. Onlar Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində öz yurd-yuvalarını itirmiş bir milyondan çox azərbaycanlı qaçqınlardır. Bu insanlar Sizin xeyirxah sözünüzə, təsəllinizə ehtiyac duyurlar. Onlar haqqın öz yerini tutmasında Sizdən də kömək umurlar".*

2001-ci il mayın 28-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bakıda səfərdə olan Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksi ilə görüşündə bu səfəri Azərbaycanda yaşayan pravoslavlar üçün, eləcə də Rusiya-Azərbaycan münasibətlərində mühüm hadisə kimi qiymətləndirib. II Aleksi öz çıxışında Azərbaycan xalqına minnətdarlığını bildirib, rus pravoslav kilsəsinin Bakı və Xəzəryanı bölgə Yeparxiyasına göstərdiyi diqqətə, köməyə və dəstəyə görə Heydər Əliyevi rus pravoslav kilsəsinin birinci dərəcəli müqəddəs mömin Moskva knyazı Daniil ordeni ilə təltif edib.

Ulu öndərin digər sahələrdə olduğu kimi, dövlət-din münasibətləri, beynəlxalq əlaqələrin dinamik inkişafı sahəsində bünövrəsini qoyduğu siyasət onun layiqli varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkədə müstəqillik illərində milli-mənəvi dəyərlərin qorunub saxlanılması, o cümlədən yeni dini məbədlərin inşası, mövcud olanların əsaslı təmiri və yenidən bərpası istiqamətində çoxsaylı işlər görülüb. Əgər sovetlər birliyi dağılan dövrdə Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərirdisə, bu gün onların sayı 2000-dən çoxdur. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına və tapşırığına uyğun olaraq Bibiheybət məscid-ziyarətgah kompleksində, Təzəpir məscidində, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidlərində, Əjdərbəy, Şamaxı və Sumqayıt Cümə məscidlərində əsaslı təmir, bərpa və yenidənqurma işləri aparılıb. Gəncə şəhər İmamzadə ziyarətgahı yenidən bərpa edilərək xalqın istifadəsinə verilib. Dövlət başçısının tapşırığı ilə Binəqədi rayonunda inşa edilən və ölkənin ən böyük məscidi olan Heydər məscidinin 26 dekabr 2014-cü ildə açılışı olub.

Dövlət başçısının qədim və tarixi əhəmiyyəti olan dini ocaqların bərpasına diqqətlə yanaşmasının nəticəsində ölkəmizin ən qədim dini ocaqlarından olan Dəmirçi məscidi də "İslam həmrəyliyi ili"ndə cənab Prezidentin göstərişi ilə bərpa edilərək istifadəyə verilib. Məscidin açılışında şəxsən iştirak edən dövlət başçısı dini ibadətgahların bərpa edilməsinin önəminə diqqət çəkib:

*"Şamaxı rayonunda tarixi-dini abidələr çoxdur, onlardan biri də təbii ki, bu məsciddir. Ona görə əlbəttə, bizim borcumuz idi ki, bu qədim tarixi-dini abidəni bərpa edək, qapılarını dindarların üzünə açaq. Çox şadam ki, biz buna nail ola bilmişik. Bu, məscidin köhnə şəkilləridir, demək olar ki, burada ibadət etmək qeyri-mümkün idi. İndi isə biz məscidi bərpa etmişik. Bərpa zamanı qədim daşlardan istifadə olunub, yəni, məscidin tarixi görkəmi tam qorunub. Bu, təkcə sizin kənd üçün, Şamaxı üçün yox, bütün Azərbaycan, bütün müsəlman aləmi üçün çox əlamətdar hadisədir. Xüsusilə də bu il Azərbaycanda "İslam həmrəyliyi ili" elan olunub. Bax, bu gözəl tarixi-dini abidəni biz bu il istifadəyə veririk."*

Azərbaycan Prezidenti İlham Əliyevin "İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında" 2017-ci il 24 yanvar tarixli sərəncamı ilə Böyük Qayıdış prosesinə start verildi. Qısa müddətdə Cocuq Mərcanlı kəndi Böyük Qayıdışın başlanğıcı kimi bütün dünyaya səs saldı. Erməni işğalçılarına qarşı cəbhənin ön səngəri olan Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı dövlət səviyyəsində həyata keçirilən tədbirlər çərçivəsində Prezident İlham Əliyevin tapşırığına əsasən, kənddə Şuşa məscidinin bənzəri olan məscidin inşası da ictimai, siyasi, mənəvi və ideoloji baxımdan böyük əhəmiyyət kəsb edir.

Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar üçün hər cür şərait yaradılıb. Bütün bunlar göstərir ki, Prezident İlham Əliyev ölkədə milli-mənəvi dəyərlərin qorunub saxlanmasında müstəsna xidmətlər göstərir. Dövlət başçısı islam dininin xalqımızın həyatındakı rolunu, onun milli kimliyimizin formalaşmasındakı əhəmiyyətini nəzərə alaraq ölkədəki dini ibadətgahların qorunmasında, onların gələcək nəsillərə çatdırılmasında əsl fədakarlıq nümayiş etdirir. Məscidin tikilməsi 2017-ci ilin ölkəmizdə "İslam həmrəyliyi ili" elan edilməsinə dəyərli töhfədir.

Eyni zamanda, hazırda ölkə ərazisində 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Vətəndaşlarının böyük əksəriyyəti müsəlmanlar olan ölkəmizdə digər dinlərə də xüsusi qayğı göstərilir. Hələ 1920-ci ildə bağlanmış Jen Mironosets baş kilsəsinin binası 1991-ci ildə rus pravoslav kilsəsinə verilib.1999-cu ildə məbəddə bərpa işlərinə başlanılıb, 2001-ci ildə isə başa çatdırılıb. Azərbaycanda səfərdə olan Moskvanın və bütün Rusiyanın patriarxı II Aleksi 27 may 2001-ci il tarixində bu məbədi müqəddəs elan edib və ona baş kafedral kilsə statusu verib. Kilsənin tərkibində pravoslav ədəbiyyatı kitabxanası, uşaqlar üçün "Bazar günü" məktəbi, böyüklərin katexizasiyası üzrə məktəb, həmçinin yeməkxana fəaliyyət göstərir.

2002-ci il mayın 22-23-də Roma papası II İohann Pavelin Azərbaycana səfərindən sonra ümummilli lider Heydər Əliyevin göstərişi əsasında Bakının mərkəzində Roma-katolik kilsəsi üçün yer ayrılıb, 2005-ci ildə məbədin tikintisinə başlanılıb. Sevindirici haldır ki, kilsənin tikintisinə Qafqaz Müsəlmanları İdarəsi və Azərbaycanda fəaliyyət göstərən digər konfessiyaların nümayəndələri maddi yardım göstəriblər. Tikinti işləri 2006-cı ildə başa çatdırılıb, rəsmi açılış mərasimi 2008-ci il martın 7-də keçirilib. Mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və Vatikanın dövlət katibi Tarçizio Bertone iştirak ediblər.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və qayğısı ilə dağ yəhudiləri üçün yeni ibadət ocağı inşa edilib, 5 aprel 2011-ci ildə sinaqoqun rəsmi açılış mərasimi keçirilib. Avropada ən böyük sinaqoqlardan biri hesab edilən Avropa və Gürcüstan yəhudilərinin sinaqoqu 2003-cü il martın 9-da açılıbdır. Sözügedən ibadət yeri son 60-80 ildə Yaxın Şərqdə tikilmiş birinci sinaqoq sayılır. Ümumiyyətlə, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra buradakı yəhudi icması beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmləndirib, öz dini məktəblərini, mədəniyyət mərkəzlərini, cəmiyyətlərini, qəzetlərini yaradıblar.

Prezident İlham Əliyevin xalqımızın dini dəyərlərinə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, milli-mənəvi dəyərlərə həssas münasibətin dövlət siyasətinin tərkibinə daxil edilməsi, ölkədə güclü tolerantlıq ənənələrinin daha da möhkəmləndirilməsi Azərbaycanı dünyada multikulturalizmin əsas mərkəzinə çevirib. Ölkəmizdə dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirilən siyasət dünya ictimaiyyəti tərəfindən diqqətlə izlənilir və yüksək qiymətləndirilir. Daim xalqımızın milli-mənəvi dəyərlərinin mütərəqqiliyini vurğulayan dövlət başçısı İlham Əliyev gələcək inkişafımızı zəngin tarixi keçmişə söykənən adət-ənənələrimizlə müasir ideyaların sintezində görməklə, ölkəmizdə milli-dini dəyərlərin qorunub saxlanılması istiqamətində ardıcıl işlər həyata keçirir. Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyev tarixi keçmişimizin unudulmasına imkan vermir və çalışır ki, gələcək nəsillər xalqımızın milli-mənəvi dünyasına daha çox bağlı olsunlar.

Dövlət səviyyəsində görülən işlərin davamı kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il oktyabrın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması haqqında imzaladığı fərmanla milli-mənəvi dəyərlərimizə və mütərəqqi tarixi ənənələrimizə verdiyi yüksək qiyməti və dəstəyi bir daha nümayiş etdirdi. Prezidentin bu addımı, eyni zamanda, zəngin mənəvi irsimizin, ümumiyyətlə, Azərbaycan həqiqətlərinin dünya miqyasında tanıdılmasına növbəti töhfəsidir.

Bu il aprelin 11-də xalqımız və dövlətimiz üçün çox əlamətdar hadisə baş verdi. Ölkəmizdə prezident seçkiləri keçirildi və xalqımız növbəti dəfə dövlət başçısı, möhtərəm Prezident İlham Əliyevə yüksək etimadını nümayiş etdirdi. Xalqımız öz layiqli və ədalətli seçimini edərək sabitliyin, dinamik inkişafın, uğurlu daxili və xarici siyasətin dəstəkləndiyini bir daha təsdiqlədi və Prezident İlham Əliyevin seçkidə inamlı qələbə qazanmasını təmin etdi. Bu seçkilər, eyni zamanda, xalq-iqtidar birliyinin sarsılmaz olduğunu göstərdi. Təsadüfi deyil ki, dövlət başçısı birinci xanım Mehriban Əliyeva ilə birlikdə seçkidən sonra - aprelin 12-də Bakının Yasamal rayonunda Hacı Cavad məscidinin yeni binasının açılışında iştirak edib. Xatırladaq ki, Azərbaycan Prezidentinin tapşırığı ilə Yasamal rayonu, Abbas Mirzə Şərifzadə küçəsi 1 ünvanında Hacı Cavad məscidinin yeni binasının tikintisinə 2017-ci il iyulun 2-də başlanılmışdı. Prezident İlham Əliyev məscidin yeni binasının tikintisini daim diqqət mərkəzində saxlayıb, burada həyata keçirilən inşaat işlərinin gedişi ilə maraqlanıb, görülən işlərlə bağlı müvafiq tapşırıqlarını verib. Prezident İlham Əliyevin maddi-mədəniyyət abidələrimizin, müqəddəs ocaqlarımızın bərpası ilə bağlı imzaladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar sırasında Hacı Cavad məscidinin yeni binasının inşası da əksini tapıb. Son illərdə bütün dini ocaqlarda həyata keçirilən bərpa və yenidənqurma işləri, yeni dini ocaqların inşası dövlət başçısının xalqımızın milli-mənəvi dəyərlərinə, mədəni və tarixi zənginliyinə verdiyi qiymətin gözəl nümunəsidir. Prezident İlham Əliyev Hacı Cavad məscidi dini icmasının üzvləri ilə görüşdə bu sahənin daim dövlət tərəfindən diqqətdə saxlanıldığını deyib: *"Dövlət tərəfindən bu işlərin görülməsi dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasından xəbər verir. Bu münasibətlər Azərbaycanda nümunəvi xarakter daşıyır. Bildiyiniz kimi, dünən prezident seçkiləri keçirilmişdir və seçkilərdən sonra birinci tədbir, bax, bugünkü tədbirdir. Bu da dövlət-din münasibətlərinin bariz nümunəsidir, onun təzahürüdür. Mən çox şadam ki, son illər ərzində Azərbaycanda bizim dini-mədəni abidələrimiz qorunur, bərpa olunur. Bu, bizim tariximizdir".*

Xalqımızın zəngin milli-mənəvi dəyərlərinə, onun tərkib hissəsi olan dözümlülük və birgəyaşayış ənənəsinə böyük həssaslıqla yanaşan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ölkədə ibadət evlərinin bərpası və yeni məscidlərin tikilməsi istiqamətində gördüyü işlər də əvəzsizdir. Fond "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində təkcə ölkədə yeni məscidlər inşa etməyib, həm də bu torpaqlarda yüzilliklər boyu xalqımızla dinc yanaşı yaşamış dinlərin nümayəndələrinin öz mədəni müxtəlifliyini qoruyub saxlamaq, dini etiqadlarını sərbəst yerinə yetirmək üçün ibadət evlərinin bərpası və inşası işində fəallıq nümayiş etdirib. Azərbaycanın birinci xanımının bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Heydər Əliyev Fondu layihə çərçivəsində Mərdəkan qəsəbəsindəki XVI əsrə aid "Pir Həsən" ziyarətgahında, Binə qəsəbəsindəki "Möhsün Səlim" və "İmam Rza", Gəncədəki "Həzrəti Zeynəb", Buzovna qəsəbəsindəki "Cümə" və s. məscidlərdə əsaslı təmir və bərpa işləri aparılıb, o cümlədən yeni məscidlər istifadəyə verilib. Eyni zamanda, layihə çərçivəsində Bakıdakı pravoslav kilsəsində təmir-bərpa işləri aparılıb, yəhudi uşaqları üçün təhsil kompleksi istifadəyə verilib və s.

Ölkəmizdə dini etiqad azadlığı, əsrlərdən bəri xalq arasında mövcud olan dini dözümlülük və multikulturalizm ənənəsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib.

*Son illər bütün dünyada dini-milli, sosial-iqtisadi zəmində baş verən münaqişələrin, vətəndaş müharibələrinin fonunda ölkəmizdə müşahidə olunan sabitlik həm də onun sübutudur ki, Azərbaycan bir çox ölkələrin sahib olmaq istədiyi, ancaq əldə etməkdə çətinliklər və uğursuzluqlar yaşadığı ən ali dəyərlərin - tolerant və multikultural ənənələrin beşiyidir, bu sahədə onun öz təcrübəsi, bu təcrübəni qoruyub saxlayan, gələcək nəsillərə ötürən dövlət-din modeli var. O model ki, indi dünyanın bir çox ölkələri tərəfindən tədqiq edilir, öyrənilir və tətbiqinin əhəmiyyəti hər kürsüdə, hər görüşdə vurğulanır. O model ki, memarı ulu öndər, müasir dövrlə uzlaşdırıb təkmilləşdirəni isə Prezident İlham Əliyevdir.*

**Mübariz QURBANLI,**
***Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, YAP icra katibinin müavini***

# Əbədiyaşarlıq rəmzi

Əvvəli 1-ci səh.

XX əsrin 90-cı illərinin əvvəllərində ən böyük milli sərvətlərimizdən biri olan Elmlər Akademiyasının taleyi də sual altına alınmışdı. Hətta rəsmi dövlət dairələrində Elmlər Akademiyasının bağlanması ilə əlaqədar iddialar da səsləndirilmişdir. Məhz Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə bu tərəddüdlərə və narahatçılıqlara birdəfəlik son qoyulmuşdur. Bu barədə Heydər Əliyevin qəti fikri belə idi ki, Elmlər Akademiyası Azərbaycan xalqının inkişafı üçün müstəsna əhəmiyyətə malikdir. Elmlər Akademiyasında 21 sentyabr 1993-cü ildə ziyalılarla keçirilmiş görüşdə görkəmli dövlət xadimi Heydər Əliyevin bəyan etdiyi aşağıdakı fikirlər təkcə ölkənin əsas akademik qurumunun deyil, geniş mənada elmin, alimin, ziyalılığın qorunub saxlanılmasında həlledici rol oynamışdır: "Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. Hansı iqtisadiyyat olursa olsun, elm inkişaf etməlidir. Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. Akademiyanın fəaliyyətini tənqid etmək də olar, naqis cəhətlər də var. Ancaq ümumən götürdükdə şübhəsiz ki, elmin keçdiyi inkişaf yoluna qiymət verməli, onu əldə saxlamalı, itirməməliyik... Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər, biz buna imkan yaradacağıq. Azərbaycan elmi inkişaf etməlidir."

Bunun nəticəsi idi ki, xaricə üz tutan, ölkədən uzaq düşən alimlərimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra tədricən geri qayıtmağa başladılar. Elmlər Akademiyasının fəaliyyətində canlanma yarandı, yeni istiqamətlər müəyyənləşdi. Azərbaycanda elmi ziyalılıq, alimlər nəsli nəinki qorunub saxlanıldı, qısa müddətdə inkişaf etdirildi, dəyişdi. Bundan sonra 31 yanvar 1997-ci ildə Elmlər Akademiyasının aparıcı alimlər qrupunu qəbul edərək, Heydər Əliyev elm sahəsində islahatların aparılmasının zəruriliyini həlli vacib məsələ kimi irəli sürdü.

Ulu öndər Azərbaycanda elmin inkişaf strategiyasının əsas müddəalarını müəyyənləşdirmiş və həlli yollarını göstərmişdir. Ümummilli liderin 4 yanvar 2003-cü il tarixli fərmanı ilə AMEA-ya Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən, bütün elmi müəssisələrin və ali məktəblərin elmi-tədqiqat fəaliyyətini əlaqələndirən və istiqamətləndirən, ölkəmizi xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil edən ali dövlət elmi təşkilatı statusunu verməsi ilə milli müstəqillik mərhələsində akademiyanın fəaliyyət dairəsi xeyli genişləndirilmiş, onun səlahiyyətləri artırılmışdır. Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanda elmi-texniki potensialı qorumaq və inkişaf etdirmək, iqtisadiyyatı gücləndirmək, mədəniyyəti zənginləşdirmək, xalqın milli mənafeyini qorumaq baxımından Elmlər Akademiyasını ön mövqeyə çəkmişdir.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə rəhbəri bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun elm və təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Bunlar Azərbaycan elminin çoxəsrlik inkişafı tarixində Heydər Əliyev epoxasının böyük dərsləri, tarixi nailiyyətləridir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin elm siyasəti diktə edir ki, inkişaf etmiş ölkələrin təcrübəsi də təsdiqləyir ki, fundamental tədqiqatlar aparılmayan ölkələrdə yüksək keyfiyyətə malik təhsil haqqında danışmaq mənasızdır. Eyni zamanda, harada ki baza rolunu oynayan keyfiyyətli orta təhsil yoxdursa, orada geniş əhatəli fundamental tədqiqatlar aparan elmi qurumların fəaliyyətinin inkişaf etdirilməsi mümkün deyildir. Ümumiyyətlə, dövlətin iqtisadi qüdrətini, onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi, əhatəliliyi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Başqa sözlə desək, müasir dünya gerçəkliklərinə yaxından bələd olan, müasir texnika və texnologiyanı mənimsəyən kadrlar yetişdirmədən, eləcə də ölkədə həyata keçirilən islahatları elmi baxımdan əsaslandırmadan mövcud təbii-iqtisadi resurslardan tam və səmərəli istifadə etmək və arzu edilən iqtisadi inkişaf səviyyəsinə nail olmaq qeyri-mümkündür. Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyası ölkənin texniki-texnoloji, eləcə də sosial-iqtisadi inkişafının avanqardına çevrilməlidir. Məhz bu reallığı nəzərə alan ulu öndər Heydər Əliyevin "Milli Elmlər Akademiyası sistemində yüksək ixtisaslı elmi kadrlar hazırlayan təhsil qurumlarının, respublikada prioritet istiqamətlərdə müstəqil fəaliyyət göstərən dövlət elm-təhsil mərkəzlərinin işi daim gücləndirilməli və zənginləşdirilməlidir" - fikri də akademiyanın potensialının və texniki bazasının gücləndirilməsinə, ölkədə fundamental elmi tədqiqatların aparılmasına yol açmış, təkan vermişdir. Elmlər Akademiyası sistemində aparılmış islahatlar göstərdi ki, bu prosesdə inteqrasiyanın vacib amillərindən biri də AMEA-da çalışan müxtəlif ixtisaslı alimlərin birgə proqramlar üzərində işləməsi, ölkənin hərtərəfli inkişafını təmin etməyə qadir olan kompleks inkişaf proqramları işləyib hazırlaması olduqca vacib şərtdir. Belə proqramların həyata keçirilməsi elmi kadr potensialının inkişafına və təhsil səviyyəsinin yüksəlməsinə gətirib çıxarar ki, bu da tədqiqatların sürətlənməsinə, eləcə də nəzəri-praktiki əhəmiyyətinin artmasına kömək edir. Əldə olunmuş nəticələr seçilmiş yolun doğruluğunu bir daha isbat etmiş oldu.

Ulu öndər Heydər Əliyev bütün həyatı boyu öz xeyirxah əməlləri və ədalətli mövqeyi ilə xalqımızın güvənc yerinə çevrilmişdir. İstər müasir tələbata uyğun elmi kadrların hazırlanmasında, Azərbaycan Respublikasının beynəlxalq aləmə və qlobal iqtisadi mühitə sürətlə inteqrasiya etməsində, istərsə də ölkənin sosial-iqtisadi istiqamətlərdə ciddi uğurlar qazanmasında Heydər Əliyevin rəhbərliyi ilə reallaşan tədbir və islahatların rolu danılmazdır. Heydər Əliyevin qüdrətli bir dövlət başçısı və siyasi xadim kimi ölkə, milli iqtisadiyyat, eləcə də onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən ciddi uğurların əsas təkanvericisidir. Məhz bu yanaşmanın nəticəsidir ki, sosial-iqtisadi və siyasi istiqamətlərdə qazanılmış müvəffəqiyyətlər bir-birinə təkan verməklə vahid bir prosesə çevrilir. Eyni zamanda, əsas uğurlardan biri də ondan ibarətdir ki, həyata keçirilən islahatlar içərisində elmin inkişafı prioritet kimi qəbul edilir və həyata keçirilən bütün islahatlar elmi cəhətdən əsaslandırılır. Bu baxımdan elmə dair qanunların və digər normativ sənədlərin qəbul edilməsində, dövlət proqramlarının hazırlanmasında elm adamlarının yaxından iştirak etməsi, müvafiq mütəxəssislərin iştirakı ilə geniş müzakirələrin aparılması xüsusi qeyd olunmalıdır.

Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin inkişafı istiqamətində də ümummilli lider Heydər Əliyevin siyasəti bu gün genişmiqyaslı islahatların zəruriliyinə və gerçəkləşdirilməsinə ciddi diqqət yetirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Elmdə genişmiqyaslı islahatların həyata keçirilməsinə dövlət səviyyəsində Prezident İlham Əliyev tərəfindən verilən böyük dəstək və açılan geniş yol ölkəmizdə elmin və ali təhsilin yeni epoxasının formalaşdırılması ilə nəticələnmişdir. Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanasının əsaslı şəkildə yenidən qurulması və ən yeni texnologiya ilə təchiz edilməsi ölkəmizdə dəqiq elmlərin, kosmik aləmin öyrənilməsi istiqamətində böyük imkanlar yaratmışdır. Azərbaycan Milli Ensiklopediyasının yaradılması üçün göstərilən qayğı bütövlükdə ölkəmizdə milli-mənəvi özünüdərk proseslərinin inkişafı strategiyasının reallıqlarını əks etdirir. Milli Ensiklopediya üçün çoxmərtəbəli və yüksək texnologiya ilə təchiz edilmiş binanın tikilib istifadəyə verilməsi sadəcə quruculuq faktı olaraq qalmır, ölkənin tarixi ənənələrinin və böyük şəxsiyyətlərinin müstəqillik dövrünün yeni nəsillərinə çatdırılması kimi əhəmiyyətli məsələləri əhatə edir. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamın işığında Milli Elmlər Akademiyasına bəxş olunmuş elektron kitabxana ölkəmizdə elmin yüksək dünya standartları səviyyəsində inkişaf etdirilməsində göstərilən böyük dövlət qayğısının parlaq əməli ifadəsidir. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasında genişmiqyaslı islahatların həyata keçirilməsi özünün əsas ideya mənbəyini görkəmli dövlət xadimi Heydər Əliyevin müdrik, uzaqgörən siyasətindən və möhtərəm Prezident İlham Əliyevin göstərdiyi dövlət dəstəyindən alır. Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinin yüksək dövlət səviyyəsində keçirilməsi elmin bu gününə və sabahına açılan yeni üfüqləri cəmiyyət həyatının diqqət mərkəzinə çəkməyə şərait yaradır. Möhtərəm Prezidentin sərəncamı ilə Azərbaycan Milli Elmlər Akademiyasında Yüksək Texnologiyalar Parkının yaradılması və fəaliyyətinin dəstəklənməsi elm sahəsində, Milli Elmlər Akademiyasında innovasiyaların və nanotexnologiyaların tətbiqi imkanlarının genişləndirilməsinə meydan açır. Uzun illər ərzində aparılan müzakirələrdən sonra nəhayət, "Elm haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi və tətbiq olunması ölkəmizdə alim əməyinin, elmi fəaliyyətin miqyasının genişləndirilməsinə, elmdə sahibkar fəaliyyətinin həyata keçirilməsinə doğru böyük imkanlar yaratmışdır.

*Ümumiyyətlə, Heydər Əliyevin yolu - Azərbaycan dövlətinin, xalqımızın və elmimizin daha böyük gələcəyinin magistral istiqamətidir. Cəmiyyətimizin digər sahələri kimi, elmi fəaliyyət sahəsində də Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz daha böyük hədəflərə doğru iri addımlarla irəliləməkdə davam edir.*

***Akif ƏLİZADƏ,***
***Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik, YAP sədrinin müavini***



# Mili intibahın müəllifi

**Azərbaycan dövlətçiliyinin memarı Heydər Əliyevin 95 illik yubileyi bu şəxsiyyətin zaman keçdikcə daha aydın dərk olunan miqyası, onun xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətləri, ölkəmiz və bütövlükdə region üçün əzəmətli missiyası barədə bir daha düşünməyə, ulu öndərin şərəfli ömrünün çağdaş Azərbaycan tarixi ilə üzvi surətdə bağlı olan parlaq məqamlarını yenidən mənalandırmağa imkan verir.**

Bir siyasətçi və dövlət adamı olaraq, Heydər Əliyevin fəaliyyətinin zaman baxımından əhəmiyyətli hissəsi bəllidir ki, sovet dövrünə təsadüf etmişdir. Və diqqətli təhlil göstərir ki, Heydər Əliyevin sonralar müstəqil Azərbaycanın Prezidenti kimi həyata keçirdiyi işlər onun sovet dövründəki məqsədyönlü fəaliyyətinin məntiqi davamı idi. Başqa sözlə, hələ SSRİ dönəmindəki çoxşaxəli fəaliyyəti ilə o, müstəqil Azərbaycanın varlığını təmin edən möhkəm təməlləri yaratmağa müvəffəq olmuşdu. Belə ki, sovet Azərbaycanına rəhbərlik etdiyi 13 il ərzində Heydər Əliyev ölkəmizi nəhəng dövlətin xammal əlavəsi olan ucqar ərazisindən qabaqcıl sənaye sahələri və texnologiyalara malik, elm, təhsil və mədəniyyətin, ümumən insan potensialının yüksək inkişaf etdiyi bir respublikaya çevirməyi bacarmışdı. Bu mənada Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər sovet Azərbaycanı tarixinin "qızıl dövrü" kimi səciyyələndirilə bilər. 1982-ci ildə Heydər Əliyevin SSRİ rəhbərliyinə irəli çəkilməsi onun müstəsna liderlik və idarəçilik qabiliyyətinin təsdiqi olmaqla yanaşı, həm də Azərbaycanın yüksəliş və tərəqqisinin təzahürü idi.

Sonrakı illərdə dünyada gedən qlobal proseslər və "yenidənqurma" adlanan dövrdə buraxılmış səhvlər tədricən SSRİ-nin süqutuna və parçalanmasına gətirib çıxardı. Bədnam qonşumuzun ərazi iddiaları və hərbi təcavüzü nəticəsində Azərbaycanda daha mürəkkəb və fəlakətli situasiya yaranmışdı. Bir-birini əvəz edən ölkə rəhbərləri xalqı üzləşdiyi bəlalardan xilas etməyə, tarixi nailiyyət olan dövlət müstəqilliyini möhkəmləndirməyə qadir olmadıqlarını nümayiş etdirirdilər. Böyük siyasi təcrübəyə və ən başlıcası, xalq və vətən qarşısında sevgi və məsuliyyət hissinə malik olan Heydər Əliyev bu mənzərəni ürək ağrısı ilə seyr edir, Azərbaycan dövləti üçün yaranmış təhlükələri çox yaxşı anlayırdı. Xalq da düşdüyü bu ağır durumdan onu qurtara biləcək yeganə şəxsiyyəti Heydər Əliyevin simasında görürdü. Bu qarşılıqlı inam və sevgi ulu öndərin yenidən siyasi fəaliyyətə qayıdışı və onun Naxçıvandan başlayan yolunun müstəqil Azərbaycan Respublikasının Prezidenti postunda yekunlaşması ilə nəticələndi.

Heydər Əliyevin Ali Məclisin sədri kimi Naxçıvanda fəaliyyət göstərdiyi dövr (1991-1993-cü illər) barədə çox deyilmiş və yazılmış, kitablar nəşr edilmişdir. Bir məsələ şübhəsizdir ki, Azərbaycanın ayrılmaz parçası olan Naxçıvanın həmin kritik dövrdə Qarabağın taleyini yaşamaması məhz Heydər Əliyev faktoru sayəsində mümkün olmuşdur.

1993-cü ilin iyununda xalqın ən müxtəlif təbəqələrinin çağırışı ilə yenidən Azərbaycan rəhbərliyinə qayıdan Heydər Əliyev ölkəni düşdüyü ağır vəziyyətdən qurtarmaq üçün təxirəsalınmaz və qətiyyətli tədbirlər görməyə başladı. Ən mühümü də o idi ki, bu tədbirlər xalqla, ictimaiyyətlə aramsız ünsiyyət, müzakirə və dialoq şəraitində həyata keçirilirdi. Həmin dövrdə istər Milli Məclisin çox zaman canlı yayımlanan iclaslarında, istərsə də prezident seçildikdən sonra keçirdiyi müxtəlif görüş və toplantılarda çeşidli mövzularda etdiyi çıxışlarla Heydər Əliyev bir yandan ölkənin durumunu cəmiyyətə izah edərək nəhəng siyasi maarifçilik işi həyata keçirir, o biri yandan da vəziyyətdən çıxış yollarını müəyyənləşdirir, müstəqilliyin qorunması və möhkəmlənməsi üçün dəqiq strateji xətt işləyib hazırlayırdı. *"Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir"* - deyən ulu öndər XX əsrdə xalqımızın ikinci dəfə qazandığı müstəqilliyin müdafiəsini və onun dönməzliyinin təmin edilməsini öz daxili və xarici siyasətinin başlıca hədəfinə çevirdi. Bu siyasətə geniş kütlələrin birmənalı dəstəyi Heydər Əliyevin xalqdan güc alan bir lider kimi daha inamlı, daha cəsarətli fəaliyyətinə stimul verir, eyni zamanda, xarici qüvvələri, qlobal və regional oyunçuları Azərbaycan cəmiyyətinin iradəsini təmsil edən bir şəxsiyyət kimi onunla hesablaşmağa vadar edirdi.

Bu günün zirvəsindən baxanda hakimiyyətə gəldiyi zaman iqtisadi böhran və müharibə şəraitində olan, müxtəlif beynəlxalq güclərin geosiyasi mübarizəsi məngənəsində sıxılan Azərbaycanda Heydər Əliyevin on illik prezidentliyi dövründə gördüyü işlər, həyata keçirdiyi düşünülmüş və hərtərəfli ölçülüb-biçilmiş siyasi strategiya heyrət doğurmaya bilməz. Həmin strategiyanın bütün cəhətlərini Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən daxili, xarici və iqtisadi siyasət uğurla davam etdirilir. Qlobal və regional səviyyədə qaynaqlanan çağırışlara ölkəmiz adekvat cavab verməklə yanaşı, formalaşan imkanlardan maksimum istifadə etmək və beynəlxalq siyasi və iqtisadi təşəbbüslərlə ölkəmizin keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoymasına şərait yaradır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini dərindən anlayan, populist və səriştəsiz qüvvələrin yarıtmaz fəaliyyəti nəticəsində cəbhədə üzləşdiyimiz uğursuzluqların orduda və cəmiyyətdə doğurduğu ruh düşkünlüyünü yaxşı görən Heydər Əliyev ölkəyə "nəfəsini dərmək" və özünü toparlamaq imkanı yaratmağın zəruriliyini nəzərə alaraq, atəşkəsə nail oldu. Ölkənin düşdüyü hərbi-siyasi durumda yeganə düzgün addım olan atəşkəs sazişi üç mühüm hədəfi gerçəkləşdirməyə şərait yaradırdı: *1) Dağlıq Qarabağ münaqişəsindən Azərbaycana təzyiq vasitəsi kimi yararlanan xarici qüvvələrin ölkənin daxili siyasi həyatına təsirini minimuma endirmək; 2) ciddi böhran içərisində olan iqtisadiyyatı dirçəltmək; 3) ordu quruculuğu prosesini sürətləndirmək.*

Bu məqsədlərə çatmaq üçün digər vacib bir şərt ölkədə siyasi sabitliyin təmin olunması idi. Ulu öndər xalqın hərtərəfli dəstəyinə arxalanaraq, qısa zaman kəsiyində qanunsuz silahlı birləşmələrin ləğvinə, destruktiv və pozucu siyasi qüvvələrin zərərsizləşdirilməsinə, qanunçuluğun və ictimai asayişin təmin edilməsinə nail oldu. Bu baxımdan 1993-1995-ci illərdə faktiki olaraq dinc yolla, xalqın köməyi ilə separatçılıq və dövlət çevrilişi cəhdlərinin qarşısının alınması bir tərəfdən Heydər Əliyevin rəhbərlik etdiyi dövlətin gücünü hər kəsə nümayiş etdirdi, digər tərəfdən də böyük siyasi və dövlətçilik dərsi kimi Azərbaycan tarixinə düşdü.

Müstəqil Azərbaycan dövlətinin güclənməsi onun xarici siyasətində də özünü büruzə verdi. Heydər Əliyevin adı ilə bağlı olan balanslaşdırılmış xarici siyasət formalaşmağa və öz növbəsində onun müstəqilliyinin möhkəmlənməsinə, dünya birliyində layiqli yer tutmasına xidmət etməyə başladı. *"Müstəqilliyi təmin etmək üçün çox düşünülmüş xarici siyasət aparmaq lazımdır"* - deyərkən, ulu öndər Azərbaycanın suverenliyini təhdid edən xarici amilləri önləmək və dəf etmək prinsipini vurğulamışdır. Bunun üçün o, ilk növbədə qonşu dövlətlərlə münasibətlərin normallaşdırılması istiqamətində böyük səylər göstərdi. Həmin səylərin nəticəsi olaraq, SSRİ-nin hüquqi varisi olan Rusiya Federasiyası ilə əlaqələr, müstəqilliyin ilk illərində kifayət qədər gərgin səciyyə daşıyan İranla münasibətlər konstruktiv məcraya düşdü. Qardaş Türkiyə ilə əlaqələr romantik mərhələni arxada qoyaraq, real məzmun kəsb etdi, qarşılıqlı maraqlar, birgə mənafelər əsasında daha da genişlənməyə başladı. Gürcüstanla münasibətlərdəki problemlər aradan qaldırıldı, ikitərəfli əlaqələrin strateji tərəfdaşlıq istiqamətində inkişafına şərait yaradıldı. Eyni zamanda, işğalçı Ermənistanın təcrid olunması siyasətinin əsası qoyuldu. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Ermənistanı təcrid siyasətini inkişaf etdirərək işğalçı ölkəni siyasi böhrana, iqtisadiyyatını iflasa, xarici siyasətdə isə inamsızlığa gətirib çıxardı.

Azərbaycanın yerləşdiyi regionun geosiyasi mürəkkəbliyindən və strateji əhəmiyyətindən çıxış edərək Heydər Əliyevin müəyyənləşdirdiyi balanslaşdırılmış xarici siyasət kursu milli mənafelərin qorunması məqsədilə xarici güclərin maraqlarının nəzərə alınması və uzlaşdırılması, onlarla bərabərhüquqlu tərəfdaşlıq münasibətlərinin qurulub inkişaf etdirilməsi ilə yanaşı, həm də bu gün haqqında fəxrlə danışdığımız müstəqil xarici siyasətin əsasıdır. Məhz bu cəhəti vurğulayan ulu öndər deyirdi: *"Azərbaycan heç bir ölkənin təsiri altına düşməyəcəkdir. Azərbaycan öz müstəqilliyini qoruyacaqdır. Bu da bir Prezident kimi mənim siyasətimin əsas ana xəttidir".* Həmin xəttin gerçəkləşdirilməsi isə öz növbəsində çoxvektorlu xarici siyasəti zəruri edirdi ki, bunun da təməlləri Heydər Əliyev tərəfindən qoyulmuşdur. O, həm keçmiş SSRİ məkanında yerləşən MDB dövlətləri ilə, həm müsəlman ölkələri və onların təmsil olunduğu İslam Əməkdaşlıq Təşkilatı ilə, həm tarixi-mədəni birlik əsasında türkdilli dövlətlərlə, həm də Avropa Birliyi, Avropa Şurası və NATO kimi Qərb strukturları ilə Azərbaycanın bu gün uğurla inkişaf edən əlaqələrinin qurucusu olmuşdur. Xarici siyasətdə formalaşan prinsiplər bu gün də öz aktuallığını qoruyur və Prezident İlham Əliyev tərəfindən uğurla tətbiq edilir, Azərbaycan həm Şərq-Qərb, həm də Şimal-Cənub vektorlarda müstəqil şəkildə iqtisadi layihələri həyata keçirir və ölkəmizin müstəqil siyasəti dünya güc mərkəzləri tərəfindən qəbul olunur.

Heydər Əliyevin neft strategiyası da onun siyasətinin "ana xəttinə" xidmət etmiş, ölkənin təkcə iqtisadi baxımdan çiçəklənməsinə deyil, həm də beynəlxalq mövqelərinin möhkəmlənməsinə yönəlmişdir. Dünya siyasətində enerji amilinin rolunu gözəl bilən Heydər Əliyev Tanrının Azərbaycana bəxş etdiyi neft və qaz kimi təbii sərvətlərdən ölkənin davamlı inkişafı naminə məharətlə istifadə etməyi bacarmışdır. Onun rəhbərliyi ilə 1994-cü ilin sentyabrında imzalanmış "Əsrin müqaviləsi" artıq öz bəhrəsini vermişdir və hələ uzun illər (yada salaq ki, müqavilənin müddəti 2050-ci ilə qədər uzadılmışdır) Azərbaycan dövlətinin möhkəmlənməsinə və xalqımızın rifahına xidmət göstərəcəkdir. Təsadüfi deyildir ki, Azərbaycan neftini dünya bazarlarına daşıyan Bakı-Tbilisi-Ceyhan boru kəməri onun çəkilməsi barədə sazişə imza atmış Heydər Əliyevin adını daşıyır. Sonrakı dövrdə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən Bakı-Tbilisi-Ərzurum qaz kəməri, TANAP, TAP - "Cənub qaz dəhlizi" və digər enerji layihələri də ulu öndərin aydın və uzaqgörən strategiyasının davamıdır.

Hakimiyyətə yenidən qayıtdığı 1993-cü ildə xəzinəsi boşalmış, iqtisadiyyatı dağılmış bir dövləti təhvil alan Heydər Əliyev yeni dövrün çağırışlarını, yeni formasiyaya keçidin qanunauyğunluqlarını nəzərə alaraq, Azərbaycan iqtisadiyyatının dirçəlişi naminə qətiyyətli addımlar atdı. *"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir"* prinsipindən çıxış edən ulu öndərin bu yöndə həyata keçirdiyi geniş proqramın iki məqamı xüsusi vurğulanmalıdır. Bunlardan birincisi, dövlət əmlakının özəlləşdirilməsi, ikincisi isə keçmiş SSRİ məkanında ilk dəfə olaraq torpaq islahatının həyata keçirilməsidir. Bu addımlar ölkənin bazar iqtisadiyyatına keçidi baxımından müstəsna əhəmiyyət kəsb etmiş, sənayenin, kənd təsərrüfatının, xidmət sahəsinin azad sahibkarlıq prinsipləri əsasında inkişafına təminat yaratmışdır. Heydər Əliyev ardıcıl şəkildə yeni iqtisadi modelin qızğın tərəfdarı kimi çıxış etmiş və demişdir: *"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur".* Bu strateji yol çox keçmədən - XXI əsrin ilk onilliyindəcə Azərbaycanı sürətli sosial-iqtisadi inkişaf mərhələsinə gətirib çıxardı.

Ümummilli lider öz dövlət quruculuğu fəlsəfəsində hüquqi prinsiplərə və demokratik əsaslara xüsusi önəm vermiş və bu istiqamətdə ən mühüm addım kimi müstəqil Azərbaycanın ilk Konstitusiyasını işləyib hazırlamışdır. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən və Heydər Əliyevin qürurla "xalqın Konstitusiyası" adlandırdığı tarixi sənəd müstəqil Azərbaycanın çağdaş, demokratik, sivil, dünyəvi dövlətçilik modelinin nəzəri və hüquqi bünövrəsini təşkil etmişdir. Məhz bundan sonra ölkədə çoxpartiyalı əsasda parlament və prezident seçkiləri keçirilmiş, bələdiyyə orqanlarının yaradılması prosesi başlamış, vətəndaş cəmiyyəti və azad mətbuatın formalaşması sürətlənmişdir. Senzuranın və ölüm hökmünün ləğvi (1998-ci il), Ombudsman institutunun yaradılması (2002-ci il) Azərbaycanın demokratik inkişafı istiqamətində tarixi addımlar olmuşdur. Totalitar sistemdən yenicə qurtulmuş cəmiyyətin demokratik dəyərləri mənimsəməsi baxımdan bu addımlar müstəsna əhəmiyyət daşıyırdı. Ulu öndər demokratik və dünyəvi inkişaf yolunun Azərbaycan xalqının şüurlu strateji seçimi olduğunu dönə-dönə vurğulamış və demişdir: *"Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan, onlardan bəhrələnməkdən ibarətdir".*

Heydər Əliyev dövlət quruculuğu prosesində milli həmrəyliyi təmin edəcək ideoloji amilin rolunu da adekvat qiymətləndirmiş və bu sahədə də bizə qiymətli irs qoymuşdur. Onun irəli sürdüyü azərbaycançılıq ideologiyası milli dövlətimizin təməlini təşkil etməklə, qloballaşma şəraitində milli kimliyin qorunması baxımından misilsiz əhəmiyyətə malikdir. Ulu öndərin Azərbaycan dili və tarixi ilə bağlı alimlər, ictimai xadimlər və yaradıcı ziyalılarla keçirdiyi geniş müzakirələr bu ideoloji konsepsiyanın elmi əsaslarının formalaşmasında önəmli rol oynamışdır. Tarixi ənənələrə, milli məfkurə və dəyərlərə söykənən azərbaycançılıq ideologiyası Azərbaycanda sabitliyə, vətəndaş sülhünə təminat verən mühüm faktorlardandır. Məhz bu ideologiya sayəsində ideoloji ziddiyyətlərin, dini çəkişmələrin, məzhəb qarşıdurmalarının vüsət aldığı müasir dünyada Azərbaycan multikultural və tolerant atmosferin hökm sürdüyü məkan kimi seçilməkdədir. Bu ideologiya həmçinin bütün dünya azərbaycanlılarının vahid amal ətrafında birləşməsinə xidmət edir. *"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq"* sözləri ilə ulu öndər məhz bu cəhəti vurğulamışdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ilk illərində ermənilərin məkrli təbliğatı və onların beynəlxalq havadarlarının fəaliyyəti Azərbaycan dövlətini informasiya blokadasına almış, xalqımızın haqq səsini eşidilməz etmişdi. Heydər Əliyev Azərbaycanın üzləşdiyi bu tarixi haqsızlıqla bir an belə barışmamış, istər ölkədə keçirdiyi görüşlərdə, istərsə də çoxsaylı xarici səfərlərində yorulmadan bu blokadanın yarılmasına çalışmış və buna nail olmuşdur. Yaşının ixtiyar çağına baxmayaraq, ulu öndər tükənməz enerji və sarsılmaz əzmkarlıqla ən yüksək tribunalardan Azərbaycan həqiqətlərini dünyaya çatdırmış, informasiya müharibəsində itirdiyimiz mövqeləri addım-addım geri almışdır. Bu gün münaqişə ilə bağlı müxtəlif beynəlxalq qurumların qəbul etdiyi və Azərbaycanı müdafiə edən çoxsaylı sənədlər məhz Heydər Əliyevin başladığı böyük işin bəhrələridir. Münaqişənin sülh yolu ilə nizamlanmasını və ATƏT-in Minsk qrupu çərçivəsində aparılan müzakirələri dəstəkləyən ümummilli lider bu mövqe ilə bağlı qarşı tərəfdə və müəyyən xarici dairələrdə yanlış təsəvvürlər yarana biləcəyini nəzərdə tutaraq qətiyyətlə bildirirdi: *"Əgər torpaqlarımız sülh yolu ilə azad olunmasa, biz nəyin bahasına olursa-olsun torpaqlarımızı azad edəcəyik. Dünya bilməlidir, hamı bilməlidir və o cümlədən Ermənistan tərəfi də bilməlidir ki, biz heç vaxt torpaqlarımızın bir metrini də, bir qarışını da heç kəsə verməyəcəyik. Dünya belə qalmayacaq. Heç kəs güman etməsin ki, torpaqlarımızın bir hissəsi - Dağlıq Qarabağ, yaxud başqa bir hissəsi zorla əlimizdən alına bilər. Xeyr, biz bununla heç vaxt razı ola bilmərik və heç vaxt razı olmayacağıq. Bizim xalqımız heç vaxt bununla razı ola bilməz!"*

Bu sözləri yalnız öz xalqına inanan, ona tükənməz sevgi bəsləyən bir lider deyə bilərdi. Elə bir lider ki, xalqına, dövlətinə, Vətəninə xidməti həyatının mənası və qayəsi bilirdi. Və bunu qürur hissi ilə bəyan edirdi: *"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam".* O, buna nail oldu, xarici təcavüzə məruz qalan və daxili çəkişmələr girdabında əzab çəkən ölkəsini cəmi on il ərzində ən inkişaf etmiş dövlətlərin təmsilçilərinin də heyranlıqla seyr etdiyi müasir, sivil, çiçəklənən bir dövlətə çevirdi. Bu mənada ulu öndər doğrudan da, ən xoşbəxt adamdır. Bütün həyatı boyu sədaqət və fədakarlıqla xidmət etdiyi xalqı onun doğum gününü sevinc və qürurla bayram edirsə, anım günündə ruhu qarşısında ehtiram və minnətdarlıqla baş əyirsə, bu, siyasətçi və dövlət adamının nail ola biləcəyi ən böyük xoşbəxtlikdir.

Azərbaycanlı olmağı ilə fəxr edən Heydər Əliyev bütün azərbaycanlılara baxıb fəxr edə biləcəkləri bir miras qoydu - müstəqil və güclü Azərbaycan dövləti! Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin söylədiyi kimi: *"Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Heydər Əliyevin əsəridir. Bu, sadəcə olaraq sözlər deyildir. Bu, reallıqdır, bu, həqiqətdir!"*

**Fərhad MƏMMƏDOV,**
***Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru***

1923 **Azərbaycanın özü qədər əbədi** 2018

**Ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümüdür. Şərəfli ömür yolu ilə qədirbilən xalqımızın tükənməz sevgisini qazanmış ulu öndərin adı Azərbaycan tarixinə görkəmli dövlət xadimi, xilaskar, dahi şəxsiyyət və qüdrətli sərkərdə kimi həkk olunub.**

**Milli Məclisin deputatları da ümummilli liderin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz missiyasının böyük əhəmiyyətini qeyd edirlər.**



# Tarixin dahi azərbaycanlısı

## Heydər Əliyev ucalığı

**Hüseynbala MİRƏLƏMOV,**
*Milli Məclisin deputatı, YAP Xətai rayon təşkilatının sədri:*

- İllər ötəcək, əsrlər keçəcək, nəsillər dəyişəcək, amma bu qoca dünyanın unikal və qədim sivilizasiya ərazilərindən olan Azərbaycanda bir ad daim yaşayacaq, hörmətlə, ehtiramla xatırlanacaq. Bu, Heydər Əliyevin adıdır. Bu adın qarşısında saysız-hesabsız titullar, millət, xalq, Vətən qarşısında misilsiz və müstəsna xidmətlər dayanır - Azərbaycanın xilaskarı, müstəqil dövlətçiliyin memarı və qurucusu, ümummilli lider, fenomen şəxsiyyət, Azərbaycan və azərbaycanlıların şərəf simvolu...

Bu gün müstəqil dövlətçiliyin elə bir atributu yoxdur ki, orada bu böyük dühanın müstəsna xidmətləri olmasın, onun parlaq zəkasının nişanəsi görünməsin. Bu mənada ötən yüzillik Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, ictimai-siyasi həyatına "Heydər Əliyev qərinəsi" kimi daxil olmuşdur. Tarixçilər ulu öndəri əbəs yerə ümumdünya tarixinin azərbaycanlı dahisi adlandırmırlar! Heydər Əliyev vətən tarixinin böyük müəlliflərindən biridir! Azərbaycan xalqı XX əsrdə dünyanın siyasət meydanına bəxş etdiyi nadir şəxsiyyətə öz qəlbində möhtəşəm abidə ucaldıb. Çünki bu qeyri-adi zəka sahibi xalqımıza azadlıq və müstəqil dövlət bəxş edib.

Heydər Əliyev siyasi fenomen kimi Azərbaycan tarixinin həqiqətidir. Həqiqətlər isə bütün nisbiliklərə baxmayaraq, tarixin sınaqlarından üzüağ çıxır. Deyirlər, fenomenlərin sirri yoxdur. Onlar heç bir möcüzə yaratmırlar. Sadəcə, zəngin bilikləri, təcrübələri ilə çoxlarını, az qala bütün müasirlərini üstələyir, onların bacarmadıqlarını bacarır, hətta qeyri-mümkün olan hər nə varsa, hamısını reallaşdıra bilirlər. Ulu öndər təkcə biliyə, təcrübəyə əsaslanmırdı, O, taleyüklü məsələlərin həllində fədakarlıq, qəhrəmanlıq nümunəsi də göstərirdi. Dünyanın siyasi xadimləri arasında Heydər Əliyev obrazı öz parlaqlığı ilə diqqəti cəlb edir. Bu siyasi fenomenin işığının bu qədər gur olmasının səbəbi çoxdur. O, ən azı XX əsrin qüdrətli siyasi sütunlarından biridir.

XX əsrin sonunda Azərbaycanı xilas edən ulu öndər həm də xalqının taleyində önəmli rol oynadı. Heydər Əliyev sevgisi və məhəbbəti ilə süslənmiş yolla gedən Azərbaycanın müasir dövrü möhtəşəm uğurların zənginliyi ilə diqqəti cəlb edir. Bu gün Azərbaycan nəhəng tikinti meydançasıdır. Dünya xəritəsində elə bir ölkə ola bilməz ki, Azərbaycan qədər geniş tikinti işləri aparılsın. Gündən-günə qüdrətlənən, çiçəklənən ölkəmizdə həyatın bütün sahələrini əhatə edən irimiqyaslı işlər görülür. Milli azadlığın, müstəqilliyin xalqımıza, ölkəmizə bəxş etdiyi töhfələr hər birimizin gözü qarşısndadır. Ümummilli lider Heydər Əliyevin mədəni-mənəvi dəyərlərimizin qorunması ilə bağlı işıqlı ideyaları bu gün də yaşayır və uğurla həyata keçirilir... Heydər Əliyev öz əməlləri ilə millət atası olduğunu sübut etdi.

Son 15 ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyevin arzularını reallaşdırmaqla ulu öndərin layiqli davamçısı olduğunu sübut edib. Cənab İlham Əliyev ulu öndərin bütün arzularını göyərtdi, qol-qanad verdi.

Ataların yolu müqəddəs yoldur! Atadan oğula gələn yoldan çox danışmaq olar. İlham Əliyevin tükənməz enerji mənbəyi genetik olaraq atasından əxz etdiyi keyfiyyətlərdir. Azərbaycan xalqı dövlət başçısının simasında Heydər Əliyev amallarını böyük usatalıqla davam etdirən dövlət xadimi görür! Onun bir fikrini misal gətirmək istəyirəm: "Mən Heydər Əliyevdən öyrənmişəm və bundan sonra da öyrənəcəyəm. Bütün qərarları qəbul etməzdən əvvəl fikirləşirəm ki, Heydər Əliyev bu vəziyyətdə hansı addımı atardı".

Ötən ay prezident seçkilərində layiqli qələbə qazanan İlham Əliyevi cəmiyyətə təqdim etməyə ehtiyac yoxdur. Çünki o, öz tərcümeyi-halını xalqının gözü qarşısında əməyi ilə yazıb. İlham Əliyev vətən tarixinin yeni səhifəsidir. Təbiidir ki, onu lider kimi zaman və mühit yetişdirib. Dünyanın ən möhtəşəm yazıçılarından biri olan, mərhum dostum Çingiz Aytmatov mənimlə söhbət zamanı belə bir fikir söyləmişdi: "İlham Əliyev qloballaşan dünyada yeni lider etalonudur". Bu gün Azərbaycan Respublikası Prezidenti kürsüsündə oturması İlham Əliyevin həm də mənəvi haqqıdır. O, xalqın etimadını və ümidlərini doğruldub. İlham Əliyevin siyasi xadim kimi ən üstün cəhətlərindən biri onun siyasi gücünün ulu öndər, müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev tərəfindən etiraf olunması və siyasi varis kimi onun xeyir-duasını almasıdır. İlham Əliyevin böyük addımı sələfinin yolunu seçməsidir. O, gözünü açandan özünü həmişə bu yolda görüb. Onu bu yola taleyi gətirib, Heydər Əliyev yolunun gur işığı gətirib!..

Bu gün ulu öndərin milli dövlətçilik konsepsiyasının bütün atributları öz real təsdiqini tapmaqla Azərbaycanı iqtisadi, siyasi, sosial, humanitar inkişaf yoluna çıxarmışdır. Gündən-günə tərəqqi edən Azərbaycanın hansı guşəsinə baxsan, gözümüzün önündə ulu öndər Heydər Əliyevin vətənimiz və xalqımız üçün gördüyü möhtəşəm işlər canlanır.







## Heydər Əliyevin tarixi xidmətləri zəngin siyasi irsdir

**Tahir SÜLEYMANOV,**
*Milli Məclisin deputatı:*

- Mayın 10-da ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümüdür. Keçdiyi şərəfli ömür yolunun 34 ilini dövlətə və xalqa həsr edən Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlər birmənalı olaraq böyük quruculuq illəri, Azərbaycanın hərtərəfli və sürətli tərəqqi mərhələsi kimi səciyyələndirilir. Azərbaycanın müasir tarixinə nəzər salarkən aydın görünür ki, ölkənin və xalqın ən çətin anlarında Heydər Əliyevə ehtiyac duyulub və üzərinə düşən böyük missiyanı uğurla yerinə yetirən ulu öndər hər zaman ona bəslənilən ümidləri layiqincə doğruldub.

Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında xidmətləri əvəzedilməzdir. Həssas olan bir bölgədə yerləşən Azərbaycanda dövlətçiliyin yaradılması və bu dövlətçiliyin bütün bəşəriyyətə örnək olan inkişaf modelinin qurulması istiqamətində Heydər Əliyevin tarixi xidmətləri bütün dünyanın qəbul etdiyi və öyrəndiyi zəngin bir irsdir. Heydər Əliyev müasir dövlət quruculuğu fəlsəfəsini yaradan bir siyasətçi idi. O, sivil, demokratik, dünyəvi dövlət quruculuğu təcrübəsini ortaya qoydu. Heydər Əliyev kimi şəxsiyyətlər tarixi yaradırlar, sonrakı nəsillər üçün örnək və məktəb olurlar.

Sovet illərində Heydər Əliyevin təşəbbüsü ilə xalqımızın milli mənlik şüurunun, mədəniyyətinin və dilinin inkişafına güclü təkan verən tədbirlər həyata keçirildi. Bu mənada o illərdə təkcə sosial-iqtisadi yüksəliş deyil, milli-mənəvi dəyərlərə qayıdış da Heydər Əliyevin adı ilə bağlı idi. Sovet ideologiyasının qılınıcının arxasının da, qabağının da kəsdiyi bir dövrdə Heydər Əliyev xalqımızın mənəvi dəyərlərinin əriyib itməməsi üçün əlindən gələni etdi. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən məqsədyönlü siyasət Azərbaycan xalqının milli-mənəvi dəyərlərini xalqın şüurundan silə bilmədi.

SSRİ-nin süqutundan sonra bütün İttifaq respublikaları müstəqilliyə qovuşdu. Amma Azərbaycanın müstəqilliyinin ilk illərində hakimiyyətə yiyələnən qüvvələrin səriştəsizliyi ölkəmizi parçalanmaq, dövlətçiliyimizi itirmək təhlükəsi qarşısında qoymuşdu. Hakimiyyət uğrunda çəkişmə Ermənistanla aparılan müharibəni də arxa plana keçirmişdi. Belə ağır və mürəkkəb dövrdə Azərbaycan xalqı çox düzgün addım ataraq ölkəni düşdüyü ağır böhrandan qurtarmaq üçün Heydər Əliyevi Bakıya dəvət etdi. Xalqın təkidli tələbi ilə böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasına və möhkəmləndirilməsinə xidmət edən başlıca amil oldu.

Əgər ulu öndər 1993-cü ildə xalqın təkidli çağırışlarını qəbul etməsəydi, indi nə müstəqil dövlətimiz vardı, nə də firavan yaşayışımız. Heydər Əliyev hakimiyyətə qayıdandan sonra Azərbaycan dövlətçiliyini qurdu, yaşatdı. Ulu öndər ağır döyüşlərin getdiyi cəbhə bölgələrinə, səngərlərə baş çəkirdi, hərbçilərin problemləri ilə yerindəcə tanış olurdu, respublikamızın bütün regionlarına, eləcə də xarici ölkələrə səfərlər edirdi, islahatlar aparırdı, yorulmadan çalışırdı. Bu tükənməz enerji, dərin siyasi təcrübə sayəsində yeni, gənc müasir Azərbaycan dövləti quruldu. Vətənini və xalqını sonsuz məhəbbətlə sevən, andına sadiq olan, qətiyyəti, inamı, müdrikliyi ilə milyonları öz ətrafında birləşdirməyi bacaran, hadisələri düzgün qiymətləndirib reallıqlardan lazımi nəticə çıxaran Heydər Əliyev kimi vətənpərvər insan, siyasətçi yalnız bu tarixi yarada və yaza bilərdi.

Aradan ötən illər bizə bu tarixin əzəmətini, möhtəşəmliyini tam mahiyyəti ilə anlamaq, Heydər Əliyev fenomeninin milli dövlətçilik qarşısındakı əvəzsiz xidmətlərini mahiyyəti üzrə daha dərindən dərk etmək imkanı verir. Ulu öndərin ölkəyə rəhbərlik etdiyi dövrlərdə xalqın minilliklərlə intizarında olduğu arzular, niyyətlər, məramlar gerçəyə çevrilmiş, milli dövlətçilik ənənələrinin formalaşması prosesi sürətlənmişdir. Bu zaman kəsiyi Azərbaycanda müstəqilliyin əbədi, daimi və dönməz xarakter alması, sabit dövlət quruluşunun yaranması, xalqın təbii və konstitusion haqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması kimi misilsiz tarixi prosesi əhatələyir.

Azərbaycan xalqı xoşbəxtdir ki, Heydər Əliyev kimi dahi şəxsiyyət onun sıralarından çıxıb. Biz bu gün müstəqilliyimizə, inkişafımıza görə Heydər Əliyevə borcluyuq. Biz bu gün atdığımız hər bir addıma Heydər Əliyevin baxışları ilə qiymət verməliyik. Tarix sübut edir ki, Heydər Əliyevin Azərbaycan üçün seçdiyi yol düzgün idi. Bu gün Azərbaycan bütün parametrlər üzrə nəinki regionun, ümumilikdə götürdükdə böyük bir arealın inkişaf nümunəsidir. Heydər Əliyev irsinə dünyanın bir çox yerlərində müraciət edirlər. Dünyanın neçə-neçə ölkəsində ulu öndərin abidəsi qoyulub, onun irsi öyrənilir. Biz Heydər Əliyevlə fəxr edirik, ondan nümunə götürürük.

## Əbədiyaşar lider

**Mələhət İBRAHİMQIZI,**
*Milli Məclisin deputatı, YAP Nəsimi rayon təşkilatının sədri:*

- Yaşadığımız üçüncü minillikdə beynəlxalq aləmdəki prosesləri və təhlükəli oyunları təhlil etdikcə bir daha görürük ki, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycanda və regionda sabitliyin və təhlükəsizliyin əldə olunmasında, region xalqlarını üzləşdiyi xaosdan və fəlakətdən qorumaqla qlobal sülhə və inkişafa əvəzsiz töhfə vermişdir. Bu mənada Azərbaycan xalqı bilməlidir ki, müasir dünyada kürəsəl güclərin öz maraqları baxımından, "parçala və hökm sür" fəlsəfəsindən yaratdıqları təhlükələrdən qorunmağın yeganə yolu ulu öndər Heydər Əliyevin zəngin irsinə və uzaqgörən siyasətinə sadiq olmaqdır.

Uca Allah XX əsrin sonunda 1991-ci ildə Sovet İttifaqının çöküşü zamanı xalqımıza öz müstəqilliyini bərpa etmək üçün bir daha şans verdi. Bu şərəfli tarixi yazmağı və yaratmağı hər zaman xalqının yanında olan Heydər Əliyevə nəsib etdi. Bu yerdə çağdaş müstəqilliyimizin banisi ulu öndər Heydər Əliyevin dillər əzbəri olan və hər bir azərbaycanlı üçün müqəddəs vəsiyyəti "Müstəqilliyi qazanmaq nə qədər çətindirsə, onu saxlamaq ondan da çətindir" kəlamları minnətdarlıqla xatırlanır.

1991-1993-cü illər xatirimizdədir. 1993-cü ildə mürəkkəb şəraitdə xalqın səsinə səs verərək hakimiyyətə qayıdan Heydər Əliyev respublikanı milli müstəqilliyin itirilməsi təhlükəsindən qurtararaq çağdaş tariximizə dövlətçiliyin xilaskarı, qurucusu kimi daxil oldu. Böyük strateqin rəhbərliyi altında hakimiyyət boşluğu qısa müddətdə aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində dövlətçiliyə qəsdlər və dövlət çevrilişini təşkil edən cinayətkar ünsürlər xalqın dəstəyi ilə zərərsizləşdirildi, vətəndaş sülhü və həmrəyliyinin təmini istiqamətində ciddi addımlar atıldı. Ulu öndərin bu mərhələdə Azərbaycan üçün ən böyük xidməti onun de-fakto müstəqil dövlət qurması, dövlətçilik sütunlarını möhkəmləndirməsi, tarixi ənənə və müasirlik əsasında milli inkişaf konsepsiyasını müəyyənləşdirməsi oldu. Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli olaraq hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratdı.

Bu gün dünyanın ən yeni tarixində Azərbaycanın layiqli yeri var. Xalqın adını hər zaman uca tutan Heydər Əliyev bu şərəfli və şöhrətli tarixi həm yaratdı, həm də yazdı. Bu gün Heydər Əliyevi dünyanın dahi şəxsiyyətləri ilə müqayisə edərək onların öz xalqları üçün etdikləri qəhrəmanlıqları və fədakarlıqları qarşılaşdırırlar. Əslində, beynəlxalq münasibətlər sahəsində, xüsusilə də böhranların idarə edilməsində nəzəri və təcrübi olaraq böyük şəxsiyyətlərin fəaliyyətləri tədris edilir. Abraham Linkoln, Mustafa Kamal Atatürk, Konrad Adenaur, Marqaret Tetçer, Şarl De Qol kimi tarixi şəxsiyyətlərin hər biri xalqının taleyüklü problemlərini, onların düçar olduqları böhranın həllinə nail olmaqla adlarını nəinki öz tarixlərinə, dünya tarixinə yazmışlar.

Heydər Əliyev də əsl lider olaraq yenicə müstəqilliyinə qovuşmuş Azərbaycan xalqının və onun dövlətinin dünya birliyində var olmasını təmin etmişdir. 1993-cü ildən ölkəmizdə və bölgəmizdə gedən bütün proseslər ulu öndərin müdrikliyi, cəsarəti, bilik və bacarığı sayəsində Azərbaycan, eləcə də Qafqaz regionu və region xalqları xaosdan, böhrandan xilas oldu və bununla da gələcək sabitliyin, təhlükəsizliyin təməli qoyuldu. Əminəm ki, regional təhlükəsizliyin və sabitliyin əldə olunmasında Heydər Əliyev modeli də beynəlxalq münasibətlər elmində ən uğurlu təcrübə kimi öyrəniləcək.

Heydər Əliyev bütün zamanlar üçün dahi şəxsiyyətdir və illər ötdükcə onun böyüklüyü və gördüyü əzəmətli işlərin dəyəri qədirbilən xalqımız tərəfindən seviləcək, təbliğ ediləcək, qiymətləndiriləcək və onun müqəddəs ruhu qarşısında ehtiramlar bildiriləcək.

## Dövlət və xalq üçün yaşanan ömür

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı, YAP Ağdaş rayon təşkilatının sədri:*

- Xalqların və millətlərin taleyində tarixi şəxsiyyətlərin, dahi siyasətçilərin, müdrik dövlət başçılarının müstəsna rolu danılmazdır. Bəşəriyyətin yetirdiyi Heydər Əliyev kimi nadir dühalar isə özləri bütöv bir salnamə, tarix yaratmağa və tarixin təkərini nizamlamağa qadir olurlar. Ulu öndərin Azərbaycanın müdrik rəhbəri kimi çoxşaxəli fəaliyyəti, Vətən və xalq qarşısındakı ölçüyəgəlməz misilsiz xidmətləri dahi şəxsiyyətlərin tarixin gedişində həlledici rol oynadıqlarını əyani şəkildə təsdiqləyən ən dəyərli nümunələrdəndir.

1969-cu ildə Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişi ilə çağdaş tariximizdə keyfiyyətcə yeni epoxanın, Azərbaycanı müstəqil dövlət qurmağa doğru aparan böyük yolun başlanğıcı qoyuldu. Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 70-80-ci illər respublikamızın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən qlobal dəyişikliklərin miqyasına, sosial-iqtisadi və mədəni sahələrdə aparılan dərin islahatların xarakterinə, xalqın maddi rifah halının yaxşılaşdırılmasına və yeni mərhələyə keçirilməsinə görə həmin illərin tədqiqi müasir tariximizin daha dərindən öyrənilməsi baxımından da böyük önəm daşıyır.

Ulu öndərin xalqın tələbi ilə 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışı ərəfəsində ölkəmiz dövlət müstəqilliyini yenidən itirmək təhlükəsi ilə qarşı-qarşıya qalmışdı. Məhz bu dahi şəxsiyyətin xalqımızın təkidli xahişi ilə hakimiyyətə böyük qayıdışı Azərbaycanı bürümüş böhrandan, parçalanmaqdan, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. 1993-cü ilin iyun hadisələrinə qiymət verməyi bacaran hər bir insan dərindən dərk edir ki, ulu öndər o dövrdə qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağa həyatını təhlükəyə atmaqla nail oldu. Bu, Heydər Əliyev ömrünün yeni bir qəhrəmanlıq tarixi idi.

Heydər Əliyev fəaliyyətinin 1993-2003-cü illəri də bir ömrün qızıl salnaməsidir, Azərbaycanı daim müstəqil, azad, demokratik ölkə kimi görmək istəyən dahi şəxsiyyətin öz məqsədlərini uğurla həyata keçirdiyi illərin unudulmaz səhifələridir. Azərbaycanı hərtərəfli inkişaf yoluna çıxaran Heydər Əliyev öz əməlləri ilə, xalqa əvəzsiz xidmətləri ilə tariximizdə əbədiyaşarlıq qazandı. Zəmanəmizin ən görkəmli dövlət xadimi siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə Azərbaycanın yeni tarixində dövlətçiliyimizin möhkəmlənməsinə, müstəqilliyimizin əbədi olmasına verdiyi töhfələrə görə xalqımızın ümummilli liderinə çevrildi.

Ümummilli lider Heydər Əliyev ölkəmizi işıqlı sabahlara aparan bəşəri ideyaları ilə xalqımızın qəlbində yaşayır. Bu gün Heydər Əliyev ideyalarının alternativi olmadığını xalqımız çox gözəl anlayır. Təsadüfi deyil ki, bütün seçkilərdə Heydər Əliyev siyasi məktəbinin layiqli yetirməsi olan cənab İlham Əliyevi dəstəkləməklə xalqımız ulu öndərin ideyalarının davamına səs verib. Fəxrlə deyə bilərik ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi və iqtisadi kurs Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan yalnız regionun deyil, həm də Avropanın siyasi cəhətdən ən sabit ölkəsinə çevrilib, beynəlxalq aləmdə yüksək nüfuz qazanıb, iqtisadi inkişaf tempinə görə dünyada lider ölkələr sırasına daxil olub.

Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti və genişmiqyaslı islahatçı fəaliyyəti, müstəsna təşkilatçılığı sayəsində qazanılan nailiyyətlər birmənalı şəkildə ulu öndər Heydər Əliyevin dövlətçilik ideallarına sadiqliyinin parlaq təcəssümü olmaqla, hər bir Azərbaycan vətəndaşının qəlbində milli iftixar və ölkəmizin daha işıqlı gələcəyinə dərin inam hisslərini gücləndirir.

Ümummilli lider Heydər Əliyevin xidmətləri və keçdiyi ömür yolu haqqında çox deyilsə də, əsrlər boyu bu mövzuya müraciət olunacaq və onun zəngin irsi alimlər tərəfindən dərin, əhatəli, ətraflı elmi əsaslarla gələcək nəsillərə çatdırılacaq. Çünki xarakter, mahiyyət və məna etibarilə uca olan ulu öndər ancaq vətən, xalq amalı ilə təkcə Azərbaycanın deyil, bütövlükdə müasir dünyamızın siyasi tarixində fərqlənən önəmli bir şəxsiyyət olmuşdur.

## Azərbaycan Heydər Əliyevin müəyyən etdiyi yolla gələcəyə doğru addımlayır

**Nəriman ƏLİYEV,**
*Milli Məclisin deputatı:*

- Bu günlərdə xalqımız ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyini qeyd edir. Belə bir ərəfədə biz bir daha Heydər Əliyevi anmaqla, məzarını ziyarət etməklə, müxtəlif tədbirlər keçirməklə ulu öndərin əziz xatirəsinə öz ehtiramımızı bildiririk.

Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında tarixi quruculuq və inkişaf missiyası 1969-cu ildən başlayır. Həmin il Heydər Əliyevin respublikamızda rəhbərliyə gəlməsi sovet rejiminin sərt qanunlarına baxmayaraq, Azərbaycanda böyük iqtisadi, elmi və ədəbi-mədəni inkişafa, müstəqil düşüncəyə yol açdı. Heydər Əliyev rəhbərliyə başlayandan sonra qısa zaman kəsiyində Azərbaycan SSRİ-nin tərkibində o zaman üçün müasir iqtisadi potensiala malik olan respublikaya çevrildi. Heydər Əliyevin rəhbərliyi altında başlanan genişmiqyaslı işlərin nəticəsində Azərbaycan İttifaq respublikaları arasında öz layiqli yerini tutdu.

Azərbaycanı hərtərəfli inkişaf yoluna çıxaran Heydər Əliyev öz əməlləri, xalqa əvəzsiz xidmətləri ilə tariximizdə əbədiyaşarlıq qazandı. Zəmanəmizin ən görkəmli siyasi xadimi siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə Azərbaycanın yeni tarixində dövlətçiliyimizin möhkəmlənməsinə, müstəqilliyimizin əbədi olmasına verdiyi töhfələrə görə xalqımızın ümummilli liderinə çevrildi. Heydər Əliyevin ümummilli lider obrazı ilk növbədə onun şəxsi keyfiyyətlərində özünü təcəssüm etdirirdi. Onun şəxsi keyfiyyətlərinin prinsipiallıq və siyasi iradə komponentləri üzərinə götürdüyü tarixi missiyanın uğurunu zərurətə çevirən başlıca amil kimi nəzərdən keçirilir.

Ulu öndərin Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlərindən biri də onun müstəqilliyin qorunmasında əsas şərtlərdən biri kimi dövlət idarəçiliyində siyasi varisliyin qorunması idi. "Ona özüm qədər inanıram və tamamlaya bilmədiyim işləri İlham Əliyevin yüksək səviyyədə tamamlayacağına inanıram" - deyərək xalqa müraciət edən ümummilli lider son nəfəsində belə, xalqın gələcək taleyini düşünmüşdü. Xalqa xidməti ilə əbədiyaşarlıq qazanmış ulu öndər Heydər Əliyevin yaratmış olduğu dövlətin güclü təməlinin nəticədir ki, gənc müstəqil dövlətimiz Prezident İlham Əliyevin rəhbərliyi ilə "...Azərbaycan dünyaya günəş kimi doğur..." və göz bəbəyi kimi qorunur.

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin gələcək inkişafını müəyyənləşdirdi. Ölkəmizin inkişafı, insanların rifahının yaxşılaşması ulu öndərin uzaqgörənlik və müdrikliklə düşünülmüş siyasətinin bəhrəsidir. Azərbaycan Heydər Əliyevin əsasını qoyduğu yolla gələcəyə doğru inamla addımlayır. Heydər Əliyev siyasi məktəbinin ən layiqli yetirməsi olan Prezident İlham Əliyevin dərindən düşünülmüş, xalqının və dövlətinin maraqlarına xidmət edən siyasəti nəticəsində Azərbaycanın dinamik inkişafı davamlı xarakter almış, respublikamızın beynəlxalq aləmdə yeri və nüfuzu daha da möhkəmlənmişdir.

Heydər Əliyev elə bir tarixi şəxsiyyət idi ki, onun ideyaları Azərbaycanın özü qədər əbədi olacaq. Biz Azərbaycan xalqının dünyaya belə bir şəxsiyyət bəxş etməsindən qürur hissi keçiririk. Bu dahi insanın vətən qarşısındakı xidmətləri, həyat və fəaliyyəti hər birimiz üçün örnəkdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ulu öndər Heydər Əliyevin yeni neft strategiyası Azərbaycanın davamlı inkişafının təməlini qoymuşdur



XX əsr siyasi tarixinin fenomenal şəxsiyyətlərindən olan Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusu, onun demokratik-hüquqi əsaslarının, sosial-iqtisadi yüksəlişinin, beynəlxalq nüfuzunun təminatına çevrilən sarsılmaz və qalibiyyətli bir konsepsiyanın müəllifidir. Aydın və çevik düşüncə tərzi, dünyaya geniş baxışı, zəngin bilik və təcrübəsi ilə daim xalqının xidmətində duran ulu öndər qısa müddət ərzində Azərbaycanın sürətlə inkişaf edən ölkələr sırasına çıxmasına müvəffəq olmuşdur. Heydər Əliyev tarix yaradan şəxsiyyətdir, xalqın gələcəyini öncədən görməyi bacaran, onun potensialını düzgün qiymətləndirərək, inamla irəli aparan müdrik dövlət xadimi, nadir siyasətçidir. Tarix Heydər Əliyevin Azərbaycanı təhlükəli sınaqlardan necə şərəf və mətanətlə çıxardığını dəfələrlə sübut etmişdir. Ümummilli lider ölkəmizin sosial-iqtisadi imkanlarını, prioritetlərini zərgər dəqiqliyi ilə müəyyənləşdirmiş, onların qlobal inkişaf kontekstində düzgün istiqamətlənməsinə nail olmuşdur. Heydər Əliyev dövrün çağırış və tələblərini zamanında hiss etmiş, mövcud potensialı və resursları vaxtında dəyərləndirərək lazımi istiqamətdə yönləndirmiş və bununla da ölkənin davamlı inkişafına təkan vermişdir.

Hələ ötən əsrin 60-cı illərində keçmiş SSRİ-nin dünyada gedən inkişaf prosesləri ilə ayaqlaşmadığını görən Heydər Əliyev yeganə çıxış yolunu elmi-texniki yeniliklərə əsaslanan müasir sənayenin yaradılmasında, cəmiyyətin intellektual potensialının gücləndirilməsində görür və bu istiqamətdə təxirəsalınmaz tədbirlər həyata keçirirdi. Ulu öndər ümumi inkişafın təməlində müasir, güclü iqtisadiyyatın durduğunu, geosiyasi imkanların, beynəlxalq nüfuzun da məhz bu amildən asılı olduğunu yaxşı bilir və Azərbaycanın fəaliyyət istiqamətlərini qlobal inkişaf qanunauyğunluqları ilə vəhdətdə görürdü. Heydər Əliyevin işləyib hazırladığı strategiya Azərbaycanın gələcəyə yönəlmiş dəyişməz inkişaf vektoru, siyasi xarakteristika baxımından qurtuluş və davamlı inkişaf doktrinasıdır.

Ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycanın inkişaf yolu çətin sınaqlardan keçmişdir. Ölkənin hərbi təcavüzə və xarici təzyiqlərə məruz qaldığı, daxili çəkişmələr məngənəsində sıxıldığı, ərazisinin 20 faizinin işğal olunduğu, bir milyon soydaşımızın doğma torpağından didərgin düşdüyü o çətin məqamda xalqımız bütün ümidini ümummilli liderinə bağladı. Haqlı olaraq, bu böhranlı vəziyyətdən yalnız Heydər Əliyev dühası sayəsində xilas olacağına inanan xalqımızın istəyi və təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər qısa müddətdə ölkədə ictimai-siyasi sabitliyi bərpa etdi, sərbəst bazar münasibətlərinə əsaslanan müstəqil milli iqtisadiyyatın qurulması üçün taleyüklü qərarlar verdi. Cəbhədə atəşkəsə nail olundu, qanunsuz silahlı birləşmələr ləğv edildi, diplomatik fəaliyyət gücləndirildi. Heydər Əliyevin demokratik dövlət quruculuğu istiqamətində atdığı addımlar milli və ümumbəşəri dəyərlərin vəhdətinə əsaslanır, Azərbaycanın qlobal proseslərə inteqrasiyasını sürətləndirirdi. Çox keçmədən ulu öndərin müdrik və uzaqgörən qərarları müasir siyasi-iqtisadi sistemin inkişafına və genişmiqyaslı sosial-iqtisadi proqramların həyata keçirilməsinə əlverişli şərait yaratdı. Siyasi, sosial-iqtisadi, hüquqi və digər sahələrdə aparılan uğurlu islahatların nəticələri xalqımızın gündəlik həyatında, məişətində, maddi rifah halının yüksəlməsində bilavasitə özünü göstərdi. Ölkənin daxili inkişafı ilə beynəlxalq nüfuzu paralel olaraq dinamik şəkildə yüksəlməyə başladı.

Milli müstəqilliyimizin xilaskarı Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycan dövləti bu illər ərzində iqtisadiyyatın, elmin, mədəniyyətin, təhsilin inkişafında misilsiz nailiyyətlər əldə etmişdir. Bu gün Azərbaycan ümummilli lider Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı möhtərəm Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında yeni zirvələrə doğru inamla addımlayır.

Azərbaycanın yüksəliş dövrü neft-qaz sənayesinin inkişafının yeni mərhələsi ilə səciyyələnir. Bu mərhələnin başlanğıcı 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü və gərgin səyləri nəticəsində dünyanın aparıcı neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin birgə işlənilməsi haqqında "Əsrin müqaviləsi"nin imzalanması ilə qoyulmuşdur. "Əsrin müqaviləsi" Azərbaycanın dövlət müstəqilliyini bir daha de-fakto təsdiqləyən, onun dünya birliyinə üzvi surətdə inteqrasiyasına, beynəlxalq enerji bazarında önəmli yer tutmasına yol açan misilsiz siyasi-iqtisadi əhəmiyyətə malik epoxal bir sənəddir. Saziş həyata keçirildiyi müddətdə Azərbaycanın ictimai həyatının bütün sahələrinə nüfuz etmiş, bugünkü siyasi, sosial-iqtisadi nailiyyətlərin təməlində durmuşdur. Ulu öndər Heydər Əliyev sənədin ölkəmiz qarşısında parlaq perspektivlər açdığını vurğulayaraq deyirdi: "Əsrin müqaviləsi" ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkan yaradacaq. İnanıram ki, XXI əsr Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaq". Böyük bir uzaqgörənliklə söylənmiş bu sözlər artıq reallığa çevrilmişdir və bu gün biz ölkə iqtisadiyyatının yüksək inkişaf dinamikasının canlı şahidləriyik.

Ötən ilin noyabrında Azərbaycanda 2 milyardıncı ton neft hasil olundu. Hazırda neft hasilatının əsas hissəsi "Əsrin müqaviləsi" çərçivəsində işlənən "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun payına düşür. İşlənmənin əvvəlindən, yəni, 1997-ci ildən 2018-cı ilin aprelin 1-nə kimi AÇG-dən 452,6 milyon ton neft və 143,5 milyard kubmetr səmt qazı hasil olunmuşdur. AÇG layihəsindən Azərbaycanın payına düşən mənfəət neftinin həcmi ilbəil artır.

Karbohidrogenlərin qəbulu, saxlanılması və nəqli məqsədi ilə genişmiqyaslı müasir infrastruktur layihələri həyata keçirilmişdir. Ulu öndərin adını daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan iqtisadiyyatı üçün əhəmiyyəti yalnız ölkəmizə gətirdiyi nəhəng maliyyə dividendləri ilə yox, həm də "Əsrin müqaviləsi" çərçivəsində reallaşdırılmış 30-dan artıq infrastruktur layihəsinin qeyri-neft sektorunun inkişafına verdiyi töhfələrlə zəngindir. Ötən müddətdə AÇG layihəsinə 4 minə yaxın yerli müəssisə və şirkət cəlb olunmuşdur.

"Əsrin müqaviləsi" eyni zamanda, son onilliklərdə ölkəmizdə həyata keçirilən regional və qlobal əhəmiyyətli digər layihələr üçün yol açmışdır. Axtarış-kəşfiyyat işlərinin intensivləşdirilməsi, yeni yataqların kəşf edilməsi və hesablanmanın daha müasir və dəqiq texnologiyalar əsasında yenidən aparılması nəticəsində Azərbaycanın karbohidrogen ehtiyatları şərti yanacaqla 10 milyard tona çatdırılmışdır. AÇG yataqlar bloku bu gün də neft-qaz ehtiyatları ilə kifayət qədər zəngindir. Ötən il layihənin 2050-ci ilədək uzadılmasını nəzərdə tutan yeni müqavilə imzalanmışdır. Daha əlverşli şərtlərlə imzalanmış və iqtisadi cəhətdən daha səmərəli olan bu yeni müqavilə xarici tərəfdaşlarımızın Azərbaycan dövlətinə və SOCAR-a olan etimadını bir daha bütün dünyaya nümayiş etdirmişdir. Möhtərəm Prezident İlham Əliyev bu müqaviləni "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsində yeni dövrün başlanğıcı kimi qiymətləndirmişdir. Bu ilin ilk üç ayı ərzində "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda 5 hasilat quyusu qazılaraq, təhvil verilmişdir. Ümumilikdə 2018-ci ildə AÇG-də 12 hasilat və 4 suvurucu quyunun təhvili planlaşdırılır.

Nailiyyətlərimiz sırasında Xəzərin Azərbaycan sektorunda, demək olar, bütünlüklə iki və üçölçülü dəqiq seysmik kəşfiyyat işlərinin aparılması, alınan nəticələrin ümumiləşdirilməsi və modelləşdirilməsi də önəmli yer tutur. AÇG istehsalat sahəsində dördölçülü təkrar seysmik tədqiqatlar texnologiyası geniş tətbiq olunur. Qabaqcıl müasir metodlar arasında yüksək hasilatla işləyən quyularda qum tıxacının, kollektorların dağılmasının qarşısını alan texnologiyaların tətbiqini, neftvermə əmsalının yüksəldilməsi üçün su ilə yanaşı, səmt qazının da təkrarən laya vurulmasını, horizontal quyuların qazılmasını və s. qeyd etmək olar.

"Şahdəniz" qaz-kondensat yatağının işlənilməyə başlaması ilə Azərbaycan beynəlxalq aləmə özünü həm də zəngin təbii qaz istehsalçısı və istehlakçısı kimi təqdim etmişdir. "Şahdəniz" layihəsi hazırda ölkəmizdə karbohidrogen hasilatının daha bir mühüm dayağıdır. Dünyanın əhəmiyyətli neft hasilatçılarından Azərbaycan indi məhz bu layihənin uğurları sayəsində beynəlxalq enerji bazarlarında alternativ təbii qaz mənbəyi kimi də tanınır. Dünyanın ən böyük qaz-kondensat yataqlarından hesab olunan "Şahdəniz"in gündəlik hasilat gücü hazırda 30 milyon kubmetr qaz və 7 min ton kondensat həcmindədir. Ötən il yataqdan 10,2 milyard kubmetr qaz və 2,4 milyon ton kondensat hasil edilmişdir. "Şahdəniz-1" layihəsi üzrə qazma işləri davam edir və bu il daha 2 hasilat quyusunun tamamlanması nəzərdə tutulur. "Şahdəniz" yatağının işlənilməsinin 2-ci mərhələsi çərçivəsində hazırkı illik hasilata daha 16 milyard kubmetr qaz əlavə olunacaqdır. Bu həcmin ildə 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri isə Avropaya tədarük ediləcəkdir. "Şahdəniz-2" layihəsi üzrə mühəndis-layihə, təchizat, tikinti işlərinin, habelə istismar sınaqlarının 99%-i artıq tamamlanıb. Bu ilin əvvəlində "Şahdəniz-2" layihəsi üzrə bir quyuda qazma işləri artıq başa çatıb və il ərzində cəmi 5 hasilat quyusunun tamamlanması planaşdırılır. Ötən il layihənin gedişi baxımından xüsusilə uğurlu olmuşdur, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə layihə çərçivəsində "Xankəndi" sualtı tikinti gəmisinin təqdimatı keçirilmişdir. Gəminin SOCAR-ın da səhmdar olduğu Bakı Gəmiqayırma Zavodunda inşa edilməsi Xəzər gəmiçiliyi tarixində yeni bir eranın başlanması ilə əlamətdar olmuş və Azərbaycanın sənaye potensialının gücünü bir daha nümayiş etdirmişdir. Qeyd etmək lazımdır ki, "Şahdəniz-2" neft-qaz sənayemiz tarixində tikinti-quraşdırma işlərinin tam həcmdə ölkə daxilində yerinə yetirildiyi ilk layihədir. Konsorsium üzvləri bu nəhəng layihə çərçivəsində görülən işlərdə Azərbaycanın aparıcı rolunu dəfələrlə vurğulamışlar.

Respublikamızda hasil olunan təbii qaz həcmlərinin, ilk növbədə "Şahdəniz-2" layihəsi çərçivəsində çıxarılacaq qazın Avropa bazarlarına nəql edilməsi məqsədi ilə inşa olunan nəhəng "Cənub qaz dəhlizi"nin təşəbbüskarı və hərəkətverici qüvvəsi də Azərbaycandır. Avropanın ən iri infrastruktur layihəsi olan "Cənub qaz dəhlizi" geniş bir coğrafiyanı əhatə edir və qitənin enerji xəritəsində mühüm dəyişikliklər etməyə, enerji təhlükəsizliyinin daha da şaxələndirilməsinə hesablanmışdır. Prezident İlham Əliyevin onu "XXI əsrin layihəsi" adlandırması təsadüfi deyil. Mövcud Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) boru kəmərlərinin inşa edilməsi "Cənub qaz dəhlizi" zəncirinin halqalarıdır. Qeyd edək ki, 2015-ci ildə təməli qoyulan TANAP-ın tikintisi üzrə işlərin 93%-dən çoxu tamamlanmışdır. Hazırda bütün işlər ilkin qrafikə uyğun şəkildə, yüksək dəqiqlik və tikinti keyfiyyəti nəzərə alınaraq davam etdirilir. Əvvəlcədən planlaşdırıldığı kimi, cari ildə ilk qaz TANAP vasitəsi ilə Türkiyəyə ixrac olunacaqdır. 2020-ci ilin əvvəlindən TAP kəmərinə birləşdiriləcək TANAP-ın ümumi ötürücülük həcmi 16 milyarda çatdırılacaqdır. Sonrakı mərhələlərdə isə kəmərin ötürücülük həcmi 31 milyard kubmetrədək artırıla bilər. "Cənub qaz dəhlizi"nin boru kəməri sistemi elə layihələndirilmişdir ki, gələcəkdə əlavə qaz həcmlərinin nəqli üçün ötürücülük qabiliyyətinin ikiqat artırılmasına imkan verəcək. Bu ilin fevralında "Cənub qaz dəhlizi" ilə birləşdiriləcək əlavə boru kəmərlərinin layihələndirilməsi ilə bağlı iki sənəd imzalanmışdır. Həmin sənədlərə əsasən, SOCAR Albaniyada ilkin mühəndislik dizayn xidmətlərini həyata keçirəcək. Ümumiyyətlə, mübaliğəsiz deyə bilərik ki, "Cənub qaz dəhlizi" möhtəşəm bir layihədir və əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin rəhbərliyi ilə bizi ilbəil yeni qələbələrə aparan qalibiyyətli enerji strategiyamızın ən böyük nailiyyətlərindəndir.

SOCAR perspektivdə qaz hasilatının artırılması məqsədilə "Ümid", "Abşeron", "Qarabağ" və digər dəniz strukturlarının işlənilməsi üzrə həm xarici tərəfdaşları ilə əməkdaşlığı, həm də müstəqil çalışmalarını davam etdirir. "Ümid" yatağının işlənməsi yaxın zamanda İlkin Detallı Layihələndirmə (İDL) mərhələsinə daxil olacaq. Biz həmçinin bu yatağa bağlı olan "Babək" strukturunda da ilk kəşfiyyat quyusunun qazılması üçün layihələndirmə işləri aparırıq. "Abşeron" yatağının İlkin Hasilat Sxemi üzrə mühəndislik və layihələndirmə işləri davam etdirilir. Bu layihə üzrə Yekun İnvestisiya Qərarına hazırlıq işləri aparılır. "Abşeron"da ilk quyunun 2019-cu ildə istismara verilməsi planlaşdırılır.

SOCAR neft-qaz hasilatının sabit saxlanılması və yüksəldilməsi məqsədilə Xəzərdə qazma əməliyyatlarının intensivləşdirlməsi üçün tikinti-quraşdırma və təmir işlərini sürətləndirmişdir. Dəniz yataqlarında müasir platformaların inşası bu baxımdan mühüm əhəmiyyət kəsb edir. "Bulla-Dəniz", "Çilov", "Qərbi Abşeron", "Neft Daşları" yataqlarında istismar quyularının qazılması üçün yeni dəniz özülləri və meydançaları tikilib istifadəyə verilmişdir və bu istiqamətdə işlər mütəmadi olaraq davam etdirilir. Neft sənayesində innovativ rəqabətin və texnoloji meyarların ilbəil yüksəldiyini nəzərə alan SOCAR qloballaşmış beynəlxalq neft-qaz bazarındakı inkişafa uyğunlaşmaq üçün bütün tədbirləri görür və ulu öndərin Azərbaycanın neft-qaz sənayesi üçün konseptual əhəmiyyət kəsb edən "Bizim yolumuz islahatlar yoludur" kəlamını əldə rəhbər tutur.

Azərbaycan dünya bazarında təkcə xam neftin və qazın ixracatçısı kimi deyil, həm də neft və neft-kimya məhsullarının istehsalçısı kimi tanınır. SOCAR emal və kimya məhsullarını hazırda ABŞ, İtaliya, Misir, Çin də daxil olmaqla onlarca ölkəyə ixrac edir. Ötən əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyevin təşəbbüsü, rəhbərliyi və təşkilatçılığı ilə tikilib istifadəyə verilmiş mövcud emal və neft-kimya qurğuları bu məhsulların istehsalına imkan yaradır. Qarşımızda duran sosial-iqtisadi vəzifələrin öhdəsindən layiqincə gəlmək, habelə ixrac öhdəliklərinə vaxtında əməl etmək üçün həmin qurğular davamlı olaraq təkmilləşdirilmiş, mövcud imkanlar daxilində müasirləşdirilmiş, səmərəlilik əmsalı artırılmışdır. Emal sənayemiz xam neftdən səmərəli istifadə etməklə mühərrik yanacaqlarının istehsalının artırılması və keyfiyyətinin yaxşılaşdırılması istiqamətində uğurla işləyir. Lakin məlumdur ki, yanacaq və kimya məhsullarının kəmiyyət və keyfiyyətinə tələbat daim dəyişir və artır. İstehsal olunan dizel yanacağının və avtomobil benzinlərinin keyfiyyətcə Avropa standartlarına uyğunlaşdırılması, rentabelliliyin və ekoloji məqsədəuyğunluğun yüksəldilməsi hazırda bütün növ neft və qaz məhsullarının istehsalında başlıca meyardır. Möhtərəm Prezident İlham Əliyev məhsul və istehsal istiqamətlərinin diversifikasiyası xəttini irəli sürmüşdür ki, bu strateji xətt dünya bazarında qiymətlərin kəskin şəkildə aşağı düşdüyü son illərdə Azərbaycan iqtisadiyyatına böyük dividendər gətirmişdir. Xam neftin qiyməti aşağı düşdüyü halda, neft-qaz və neft-kimya məhsullarının gəlirliliyi yüksəlmişdir. Türkiyədəki ən böyük aktivimiz olan "Petkim" Petrokimya Holdinqinin timsalında biz bunu aydın şəkildə görə bilirik. Məhsullarını təxminən 40 ölkəyə ixrac edən "Petkim" 2008-ci ildə SOCAR-ın idarəçiliyinə keçdikdən sonra xalis mənfəətini 9,2 dəfə artırmışdır. Holdinqin səhmlərinin dəyəri isə 8,7 dəfə yüksəlmişdir. "Petkim"i xammal ilə təmin edəcək STAR neft emalı zavodunun tikintisi 99% tamamlanmışdır. Cari ilin sentyabrında zavodda ilk məhsulun satışı, dekabrda isə şərti qəbulu həyata keçiriləcək. Zavodun istehsal gücü 10 milyon ton həcmində nəzərdə tutulur. Zavodda istehsal olunacaq məhsulların bir qismi, o cümlədən nafta "Petkim" kompleksində xammal kimi istifadə ediləcək ki, bu da ümumi xərclərin aşağı salınmasında böyük rol oynayacaq. Ümumiyyətlə, zavodda istehsal ediləcək məhsulların əsas hissəsi Türkiyənin daxili bazarı, qalan hissəsi isə ixrac üçün nəzərdə tutulur. Cari ildə STAR üzrə aparılacaq işlərin əsas hədəfi istehsalat proseslərinin rəqəmsallaşdırılması olacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Neft-kimya sənayesində idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi haqqında" 2 aprel 2010-cu il tarixli sərəncamı ölkədə neft emalı və neft-qaz kimyası müəssisələrinin ahəngdar inteqrasiyası, vahid komleksdə birləşdirilməsi və innovativ inkişaf müstəvisinə keçirilməsi baxımından dönüş nöqtəsi olmuş, davamlı islahatların əsası qoyulmuşdur. "Azərikimya" İstehsalat Birliyi SOCAR-ın tərkibində fəaliyyətə başladığı dövrdən Sumqayıtda ekoloji şəraitə mənfi təsir göstərən bir sıra yararsız istehsalat sahələri ləğv edilmiş, yeni müasir neft-kimya kompleksinin yaradılması istiqamətində işlərə start verilmişdir. Eyni zamanda, Sumqayıtda Kimya Sənaye Parkının yaradılması üçün bütün zəruri tədbirlər həyata keçirilmişdir. Möhtərəm Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin I rübünün yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında sənaye parklarının respublikamızda innovativ sənayeyə keçid baxımından son dərəcə mühüm əhəmiyyət kəsb etdiyini vurğulamış və bu il sənayenin inkişafını gücləndirəcək iki nəhəng zavodun - "SOCAR Polymer" və SOCAR Karbamid zavodlarının işə düşəcəyini qeyd etmişdir. Bu ilin fevral ayında "SOCAR Polymer" zavodunda nümayiş və sınaq məqsədi ilə ilk dəfə polipropilen məhsulunun istehsalı həyata keçirilmişdir. "SOCAR Karbamid" zavodunda tikinti işləri, demək olar ki, tamamlanıb və artıq sınaq-sazlama işlərinə hazırlıq gedir. Zavodun ilk məhsulu olacaq ammonyakın istehsalı bu ilin avqust ayına planlaşdırılır. Oktyabrda isə zavodun yekun məhsulunun - azot gübrəsinin (karbamid) istehsalına başlanılacaq. "SOCAR Polymer" müəssisəsində polipropilen və yüksəksıxlıqlı polietilen istehsal edən iki zavodun istismara verilməsi isə cari ilin 2-ci və 4-cü rüblərində planlaşdırılır. Sənayenin səmərəliliyinin artırılması məqsədi ilə "SOCAR Polymer" zavodlarının rəqəmsallaşması "SAP" (Sistem Analizi və Proqramlaşdırma) sisteminin modulları vasitəsi ilə təmin olunacaq.

Neft emalı və neft-qaz kimyasının vahid kompleksdə birləşdirilməsi və istehsal zəncirinin tamamlanması seqmentlərin qarşılıqlı fəaliyyətini təmin edir. Yeni inşa olunan zavodları xammal ilə təmin edəcək "Azərikimya" özü eyni zamanda Heydər Əliyev adına Neft Emalı Zavodunun məhsullarından istifadə edir. Buna görə də zəncirin bütün halqalarının ahəngdar işini təmin etmək üçün yeni zavodların inşası ilə paralel olaraq Heydər Əliyev adına NEZ və "Azərikimya"da yenidənqurma tədbirləri həyata keçirilir. Hazırda "Azərikimya" İB-də texnoloji qurğuların yenilənməsi üzrə işlər tam gücü ilə davam edir. Bununla yanaşı, müəssisədə yeni qurğuların və yardımçı sahələrin inşası işləri aparılır. İstehsalat Birliyi üzrə yenidənqurma işləri 2019-cu ildə başa çatdırılacaqdır.

Heydər Əliyev adına Neft Emalı Zavodunda modernizasiya işləri çərçivəsində ilkin emal, katalitik krekinq kimi mövcud qurğular əsaslı təmir edilərək, yenidən qurulacaq, bir sıra yeni qurğular inşa olunacaq, zavodun istehsal gücü artırılacaqdır. Modernləşdirmə prosesi istehsal olunan dizel yanacağının və avtomobil benzinlərinin Avro-5 standartı səviyyəsinə çatdırılması, yeni bitum istehsalatının yaradılması, reaktiv mühərrik yanacağı həcminin kəmiyyət və keyfiyyətcə yüksəldilməsi, istismar xərclərinin azaldılması və s. vəzifələrlə yanaşı, "Azərikimya"nın qaz xammalı - propan-propilen, butan-butilen fraksiyaları kimi quru qazlarla daha etibarlı təminatını nəzərdə tutur. Artıq NEZ-in modernizasiyası üzrə ilkin detallı layihələndirmə işləri başa çatdırılmış və keçirilən tenderin nəticələrinə uyğun olaraq, növbəti mərhələnin - Layihələndirmə, Satınalma və Tikinti mərhələsi çərçivəsində yeni qurğuların tikintisi ilə bağlı bu ilin fevralında Maire Tecnimont şirkəti ilə müqavilə imzalanmışdır. Müqaviləyə əsasən, 10-dan çox istehsal qurğusunun tikintisi nəzərdə tutulur. Mövcud qurğuların və ümumzavod təsərrüfatı obyektlərinin yenidən qurulması isə ötən ilin dekabr ayında keçirdiyimiz digər tenderin qalibi olan Tecnicas Reunidas şirkətinə həvalə olunmuşdur. Layihənin 2021-ci ildə başa çatdırılması nəzərdə tutulur. İlk mərhələdə 2018-ci ildə yeni bitum qurğusu və müvafiq ümumzavod təsərrüfatı qurğuları, eləcə də yeni maye qazdoldurma məntəqəsi tikilib istismara veriləcəkdir. Sonrakı mərhələ üzrə 2020-ci ilin sonunadək "Avro-5" keyfiyyət standartına cavab verən dizel yanacağının alınması üçün yeni qurğuların inşası və müvafiq yenidənqurma işləri başa çatdırılacaqdır. III mərhələdə isə 2021-ci ilin əvvəlinədək "Avro-5" keyfiyyət standartına cavab verən A-92/95/98 benzin məhsullarının istehsalı üçün müvafiq yeni qurğuların inşası həyata keçiriləcəkdir. Modernizasiya nəticəsində zavodda istehsal həcmini ildə 7,5-8 milyon tona çatdırmaq mümkün olacaqdır. Beləliklə, aparılan rekonstruksiya ölkəmizin ixrac potensialını və NEZ-in gəlirliliyini artıracaq, həmçinin "Azərikimya" İB-nin sabit xammal təchizatını təmin edəcəkdir. Layihə nəticəsində NEZ-in əməliyyat xərclərinin optimallaşdırılması, habelə Bakı və Sumqayıt şəhərində ekoloji vəziyyətin daha da yaxşılaşdırılması gözlənilir.

SOCAR ulu öndərin xüsusi əhəmiyyət verdiyi ətraf mühitin mühafizəsi sahəsində ciddi tədbirlər həyata keçirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, son illərdə mədən ərazilərinin, xüsusilə Xəzərin Azərbaycan sektorunun neft və neft məhsulları ilə çirklənməsinin, istilik effekti yaradan qazların atmosferə atılmasının qarşısının alınması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmişdir və bu tədbirlər bu gün də dinamik şəkildə davam etdirilir.

Qlobal istiləşmə və iqlim dəyişmələri bu gün bütün bəşəriyyəti narahat edir. Bu istiqamətdə Dünya Bankının Tərəfdaşlıq (GGFR) təşkilatı ilə 2008-ci ildən əməkdaşlıq edən SOCAR bankın "2030-cu ilə qədər səmt qazının normal hasilat prosesində yandırılmasının sıfıra endirilməsi" təşəbbüsünə də qoşulmuşdur. 2012-ci ildən etibarən istehsalat prosesləri zamanı alçaq təzyiqli səmt qazının yandırılması azaldılmış, bu istiqamətdə bir neçə layihə işlənib həyata keçirilmişdir. "28 May" və "Neft Daşları" yataqlarında səmt qazının utilizasiyası üzrə layihəmiz Dünya Bankı tərəfindən yüksək qiymətləndirilmiş və "Award Exellence" mükafatına layiq görülmüşdür. Tədbirlər planımıza əsasən, 2017-2020-ci illərdə "28 May", "Neft Daşları" və "Abşeronneft" NQÇİ-lərdə yeni vakuum kompressor stansiyalarının tikintisi və kompressor qurğularının quraşdırılması nəzərdə tutulur ki, bu da atmosferə qaz tullantılarının "sıfır" həddinə endirilməsində əhəmiyyətli rol oynayacaq.

SOCAR beynəlxalq şirkətlərlə rəqabət apara bilən güclü və modern bir qurum kimi həm ölkə daxilində, həm də xaricdə investisiya fəaliyyətini genişləndirməkdədir. Şirkətin investisiya portfelini şaxələndirən, müxtəlif istiqamətlərdə yeni bazarlara çıxışı təmin edən layihələr ölkəmizin ümumi strateji inkişafına xidmət edir. Türkiyədə, Gürcüstanda, İsveçrədə, Rumıniyada, Ukraynada gəlirli aktivlərin əldə olunması, STAR neft emalı zavodu, Petlim limanı, konteyner terminalı kimi perspektivli inşaat layihələrinə sərmayə yatırılması bu tip layihələrdəndir. İndi həmin layihələr artıq mənfəət gətirməyə başlamışdır. Düzgün investisiya strategiyası aktivlərimizin dəyərini və şirkətin dövriyyə kapitalını ilbəil artırır.

Dünya bazarında səmərəli fəaliyyət göstərmək üçün maliyyə hesabatlarının və idarəçilik modellərinin beynəlxalq standartlara uyğunlaşdırılması, peşəkar audit, müasir informasiya-kommunikasiya texnologiyalarından effektiv istifadə zəruri şərtlərdəndir və apardığımız islahatların mühüm istiqamətlərini təşkil edir. SOCAR Azərbaycanda Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına keçmiş ilk dövlət qurumlarından biridir. Bu prosesdə standart uçot və konsolidasiya mexanizminin hazırlanması məqsədi ilə beynəlxalq təşkilatlarla uzunmüddətli razılaşmalar əldə olunmuş, SAP ERP sisteminin uçot, idarəetmə büdcə proqnozlaşdırılması, məhsul istehsalı, istehsalatın planlaşdırılması, texniki xidmət və keyfiyyətə nəzarət sahələri üzrə bir çox modulları tətbiq edilmişdir. "Ernst & Young", "Fitch Ratings", "Standard & Poor's", "Moody's" kimi tanınmış audit şirkətləri və reytinq agentlikləri ilə səmərəli əməkdaşlıq qurulmuşdur.

SOCAR və IBM şirkətləri tərəfindən Azərbaycanda, Xəzər regionunda və digər ölkələrdə, ilk növbədə neft-qaz sənayesi üzrə, rəqabət qabiliyyətli informasiya texnologiyaları, biznes transformasiyası və müvafiq məsləhət xidmətlərini həyata keçirmək məqsədilə yaradılmış "Caspian Innovation Center" adlı birgə müəssisə həm bizə, həm də regiondakı digər şirkətlərə istehsalat effektivliyinin artırılması ilə bağlı yeni və müasir analitika və xidmətlərini təklif edəcəkdir. Nəzərdə tutulan transformasiya proqramı IBM-in qabaqcıl təcrübəyə əsaslanan proses və texnologiyalarını Azərbaycan və bütün regiona gətirəcək.

SOCAR insan resurslarının inkişafına xüsusi diqqət yetirir. İşçilərin sosial rifahının yaxşılaşdırılması, peşəkarlıq imkanlarının genişləndirilməsi və karyera yüksəlişi fəaliyyətimizin prioritet istiqamətlərini təşkil edir. Şirkət yeni elmi biliklərə, analitik düşüncəyə, çevik qərar qəbul etmə qabiliyyətinə malik təşəbbüskar gənc kadrların hazırlanması məqsədilə geniş tələbat olan ixtisaslar üzrə dünyanın tanınmış universitetlərinə daxil olan azərbaycanlı tələbələrin təhsilini maliyyələşdirir, eyni zamanda, respublikamızın ali məktəblərində Təqaüd Proqramı həyata keçirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə şirkətin nəzdində yaradılmış Bakı Ali Neft Məktəbi də yüksək ixtisaslı ingilisdilli mühəndislərin hazırlanmasına xüsusi töhfə verir.

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev nefti Azərbaycanın böyük sərvəti, bütün xalqa, indiki və gələcək nəsillərə mənsub olan sərvəti adlandırırdı. Ulu öndər bu sərvətin xalqın və ölkənin maraqlarına, Azərbaycanın bu gününə və sabahına xidmət etməsi üçün qalibiyyətli bir enerji strategiyası işləyib hazırladı. Azərbaycanın enerji strategiyası bu gün möhtərəm Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında yeni dövrün tələblərinə uyğun davam etdirilir, dinamik inkişafı, dərin islahatları təmin edərək Azərbaycanı yeni-yeni zirvələrin fəthinə doğru aparır. Dünya sənayesi salnaməsinə parlaq səhifələr yazmış Azərbaycan neftçiləri əmindirlər ki, enerji strategiyamızın zəfər təntənəsi bizi daha işıqlı sabahlara çatdıracaq!*

**Rövnəq ABDULLAYEV,**
**Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti, Milli Məclisin deputatı**

1923 *Azərbaycanın özü qədər əbədi* 2018







# Heydər Əliyevin ideyaları ölkəmizin elektrik enerjisi sistemində müvəffəqiyyətlə reallaşdırılır



**Azərbaycan elektrik energetikasının yüz ildən artıq uzun və şərəfli tarixinin son əlli ilinin ən parlaq səhifələri ulu öndər Heydər Əliyevin özü və davamçıları tərəfindən yazılmışdır. Ötən əsrin yetmişinci illərinə qədər respublikamızda enerji sistemi artıq formalaşmışdı və keçmiş sovet dövlətinin nəhəng vahid enerji sisteminin tərkibində fəaliyyət göstərirdi. Məhz bu amili əsas götürən mərkəzi hakimiyyət, digər əyalətlərdə olduğu kimi, Azərbaycanda da elektrik enerjisi hasilatını artırmaq üçün yeni və güclü generasiya müəssisələrinin tikintisinə biganəlik göstərir, belə layihələrin maliyyələşdirilməsinə çox çətinliklə vəsait ayırırdı.**




Müstəqil dövlət quruculuğu dövründə həmin çətinlikləri xatırlayan ulu öndər Heydər Əliyev deyirdi: "...Hər bir yeni elektrik stansiyasını yaratmaq üçün Sovetlər İttifaqının dövlət büdcəsindən böyük vəsait ayırmaq, almaq lazım idi. Bunu da hər dəfə vermirdilər. Bəyan edirdilər ki, nə üçün siz yeni elektrik stansiyaları yaradırsınız, Sovetlər İttifaqının vahid elektrik enerjisi sistemi var, nə qədər istəyirsiniz, oradan elektrik enerjisi ala bilərsiniz. Ancaq biz irəliyə baxırdıq. Biz hesab edirdik, bu elə bir sahədir ki, gərək Azərbaycan burada öz müstəqilliyini, yəni asılı olmadığını təmin edə bilsin. Biz bunu təmin etdik".

Ulu öndər Heydər Əliyev bütün şüurlu həyatını və genişmiqyaslı fəaliyyətini Azərbaycanın tərəqqisinə, xalqın istək və arzularının gerçəkləşməsinə həsr etmişdir. O, iki müxtəlif ictimai-siyasi quruluşda özünün liderlik istedadını sübuta yetirmiş, hər iki dövrdə respublikanı tənəzzül və böhrandan xilas edərək inkişaf yoluna çıxarmışdır.

Sovet dövlətinin ən qüdrətli vaxtında öz xalqının və ölkəsinin gələcək müstəqilliyini düşünən, respublikanı elektrik enerjisi asılılığından qurtarmaq üçün burada Cənubi Qafqazın ən iri istilik elektrik stansiyasının tikilməsinə nail olan müdrik və uzaqgörən rəhbərimiz, ümummilli lider Heydər Əliyev elə həmin dövrdə Azərbaycanın müstəqil elektrik enerjisi sisteminin təməlini qoymuşdur. Bu gün biz ulu öndərin elektrik enerjisi sektorunun inkişafındakı müstəsna xidmətlərini bir daha yada salır, öz cəsarəti və fədakarlığı ilə doğma vətənini, sözün həqiqi mənasında, nurlu, işıqlı bir diyara çevirməsini dərin ehtiramla və minnətdarlıq hissi ilə qeyd edirik.

Sovet dövründə ulu öndər Heydər Əliyevin siyasətinin əsas hədəfləri respublikada güclü iqtisadi potensial, hər bir sahədə milli kadr ehtiyatı yaratmaq, xalqı bugünkü müstəqilliyə hazırlamaq olmuşdur. Həmin dövrdə qazandığı nailiyyətlər sayəsində Azərbaycan keçmiş ittifaqda öz hesabına yaşayan iki respublikadan biri olmuşdur. Ulu öndər hərtərəfli sosial-iqtisadi inkişafın mühüm amili kimi elektrik enerjisi sistemini hər zaman diqqətdə saxlamış, onun gücləndirilməsi, təkmilləşdirilməsi üçün bütün zəruri tədbirləri görmüşdür.

Ötən əsrin 70-ci illərinin sonlarında respublikanın elektrik stansiyaları 15,4 mlrd. kVt-saat elektrik enerjisi istehsal edirdi. Sürətli inkişafda olan iqtisadiyyatın durmadan artan tələbatı Azərbaycanı qonşu respublikalardan 3-3,5 mlrd. kVt-saat elektrik enerjisi idxal etmək məcburiyyətində qoyurdu. Bu çatışmazlığı aradan qaldırmaq üçün tez bir zamanda Şəmkir SES-in və "Azərbaycan" İstilik Elektrik Stansiyasının (İES) inşasına başlamaq üçün ulu öndər Heydər Əliyev keçmiş SSRİ hökumətinin rəhbərləri ilə danışıqlar apararaq bu stansiyaların tikintisinə razılıq almağa nail olmuşdur. Qırx il əvvəl tikilib istifadəyə verilmiş "Azərbaycan" İES, həmçinin 1971-ci ildə inşa edilimiş "Araz" Su Elektrik Stansiyası (SES), 1982-ci ildə istimara verilmiş "Şəmkir" SES indi də müstəqil dövlətimizin xidmətindədir.

Əgər 1969-cu ildə Azərbaycan elektrik enerjisi idxal edən respublika idisə, 1982-ci ildə artıq elektrik enerjisi ixracatçısına çevrilmişdi.

Həmin dövrdə elektrik stansiyalarının inşası ilə yanaşı, elektrik şəbəkələri də sistematik inkişaf etdirilmiş və respublikamızın dayanıqlı enerji sistemi yaradılmışdır. 330 kV-luq "Şirvan İES-Ağdam-Gəncə-Ağstafa", "Şirvan İES-Yaşma-Dərbənd", 220 kV-luq iki "Şirvan-Xırdalan" yüksək gərginlikli xətləri, həmçinin 330 kV-luq "Yaşma", "Gəncə" və "Ağstafa" qovşaq yarımstansiyaları inşa edilib istismara verilmişdir. "Azərbaycan" İES-in inşası respublikanın enerji şəbəkəsinin inkişafında yeni mərhələnin başlanğıcı olmuş, nəticədə 500 kV-luq 1-ci və 2-ci "Abşeron", 330 kV-luq 4-cü və 5-ci "Mingəçevir" və s. elektrik verilişi xətləri çəkilmiş, 1980-ci illərdə, həmçinin 500 kV-luq "Abşeron", 330 kV-luq "İmişli", 220 kV-luq "Hövsan", "Nizami", "Müşfiq", "Səngəçal", "Masallı", "Ağsu", "Babək" qovşaq yarımstansiyaları istismara verilmişdir.

Bununla belə, ölkəmizin müstəqillik yollarında üzləşdiyi çətinliklər vaxtilə elektrik enerjisi sektorunda da özünü göstərmişdir. Dövlət müstəqilliyinin bərpasından əvvəlki və sonrakı bir neçə ildə siyasi rəhbərliyin naşı və səriştəsiz şəxslərin əlinə keçməsi enerjisistemin mövcud potensialının zəiflədilməsi, generasiya güclərinin, ötürücü və paylayıcı şəbəkələrin istismar vəziyyətinin hədsiz dərəcədə pisləşməsi ilə nəticələnmişdi. Yalnız vətənpərvər energetiklərin öz peşələrinə sədaqəti və səylə çalışması sayəsində enerjisistemin tamamilə çökməsinin qarşısı alınmış və ulu öndər Heydər Əliyevin respublikada siyasi hakimiyyətə qayıdaraq, müstəqil dövlət quruculuğuna başlamasından sonra bu sistemin bərpası, mövcud potensialın təkmilləşdirilməsi, yarımçıq qalmış və yeni layihələrin icrası mümkün olmuşdur.

Xüsusən yeni neft strategiyasının həyata keçirilməsi, Xəzərdəki neft-qaz yataqlarının işlənməsi üzrə "Əsrin müqaviləsi"nin imzalanması, ölkəmizə beynəlxalq etimadın göstərilməsi və xarici sərmayələrin gəlməsi elektrik energetikası sektoruna təsirsiz qalmadı. Respublikanın sosial-iqtisadi dirçəlişində bu sektorun strateji əhəmiyyət daşıdığını yaxşı bilən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə xarici sərmayələrin cəlb edilməsi nəticəsində mövcud elektrik stansiyalarının yenidən qurulması və modernləşdirilməsi layihələri icra edildi, müstəqil dövlətimizin enerji təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər müəyyənləşdirildi. İlk növbədə, köhnə elektrik stansiyalarının yenidən qurulması və yenilərinin inşa edilməsi ilə enerjisistemin generasiya imkanları artırıldı. Hələ sovet hakimiyyəti dövründə inşasına başlanmış 150 MVt gücündə Yenikənd SES-in tikintisinin yekunlaşdırılması və istismara verilməsi, Bakı İEM-də 2 müasir qaz turbininin quraşdırılması və 107 MVt həcmində yeni generasiya gücünün yaradılması, 400 MVt gücündə "Şimal" ES-in inşa edilib işə salınması məhz ulu öndər Heydər Əliyevin apardığı xarici siyasət sayəsində dünyanın qabaqcıl dövlətlərinin və beynəlxalq maliyyə qurumlarının Azərbaycana göstərdiyi dəstəyin nəticəsində mümkün oldu. İri beynəlxalq bankların kreditləri ilə yanaşı, dövlət büdcəsindən ayrılan maliyyə vəsaitləri hesabına elektrik enerjisi sektorunun maddi-texniki bazası yeniləşdirildi. Bununla yanaşı, enerjisistemin idarəçliyinin yeni iqtisadi münasibətlərin tələblərinə uyğun qurulması üçün mövcud dövlət şirkətinin bazasında səhmdar cəmiyyət təsis edildi, onun səmərəli fəaliyyəti üçün lazımi şərait yaradıldı.

1993-2003-cü illərdə məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində enerjisistemin qarşısında duran bir çox məsələlər öz həllini tapmışdır. Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə enerjisistemin dirçəldilməsi istiqamətində görülən işlər nəticəsində 700 MVt-dan artıq yeni generasiya gücü yaradılıb istifadəyə verilmişdir.

Möhkəm bünövrə üzərində qurulmuş Azərbaycan dövləti bu gün cənab İlham Əliyevin rəhbərliyi ilə davamlı inkişaf yolundadır. Bu inkişafı təmin edən xalq-iqtidar birliyidir. Aprelin 11-də keçirilmiş prezident seçkilərində cənab İlham Əliyevin qələbəsi bir daha göstərdi ki, Azərbaycan xalqı Heydər Əliyev ideyalarına sadiqdir, bu ideyaları ardıcıllıqla və qətiyyətlə həyata keçirən lider kimi cənab İlham Əliyevi tam dəstəkləyir.

Ulu öndərin başladığı işlər, bütün sahələrdə olduğu kimi, elektrik energetikası sektorunda da uğurla davam etdirilir. Cənab Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə son 15 ildə ölkə daxilində enerji təminatı əsaslı şəkildə yaxşılaşdırılmış, böyük infrastruktur layihələri icra edilmişdir. Özünün andiçmə mərasimində bu barədə danışarkən cənab Prezident son 15 il ərzində 30-dan çox elektrik stansiyasının tikildiyini, onların generasiya gücünün 3900 meqavata bərabər olduğunu qeyd etdi və bildirdi ki, hazırkı ümumi generasiya gücümüz təqribən 6,5 min meqavat təşkil edir ki, onun da 3,9 min meqavatı 15 il ərzində yaradılmış, Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdir.

Bu nailiyyətlər enerjisistemdə Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə başlanmış, müasir və innovativ texnologiyaların tətbiqi ilə əlamətdar olan, sürətli iqtisadi yüksəlişin tələbatını ödəməyə istiqamətlənmiş yeni inkişaf mərhələsinin diqqətəlayiq nəticələridir. 2003-2017-ci illərdə hər birinin gücü 87 MVt olan "Astara", "Şəki", "Xaçmaz", "Naxçıvan", 105 MVt gücündə "Bakı", "Şahdağ", gücü 300 MVt olan "Səngəçal", 525 MVt gücündə "Sumqayıt", 780 MVt gücündə "Cənub" elektrik stansiyaları, 5 MVt gücündə "Vayxır", 22 MVt gücündə "Biləv", hər biri 25 MVt gücündə "Füzuli", "Taxtakörpü" və "Şəmkirçay", 20,5 MVt gücündə "Arpaçay-1", 3,1 MVt gücündə "Göyçay", 1,4 MVt gücündə "Arpaçay-2", 3,2 MVt gücündə "İsmayıllı", "Balakən" və 3 MVt gücündə "Çiçəkli" stansiyaları istismara verilmişdir. "Azərbaycan" İES-də, Mingəçevir SES Silsiləsində modernləşdirmə istiqamətli əsaslı yenidənqurma işləri həyata keçirilmişdir.

Ötən dövr ərzində "1-ci, 2-ci Mingəçevir EVX-nin yenidənqurulması" layihəsi çərçivəsində gücü 360 MVA olan 220 kV-luq "Ağdaş" yarımstansiyasının (YS), 220 kV-luq ikidövrəli "Mingəçevir SES - AbşeronYS" HX-nin tikintisi və 500 kV-luq "Abşeron" yarımstansiyasında 400 MVA gücündə 3-cü avtotransformatorun quraşdırılması və sxemə qoşulması üzrə işlər başa çatdırılmış, 330 kV-luq "Goranboy" paylayıcı məntəqəsi istifadəyə verilmişdir. 220 kV-luq "Şimal ES-Hövsan YS" hava xəttinin tikintisi, gücü 360 MVA olan 220 kV-luq "Zabrat" yarımstansiyasının inşası, 220 kV-luq ikidövrəli "Şimal ES-Zabrat YS-Sumqayıt ES" hava xəttinin tikintisi layihəsi də icra edilmiş, bu infrastruktur obyektləri şəbəkəyə qoşulmuşdur. Ötürücü infrastrukturun təkmilləşdirilməsi və müasirləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər isə enerjisistemin dayanıqlılığını möhkəmləndirməklə yanaşı, regional əməkdaşlıq və kommersiya əlaqələri üçün texniki imkanların genişləndirilməsinə də şərait yaratmışdır.

Dövlət başçısının rəhbərliyi ilə aparılan mükəmməl iqtisadi siyasət və məqsədyönlü islahatlar nəticəsində elektrik energetikası sektorunda əldə edilən nailiyyətlər nə qədər fərəhləndirici olsa da, qarşıda mühüm və təxirəsalınmaz vəzifələr durur. Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında cənab Prezident bir sıra həlli vacib məsələlərlə bağlı tapşırıqlar da vermişdir.

Bu tapşırıqlardan birincisi "Şimal" Elektrik Stansiyasında ikinci enerji blokunun tikintisinin bu il başa çatdırılması barədədir. Hazırda stansiyada tikinti işlərinin tam başa çatdırılması üçün zəruri tədbirlər həyata keçirilir, tikinti-quraşdırma, sazlama işləri aparılır. Eyni zamanda stansiyanı enerjisistemlə əlaqələndirən 220 kV-luq ikidövrəli elektrik verilişi xətlərinin çəkilişi və s. işlər tam başa çatdırılmışdır. İlin sonuna kimi "Şimal" Elektrik Stansiyası tam gücü ilə istismara veriləcəkdir.

Cənab Prezidentin tapşırığına əsasən, ölkənin inkişaf tempi, əhalinin artımı, sənayeləşmə prosesi nəzərə alınmaqla sonrakı dövrdə generasiya güclərinə tələbatın müəyyənləşdirilməsi mühüm vəzifə kimi qarşıya qoyulmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"ndə növbəti 5-10 il ərzində kifayət qədər elektrik enerjisi təchizatını həyata keçirmək üçün planlaşdırılan investisiyalarla yanaşı, istehsal həcmini 1000 MVt artırmaq məqsədilə investisiya qoyuluşları ediləcəyi nəzərdə tutulmuşdur. Bu investisiyalar hesabına mövcud istehsal gücünün 2015-2020-ci illər arasında 19 faiz artması gözlənilir ki, bu da, istehlakda davamlı sabit artımın olacağı təqdirdə, təhlükəsiz ehtiyat gücünü təmin edəcək səviyyə kimi səciyyələndirilir.

Bu baxımdan, 2020-ci il və ondan sonrakı dövr üçün elektrik enerjisinə olan ehtiyacı ödəmək məqsədilə yeni elektrik stansiyalarının tikintisi və mövcud elektrik stansiyalarında yenidənqurma işlərinin aparılması üzrə layihələrin icrası xüsusi əhəmiyyət kəsb edir. Son illərdə respublikamızda kiçik su elektrik stansiyalarının tikintisi də geniş vüsət almışdır. Artıq yeni tikilən bir neçə su elektrik stansiyası uğurla fəaliyyət göstərir.

Bununla yanaşı, mövcud generasiya güclərinin qorunub saxlanması və təkmilləşdirilməsi, həmçinin istismarda olan avadanlıq və qurğuların cari, planlı və əsaslı təmirlərinin vaxtında həyata keçirilməsi istiqamətində də zəruri tədbirlər həyata keçirilir.

Yeni sənayeləşmə dövrünün başlanması, müasir tipli neft-kimya, nəqliyyat-logistika, gəmiqayırma müəssisələrinin yaradılması, xüsusən Bakıda çoxsaylı tikinti-abadlıq layihələrinin icra edilməsi, müntəzəm olaraq beynəlxalq əhəmiyyətli və irimiqyaslı tədbirlərin keçirilməsi, Sumqayıt şəhərində və Abşeron rayonunda yeni yaşayış, istirahət və turizm komplekslərinin salınması bu regionda elektrik enerjisi təchizatı ilə bağlı bir sıra həlli vacib vəzifələri ortaya çıxarmışdır.

Qarşıdakı dövrdə əsas sənaye mərkəzi kimi Bakı şəhəri və ümumilikdə Abşeron yarımadasında dayanıqlı elektrik təchizatı üçün zəruri infrastruktur da yaradılmalıdır. Bu baxımdan, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "2018-2020-ci illərdə Bakı şəhərində 220 kV-luq üç yarımstansiyanın inşası haqqında" 7 aprel 2017-ci il tarixli sərəncamı mühüm əhəmiyyət kəsb edir. Həmin yarımstansiyaların, onları qidalandıran və Bakı şəhərinin yerli paylayıcı şəbəkələri ilə birləşdirən elektrik verilişi xətlərinin cari ildə inşasına başlanması gözlənilir.

Son illərdə enerjisistemin generasiya imkanlarının artması nəticəsində yaranmış ixrac potensialından səmərəli istifadə edilməsi istiqamətində işlər davam etdirilir və öz müsbət nəticəsini verir. Məlum olduğu kimi, bu günlərdə elektrik enerjisinin alqı-satqısının təmin edilməsi barədə İranla müqavilə imzalanmışdır. Müqaviləyə əsasən, cari ilin iyun ayından etibarən təcrid olunmuş (ada) rejimdə İranın Muğan və Astara bölgələri üçün "Azərenerji" ASC-dən elektrik enerjisinin ixracı prosesinə başlanılacaqdır.

Bundan başqa, "Şimal-Cənub" enerji dəhlizinin yaradılması məqsədilə Azərbaycan-İran-Rusiya, "Şərq-Qərb" enerji dəhlizinin yaradılması məqsədilə Rusiya-Azərbaycan-Gürcüstan və İran-Azərbaycan-Gürcüstan enerji sistemlərinin birləşdirilməsi üzrə məsələlərin həlli istiqamətində də lazımi işlər aparılır.

Hazırda Azərbaycan Türkiyənin elektrik enerjisi bazarında etibarlı tərəfdaş kimi cox əhəmiyyətli bir mövqeyə malikdir. Türkiyəyə elektrik enerjisinin ixracı və onun mütəmadi olaraq artırılması cənab Prezidentin qarşımızda əvvəlki illərdə qoyduğu vəzifələrin icrasının təmin edilməsi ilə bağlı olmuşdur və hazırda bu istiqamətdə işlər davam etdirilməkdədir. Çox əlamətdar bir haldır ki, bu ildən Türkiyə vasitəsilə Yunanıstana elektrik enerjisinin ixracı təmin olunur. Türkiyə vasitəsilə Bolqarıstana elektrik enerjisinin ixracı istiqamətində də artıq danışıqlara başlanmışdır.

Ümid edirik ki, enerjisistemin generasiya gücünün artırılması və ötürücü infrastrukturun modernləşdirilməsi istiqamətində həyata keçirəcəyimiz təxirəsalınmaz tədbirlər bizə, ölkəmizin əlverişli çoğrafi mövqeyindən səmərəli istifadə etməklə, elektrik enerjisi tranziti və ixracı üzrə bölgədə aparıcı rola sahib olmaq imkanı verəcəkdir.

Ulu öndər Heydər Əliyev Azərbaycanda elektrik enerjisi sektorunun kadr potensialının yerli mütəxəssislər hesabına möhkəmləndirilməsinə daim xüsusi diqqət yetirirdi. Müdrik rəhbərimiz 2002-ci ildə Yenikənd SES-in açılış mərasimindəki nitqində keçmiş illəri xatırlayaraq demişdi: "Bilirsiniz, keçmişdə elektrik stansiyalarının, o cümlədən də su elektrik stansiyalarının inşasına, quraşdırma və başqa işlərə adətən Rusiyadan, digər respublikalardan bir çox mütəxəssislər dəvət edilirdi. Belə bir təsəvvür var idi ki, bu işləri onlarsız görmək olmaz... Amma indi bu sahədə də bizim məhz o illərdə əldə etdiyimiz təcrübələr, hazırladığımız kadrlar, elektrik stansiyalarının tikilməsində ixtisaslaşmış inşaatçı kadrlar - quraşdırıcılar, qaynaqçılar, mühəndislər, texniklər - bizim milli kadrlarımız yaranıbdır... İndi bu, bizim ən böyük nailiyyətimizdir". Ulu öndərin bu sahədə də başladığı işlər uğurla davam etdirilir. Son illərdə yerli mütəxəssislərimiz ən mürəkkəb texnologiyalara malik elektroenergetika qurğularının inşasında, quraşdırılmasında və istismar edilməsində yüksək peşəkarlıq göstərirlər.

*Ulu öndər Heydər Əliyev özünəməxsus müdrikliklə Azərbaycanın dünyaya bir günəş kimi doğacağını deyir və ardıcıllarının onun başladığı müstəqil dövlət quruculuğunu uğurla apararaq respublikamızı ən yüksək inkişaf səviyyəsinə yüksəldəcəyinə inanırdı. Bu gün Azərbaycan Heydər Əliyev yolu ilə gedir və bu yol xalqımızı inkişafa, rifaha, qələbələrə aparır!*

**Etibar PİRVERDİYEV,**
***"Azərenerji" ASC-nin prezidenti***

1923 *Azərbaycanın özü qədər əbədi* 2018

Azərbaycanın çağdaş tarixi dünya şöhrətli siyasətçi, dövlət xadimi, ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Ulu öndər müstəqil Azərbaycan dövlətinin qurucusu və bəşəriyyətin yetirdiyi ən böyük şəxsiyyətdir. "Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik" sözlərini tarixə yazmış ulu öndər Heydər Əliyev Azərbaycanın kənd təsərrüfatının inkişafında böyük əhəmiyyət kəsb edən meliorasiya və su təsərrüfatı kompleksinin yaradıcısı, müəllifi və təşkilatçısıdır.



# Azərbaycanın meliorasiya və su təsərrüfatı kompleksinin inkişafındakı uğurlar Heydər Əliyevin uzaqgörənliyi ilə bağlıdır

Böyük rəhbərin respublikanın ağır iqtisadi, siyasi, mənəvi böhran keçirdiyi bir vaxtda,1969-cu ilin iyul ayında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ölkəni işıqlı gələcəyə doğru aparan yolun başlanğıcına çevrildi. Heydər Əliyev təşəbbüskarlığı və işgüzarlığı ilə respublika həyatının bütün sahələrində böyük dirçəlişə nail oldu ki, bu da milli şüurun oyanışı, milli ruhun yüksəlişi və mənəvi tərəqqisi üçün güclü təkan idi.

Keçmiş Sovetlər İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək respublikanı tərəqqi yoluna çıxaran Heydər Əliyev yeni və mütərəqqi sənaye sahələrinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. Həmin illərdə respublikanın bütün bölgələrinin inkişafı, istehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin genişləndirilməsi sahəsində kompleks tədbirlər görülmüş, elmi-texniki tərəqqinin nailiyyətləri, mütərəqqi texnologiyaların istehsalatda tətbiqi Azərbaycanın keçmiş ittifaq miqyasında öncül mövqelərə çıxmasına, ölkənin sosial-iqtisadi həyatında yüksəlişə təkan vermişdir. Ümumilikdə 1970-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü və ciddi səyləri nəticəsində respublikada onlarla zavod, fabrik, istehsalat sahələri yaradılmış, 250-dən çox sənaye müəssisəsi fəaliyyətə başlamışdır. Azərbaycan bir sıra istehsal sahələrinə görə keçmiş sovetlər birliyində aparıcı yer tutmuş, respublikada istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac edilmişdir.

Ulu öndər Azərbaycanın işıqlı və parlaq gələcəyini görür, xalqımızı bu gələcəyə hazırlayır, respublikanın iqtisadi potensialını gücləndirirdi. O illərin canlı şahidi olan orta və yaşlı nəslin nümayəndələrinin yaxşı xatirindədir ki, Azərbaycan bütün sahələrdə sıçrayışa necə sürətlə nail olmuşdur. Sonralar müstəqil dövlət quruculuğuna açılan yol, əslində 1969-cu ildən - Heydər Əliyevin respublika rəhbəri seçildiyi vaxtdan başlanmışdır.

1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçilən Heydər Əliyev heç bir ay keçməmiş Mərkəzi Komitənin avqust plenumunu keçirdi, iqtisadiyyatı bərbad vəziyyətdə olan respublikanı dirçəltmək üçün qarşıda duran vəzifələri müəyyənləşdirdi.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi vaxtdan Azərbaycanın kənd təsərrüfatında, sənayesində, ümumiyyətlə, xalq təsərrüfatının bütün sahələrində xüsusi canlanma başlandı. Kənd təsərrüfatının inkişaf etdirilməsi haqqında bir neçə tarixi qərar qəbul olundu.

1971-1975-ci illərdə meliorasiya işlərinə 580 milyon manatdan artıq vəsait xərcləndi ki, bu da 1966-1970-ci illərdəkinə nisbətən iki dəfə çox idi. Bu müddətdə 23,5 min hektar yeni suvarılan torpaqlar istifadəyə verildi, 156,8 min hektar suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırıldı, 88 min hektar sahədə torpaqların yuyulması, o cümlədən 48 min hektarda əsaslı yuma, 110,3 min hektar sahədə suvarma şəbəkələrinin yenidən qurulması və su təchizatının yaxşılaşdırılması, 133,2 min hektar sahədə hamarlama işlərinin aparılması təmin olundu, 248,6 min hektar qış otlaq sahələrində su təminatı sistemləri inşa edildi.

Bu illər ərzində bir sıra iri irriqasiya və meliorasiya obyektləri, o cümlədən Araz çayı üzərində həcmi 1 milyard 350 milyon kubmetr olan Araz su anbarı elektrik stansiyası ilə birlikdə, İran İslam Respublikası və Azərbaycan Respublikası ərazilərində 400 min hektar sahəni suvaran Mil-Muğan hidroqovşağı, Baş Mil kanalı, Yuxarı Mil və Yeni Xan qızı kanalları, Naxçıvan MR-də 6 min hektar sahəni suvaran üçpilləli Qaraçuq və ikipilləli Arpaçay nasos stansiyaları, Naxçıvan suvarma sistemi, Abşeron suvarma sistemi, Qusar rayonunda Caqar-Cibir magistral kanalı, Şamaxı rayonunda həcmi 3,5 milyon kubmetr olan Zaqolovoçay su anbarı, Lənkərançay su qovşağı, Mərkəzi Muğan və Cənubi-Şərqi Şirvan qış otlaqlarının su təminatı sistemləri və s. obyektlər tikilib istismara verildi.

1976-1982-ci illərdə respublikanın rəhbəri Heydər Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində su təsərrüfatı və meliorasiya tikintisi, torpaq fondunun sağlamlaşdırılması və suvarma-drenaj sistemlərinin yenidən qurulması sahəsində aparılan işlərin miqyası daha da genişləndirildi. Bu illərdə meliorasiya tədbirlərinə yönəldilən vəsaitin həcmi 1971-1975-ci illərdəkinə nisbətən 2,4 dəfə artdı və 1 milyard 382 milyon manata çatdı, 1,2 milyard manata yaxın əsas fondlar işə salındı, 89,6 min hektar yeni suvarılan torpaqlar istifadəyə verildi, 605 min hektar sahədə suvarma sistemləri yenidən quruldu, 137 min hektar torpaq meliorativ cəhətdən yaxşılaşdırıldı, 274,4 min hektar sahədə əsaslı hamarlama işləri aparıldı.

1983-cü ildə kənd təsərrüfatında faktiki istifadə olunan suvarılan torpaqların sahəsi 1970-ci ildəkinə nisbətən 265,1 min hektar artmış, eyni zamanda istifadə olunmayan suvarılan torpaqların sahəsi 89,7 min hektara qədər azalmışdır.

Hazırda "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti tərəfindən ümumi sututumu 22 milyard kubmetr olan 138 su anbarından istifadə edilir, 19 hidroqovşaq, 51800 km suvarma kanalı, 31700 km kollektor-drenaj şəbəkəsi, 1004 nasos stansiyası, 131 min müxtəlif hidrotexniki qurğu, 7279 subartezian quyusu, 2073 km-dən artıq sel və daşqınlardan mühafizə bəndi, 1025 min ha qış otlaq sahələrinin su təminatına xidmət edən digər mühüm dövlət əhəmiyyətli su təsərrüfatı sistemləri və qurğuları istismar olunur. Onların sırasında Ağstafaçay, Arpaçay, Xanbulançay və s. su anbarları, Mil-Muğan, Bəhrəmtəpə, Samurçay hidroqovşaqları, Samur-Abşeron, Yuxarı Qarabağ, Yuxarı Şirvan, Cənubi Muğan magistral kanalları, Baş Mil-Muğan, Baş Şirvan, Mil-Qarabağ, Aşağı Şirvan magistral kollektorları, Tovuz, Şəmkir, Cənubi Muğan nasos stansiyaları, başqa vacib irriqasiya və meliorasiya sistemləri və qurğuları vardır.

1987-ci ildən sonra respublikanın iqtisadiyyatında yaranmış ağır vəziyyətlə əlaqədar büdcə vəsaitinin çatışmazlığı üzündən dövlət əhəmiyyətli sistemlərin istismarında ciddi çətinliklər yaranmış, bir sıra mühüm əhəmiyyətli su təsərrüfatı kompleksləri qəza vəziyyətinə düşmüşdür. Tikinti işləri demək olar ki, dayandırılmışdı. Meliorasiya və su təsərrüfatının maddi-texniki bazası xeyli zəifləmişdi.

Ulu öndər Heydər Əliyevin1993-cü ildə yenidən hakimiyyətə qayıdışı ilə meliorasiya və su təsərrüfatı öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Bu sahəyə diqqət və dövlət qayğısı bərpa olundu, mövcud meliorasiya potensialının dağılmasının qarşısı alındı, ondan daha səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Azərbaycanda mövcud meliorasiya potensialı qorunub saxlanıldı. Sahənin normal fəaliyyətini təmin etmək məqsədilə kompleks tədbirlərin işlənib həyata keçirilməsi və islahatların sürətləndirilməsi vacib qərar alındı. Buna görə də, ilk növbədə meliorasiya və su təsərrüfatı sahəsində islahatların əsas məqsədi və vəzifələri müəyyənləşdirildi.

Aqrar islahatının bir hissəsi olaraq meliorasiya və su təsərrüfatı sahəsində islahatların torpaq islahatı ilə birlikdə, kompleks şəkildə aparılması nəzərdə tutuldu. İslahatların normativ hüquqi bazası yaradıldı. Bu məqsədlə 30-dan artıq normativ hüquqi sənəd təsdiqləndi. Bu sənədlərdən ən mühümü ümummilli lider tərəfindən 1996-cı ildə imzalanmış "Meliorasiya və irriqasiya haqqında" Azərbaycan Respublikasının Qanunu və onun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1996-cı il tarixli fərmanıdır. Bu qanunla meliorasiya və irriqasiya sahəsində fəaliyyətin əsas istiqamətləri və prinsipləri, meliorasiya və irriqasiya obyektlərinin mülkiyyət hüququ müəyyənləşdirildi. Qanun meliorasiya və irriqasiya sahəsində dövlət idarəçiliyinin əsaslarını, meliorasiya və irriqasiya tədbirlərinin aparılma qaydalarını müəyyən etdi.

Ulu öndərin göstərişlərini əsas tutaraq respublikaya qoyulan xarici investisiyalar ilk növbədə meliorasiya və su təsərrüfatı sahəsinə yönəldildi. Xarici investisiyaların səmərəliliyini təmin etmək məqsədilə tikintisi yarımçıq qalmış 150 obyektdən respublika üçün mühüm əhəmiyyət kəsb edən 11 obyekt seçildi və onlardan iqtisadiyyatımız üçün ən vacib olan üç obyektin - Baş Mil-Muğan kollektorunun tikintisinin, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasının və Naxçıvan Muxtar Respublikasında Vayxır su anbarının tikintisinin birinci növbədə maliyyələşdirilməsi qərara alındı.

Ümummilli lider Heydər Əliyevə İslam dünyasının böyük hörmətinin və ehtiramının rəmzi olaraq, İslam İnkişaf Bankının rəhbərliyi Baş Mil-Muğan kollektorunun tikintisinin davam etdirilməsinə güzəştli kredit və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması sxeminin hazırlanmasına əvəzsiz olaraq vəsait ayırdı. İslam İnkişaf Bankının krediti və respublika büdcəsindən ayrılan vəsait hesabına 1998-ci ildə kollektorun tikintisinin davam etdirilməsinə başlanıldı və 2000-ci ilin noyabr ayında kollektorun 52,7 kilometr uzunluğunda 2-ci buraxılış kompleksinin tikintisi yüksək keyfiyyətlə başa çatdırılaraq istismara qəbul olundu.

Heydər Əliyevin yaxından köməyi sayəsində Dünya Bankının krediti ilə 2003-cü ildə Baş Mil-Muğan kollektorunun 28,5 kilometr uzunluğunda 3-cü buraxılış kompleksinin tikintisinə başlanılmışdır. Baş Mil-Muğan kollektorunun istismara verilməsi 500 min hektar suvarılan torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına və onun əhatə etdiyi ərazidə kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına şərait yaratmışdır.

Samur-Abşeron suvarma sistemi ölkəmizin şimal bölgəsinin, eləcə də Bakı-Sumqayıt şəhərlərinin və Abşeron yarımadasının yaşayış məntəqələrini, kənd təsərrüfatı və sənaye müəssisələrini içməli, suvarma və texniki su ilə təmin edən irimiqyaslı kompleks su təsərrüfatı obyektidir. Hazırda bu sistem respublikanın şimal bölgəsinin 150 min hektara yaxın torpaq sahəsinin suvarma suyuna və Bakı, Sumqayıt şəhərlərinin, habelə Abşeron yarımadasının içməli, suvarma və texniki suya olan tələbatının 60 faizini təmin edir.

Uzun müddət ərzində suya daim artan ehtiyacı ödəmək məqsədilə Samur-Abşeron magistral kanalı fasiləsiz olaraq, əsaslı təmirə dayanmadan istismar olunurdu. Bunun nəticəsində kanalın beton örtüyü dağılıb hissə-hissə sıradan çıxmış, qurğuların bir hissəsi funksiyasını itirmiş, su itkisi artmışdır. Heydər Əliyevin tapşırığına əsasən bu problemin həlli yolları araşdırılmış və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması ilə bağlı təxirəsalınmaz tədbirlərin işlənib həyata keçirilməsi təklif olunmuşdur. Sxemin birinci mərhələsində Samur çayı üzərində baş sugötürücü qurğunun və Samur-Abşeron kanalının Vəlvələçaya qədər olan hissəsinin yenidən qurulması, Xanarx kanalının, Vəlvələçay-Taxtakörpü, Taxtakörpü-Ceyranbatan kanallarının və Taxtakörpü su anbarının tikintisi nəzərdə tutulurdu. İqtisadi səmərəlilik nöqteyi-nəzərindən bu layihə çox sərfəlidir. Təkcə suyun öz axını ilə Ceyranbatan gölünə ötürülməsi nəticəsində Sitalçay və Ceyranbatan nasos stansiyalarının ləğv edilməsi ilə ildə 167 milyon kilovat/saat elektrik enerjisinə qənaət edilməsi mümkün olacaqdır.

Vayxır su anbarının inşasına 1983-cü ildə başlanılmış, lakin 1995-ci ildən maliyyə vəsaitinin olmamasına görə tikinti işləri yarımçıq dayandırılmışdır. Ulu öndər Heydər Əliyev 2002-ci ildə Naxçıvan Muxtar Respublikasında olarkən onun su anbarının istismara verilməsi barədə göstərişindən sonra dövlət büdcəsindən ayrılmış vəsait hesabına Türkiyənin tikinti şirkətləri tərəfindən bu obyektin tikintisi başa çatdırılmışdır.

Çox böyük fəxr ilə qeyd etmək olar ki, Azərbaycan dövlətinin yaradıcısı Heydər Əliyevin siyasi xətti və ideyaları möhtərəm Prezident İlham Əliyev tərəfindən layiqincə və müvəffəqiyyətlə davam etdirilir. Azərbaycanda müstəqil, demokratik, hüquqi dövlət quruculuğu sahəsində, iqtisadiyyatın yenidən qurulmasında, inkişaf yoluna çıxmasında, milli adət-ənənələrin qorunub saxlanılmasında və digər istiqamətlərdə böyük nailiyyətlər əldə olunur.

Azərbaycan son 15 il ərzində böyük və şərəfli yol keçmişdir. Ölkəmiz bütün sahələrdə böyük uğurlara imza atmışdır. Beynəlxalq nüfuzu yüksələn ölkəmizdə aparılan siyasi-iqtisadi islahatlar dünya birliyi tərəfindən yüksək qiymətləndirilir. Bütün beynəlxalq mötəbər qurumların reytinqlərində Azərbaycan qabaqcıl yerlərdədir. Ölkəmizdə təhlükəsizlik, sabitlik təmin edilib.

Bu illərdə "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyəti tərəfindən meliorasiya və irriqasiya sistemlərinin normal istismarının təşkili, tələb olunan həcmlərdə təmir-bərpa işlərinin görülməsi, suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılması, sel və daşqın sularına qarşı mübarizə işlərinin davam etdirilməsi və digər sahələrdə müvafiq tədbirlər həyata keçirilmişdir.

Bütün maliyyə mənbələri hesabına 2004-2017-ci illərdə 4,0 min kilometr uzunluğunda suvarma kanallarının, 2,4 min km uzunluğunda kollektor-drenaj şəbəkələrinin tikintisi, yenidənqurulması və bərpası, 360 min hektar sahədə torpaqların su təminatının və 256 min hektar sahədə meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri yerinə yetirilmiş, 127 min hektar yeni suvarılan torpaq sahələri əkin dövriyyəsinə daxil edilmişdir. Mövcud torpaq mühafizə bəndlərinin 800 km-dən artıq hissəsi əsaslı surətdə hündürlənmiş və möhkəmləndirilmiş, çaylarda sel və daşqınlara qarşı 183 kilometrdən artıq mühafizə tədbirləri həyata keçirilmiş, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 1959 ədəd subartezian quyusu qazılaraq istifadəyə verilmişdir. Ümumi sututumu 456 milyon kubmetr olan 4 nəhəng su anbarı (Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə) tikilmiş, eləcə də ümumi sututumu 15,5 milyon kubmetr olan 3 su anbarı isə (Pirsaatçay, Zaqolovoçay, Ləvain) təmir-bərpa edilmiş, suvarma və kollektor-drenaj şəbəkələrində 671 milyon kubmetr həcmində lildən təmizləmə işləri görülmüş, 73 min ədəd hidrotexniki qurğu təmir edilmiş, 400-dən artıq nasos stansiyaları əsaslı surətdə təmir-bərpa edilmiş, çay məcralarında 183 milyon kubmetr həcmində məcratəmizləmə və nizamlama işləri yerinə yetirilmiş, 250 min kubmetr həcmində şax-daş, faşın-qamış və qabion bəndlər quraşdırılmış, daş-beton bəndlərdə 295 min kubmetr həcmində təmir işləri görülmüşdür.

Respublikanın 8 rayonunda içməli su təchizatı və kanalizasiya sistemləri infrastrukturunun bərpası və tikintisi işləri davam etdirilmiş, Ağsu, İsmayıllı, Siyəzən, Şabran, Cəlilabad, Lerik və Masallı rayonlarında içməli su və kanalizasiya xətlərinin tikintisi başa çatdırılmış, Yardımlı rayonunda isə bu işlər davam etdirilmişdir.

"Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsinə daxil olan Xanarx kanalının tikintisi 2006-cı ildə, Samur çayı üzərində yerləşən Baş Suqəbuledici qurğunun bərpası, Samur çayı yaxınlığında Baş sudurulducunun tikintisi, Samur-Abşeron kanalının ilk 50 kilometrlik hissəsinin və bu hissədə yerləşən uzunluğu 185,7 km olan təsərrüfatlararası kanalların yenidənqurulması işləri 2007-ci ildə başa çatdırılmışdır. Respublikanın 500 min hektar suvarılan sahələrindən duzlu qrunt sularının Xəzər dənizinə axıdılmasını təmin edən Baş Mil-Muğan kollektorunun 3-cü hissəsinin tikintisi 2006-cı ildə başa çatdırılaraq Mil-Qarabağ kollektoru ilə birləşdirilmişdir.

Samur-Abşeron kanalının 50-ci km-dən suyun Taxtakörpü su anbarına verilməsi məqsədilə 2008-ci ildə tikintisinə başlanılmış uzunluğu 32 km olan Vəlvələçay-Taxtakörpü kanalının, ümumi sututumu 268,4 milyon kubmetr olan Taxtakörpü su anbarının (ümumi gücü 25 MVt olan Su Elektrik Stansiyası ilə birlikdə) və uzunluğu 108 km-ə yaxın olan Taxtakörpü-Ceyranbatan kanalının tikintisi işləri 2013-cü ildə başa çatdırılmışdır. Eyni zamanda ilk mərhələdə Qusarçay, Qudyalçay və Caqacuqçay çayları üzərində sugötürücü qurğuların və nəqledici kanalların tikintisinin başa çatdırılması ilə Samur-Abşeron kanalına əlavə su verilməsi təmin edilmişdir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda respublikanın 50 rayon və 3 şəhərində həyata keçirilməsi nəzərdə tutulan meliorasiya-irriqasiya, eləcə də sel və daşqınlara qarşı mübarizə tədbirləri əvvəlki illərdə olduğu kimi, uğurla davam etdirilərək dörd il ərzində 223 min hektar suvarılan torpaqların su təminatı və 82 min hektar sahədə torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmış, 103 min hektar yeni suvarılan sahələr kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, sel və daşqınlara qarşı 17 km-ə yaxın sahilbərkitmə işləri həyata keçirilmişdir. Eyni zamanda əkin sahələrinin suvarma və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün istifadəyə verilmiş 1067 ədəd subartezian quyusunun 1000 ədədi proqramın icrası dövründə möhtərəm Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ayrılmış vəsait hesabına həyata keçirilmişdir.

Ölkəmizin su təhlükəsizliyi sahəsində strateji əhəmiyyətə malik olan Taxtakörpü su anbarının istifadəyə verilməsi nəticəsində son illərdə yay mövsümündə Samur sərhəd çayında su ehtiyatlarının kəskin azalmasına baxmayaraq, anbarda toplanan su hesabına Bakı şəhərinin və Abşeron yarımadasının əhali, sənaye və kənd təsərrüfatı üzrə su təminatında yarana biləcək çətinliklərin qarşısının alınması mümkün olmuşdur.

Proqramın icrası müddətində Xızı və Siyəzən rayonlarında layihə üzrə nəzərdə tutulan 16581 hektar yeni suvarılan sahələr suvarma suyu ilə təmin edilmiş və 8135 hektar sahənin su təminatı yaxşılaşdırılmışdır. Şabran rayonunda isə 2017-ci ildə 5189 hektar yeni suvarılacaq torpaqlar meliorativ tədbirlər aparılaraq istifadəyə verilmiş və 5066 hektar əkin sahələrinin su təminatı yaxşılaşdırılmışdır. Taxtakörpü su anbarı zonasında ümumilikdə nəzərdə tutulan 30 min hektara yaxın yeni suvarılacaq torpaqlardan 2017-ci ilin sonuna görülmüş meliorativ tədbirlər nəticəsində 22 min hektarı aqroparklar və iri təsərrüfatlar tərəfindən əkin dövriyyəsinə cəlb edilmişdir. Eyni zamanda "Şabran Aqropark"a məxsus 1738 ha torpaq sahəsi suvarma suyu ilə təmin edilmiş və bu torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri davam etdirilmişdir.

15 noyabr 2014-cü ildə möhtərəm Prezident İlham Əliyevin iştirakı ilə açılış mərasimi keçirilmiş Şəmkirçay su anbarı zonasında 2015-ci ildə əkin sahələrini suvarma suyu ilə təmin edəcək 60,5 km uzunluğunda magistral kanalların tikintisi işləri başa çatdırılmış, Şəmkir, Samux və Göygöl rayonlarının 35 min hektara yaxın əkin sahələrinin su təminatı yaxşılaşdırılmışdır. Şəmkir və Göygöl rayonlarının 4 min hektar, eləcə də "Şəmkir Aqropark"ın 543 hektar yeni suvarılan sahələri su ilə təmin edilmişdir.

Şəmkirçay su anbarından Şəmkir və Göygöl rayonlarının əkin sahələrinə suvarma suyunun verilməsi üçün paylayıcı kanalların, eləcə də Goranboy rayonunun əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə uzunluğu 27,9 km olan Şəmkir-Samux-Goranboy suvarma magistral kanalının 2-ci növbəsinin tikintisinə başlanılmışdır. Kanalın İpək yoluna qədər olan 8,5 km-lik hissəsi tamamlanaraq Samux və Goranboy rayonlarının 8000 hektar (ondan 980 hektarı yeni suvarılacaq torpaqlardır) sahəsinə suvarma suyu çatdırılmışdır. Goranboy rayonunun daha 18 min hektardan çox sahəsinə suyun çatdırılması üçün kanalda tikinti işləri davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 19 avqust 2017-ci il tarixində Samux və Goranboy rayonlarının əkin sahələrinə suvarma suyunun verilməsi mərasimlərində iştirak etmişdir.

Sovetlər birliyi dövründən tikintisi yarımçıq qalmış Tovuz və Şəmkir rayonlarının 20000 hektara yaxın əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına və yeni suvarılacaq torpaqların istifadəyə verilməsinə imkan yaradan və ümumi sututumu 20 milyon kubmetr olan Tovuzçay su anbarının inşası 2016-cı ildə başa çatdırılmışdır.

Sabirabad rayonu ərazisində "H" kanalının 7,8 km hissəsinin beton məcrada qurğularla birlikdə tikintisi 2017-ci ilin 1 may tarixinə başa çatdırılmışdır. Bununla 1-ci mərhələdə 4 min ha əkin sahələrinin su təminatı yaxşılaşdırılmış və 200 ha yeni suvarılan torpaq sahəsi suvarma suyu ilə təmin edilmişdir. Eyni zamanda Sabirabad rayonunun qış otlaqlarında 1-ci mərhələdə 5000 ha yeni torpaq sahəsinə, eləcə də Yuxarı Mil kanalında tikinti işləri davam etdirilərək Ağcabədi rayonunda 2700 ha sahəyə suvarma suyu çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 24 sentyabr 2017-ci il tarixində Neftçala magistral kanalında görülən işlərlə tanış olmuş və Kür çayından birinci mərhələdə rayonun 7770 ha yeni suvarılacaq və 970 ha mövcud əkin sahələrinə su verilməsi mərasimində iştirak etmişdir.

Aqroparkların və iri təsərrüfatların yaradılması məqsədilə 2017-ci ildə Araz çayının yeni qolu vasitəsi ilə Saatlı (24325 ha), İmişli (5812 ha) və Biləsuvar (9356 ha) rayonlarının 39493 ha qış otlaq sahələrinin suvarma suyu ilə təmin edilməsi üçün 54,2 km uzunluğunda torpaq məcralı kanalın tikinti işləri üzərindəki hidrotexniki qurğularla birlikdə tamamlanmışdır. Goranboy və Samux rayonlarında yaradılan aqroparkların 4700 ha sahəsinə Şəmkir-Samux-Goranboy suvarma magistral kanalından suvarma suyunun çatdırılması üçün birinci mərhələdə 12,1 km suvarma boru kəmərinin və həcmi 100 min kubmetr olan beton üzlüklü su hovuzunun tikintisi başa çatdırılmışdır. Şabran rayonu ərazisində "Şabran Aqropark" MMC-yə məxsus 1740 ha sahəyə suvarma suyunun verilməsi üçün tutumu 150 min kubmetr olan beton üzlüklü su hovuzunun tikintisi tamamlanmış, hazırda bu torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün işlər davam etdirilir. Qax rayonunda yaradılan aqroparka məxsus 1550 ha torpaq sahəsinin birinci mərhələdə 665 ha ərazisinə suvarma suyu çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin 400 ha əkin sahəsinə Araz çayından suvarma suyunun verilməsi üçün nasos stansiyasının, təzyiqli boru kəmərinin tikintisi aparılmışdır.

Respublika iqtisadiyyatının inkişafında böyük əhəmiyyət kəsb edəcək daha bir nəhəng infrastruktur layihənin Yuxarı Şirvan kanalının yenidənqurulmasının xarici məsləhətçilər cəlb edilməklə ilkin texniki-iqtisadi əsaslandırma sənədləri hazırlanmışdır. Şirvan zonasına yeni həyat verəcək bu layihə 10 rayonun 125 min hektardan çox əkin sahələrinin su təminatının yaxşılaşdırılması və 106 min hektar yeni suvarılan torpaqların dövriyyəyə verilməsi ilə ümumilikdə 231 min hektar torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsi, eləcə də regionda ekoloji mühitin yaxşılaşdırılması və Hacıqabul gölündə yaranmış təhlükəli ekoloji vəziyyətin qarşısının alınması imkanlarını yaradacaqdır. Hazırda beynəlxalq məsləhətçi şirkətlər cəlb edilməklə işçi layihə və tender sənədlərinin hazırlanması işləri davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev tərəfindən regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda cəmiyyətin kollektivi qarşısında suvarılan torpaqların 2018-ci ildə daha 100 min hektar artırılması ilə ixracyönümlü kənd təsərrüfatı məhsullarının inkişafı istiqamətində müəyyən edilmiş hədəflərə nail olunması üçün mühüm vəzifələr qoyulmuşdur.

2018-ci ildə də böyüklüyünə və kənd təsərrüfatına təsirinə görə xüsusi rola malik olan Taxtakörpü və Şəmkirçay su anbarları zonalarında magistral və paylayıcı suvarma kanallarının tikintisi işləri davam etdiriləcəkdir. Şəmkir-Samux-Goranboy magistral kanalının İpək yolu ilə kəsişmə qurğusunda və ondan sonra kanalın 5 km-ə qədər hissəsində tamamlama işləri başa çatdırılaraq Goranboy rayonunda 8000 hektar sahəyə suvarma suyu çatdırılacaqdır. Taxtakörpü su anbarı zonasında isə Şabran rayonunda meliorativ tədbirlər davam etdirilərək 12 min hektar, o cümlədən 5 min hektara yaxın yeni torpaqlar istifadəyə veriləcək və 7 min hektar əkin sahələrinin su təminatı yaxşılaşdırılacaqdır. Eyni zamanda Şabran rayonunda 7 min hektara yaxın torpaq sahəsinin meliorativ vəziyyətinin yaxşılaşdırılması üçün kollektor-drenaj şəbəkələrinin tikintisi işləri yerinə yetiriləcəkdir.

Goranboy və Qax rayonlarında yaradılmış aqroparklara məxsus torpaq sahələrində meliorativ tədbirlər davam etdirilərək bu torpaqlara suvarma suyunun çatdırılması, ötən ildə suvarma suyu çatdırılmış Şabran rayonunda yaradılacaq aqroparka məxsus 1740 hektar sahədə isə torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması işləri başa çatdırılacaqdır. Şəki və Oğuz rayonlarında 12 min hektar sahədə yaradılacaq aqroparka məxsus torpaq sahələrinə suvarma suyunun çatdırılması üçün layihə sənədlərini tamamlamaqla yaxın günlərdə Türyançay çayında nasos stansiyasının və təzyiqli boru kəmərinin tikintisi işlərinə başlanılacaqdır. Xəzər, Pirallahı və Xızı rayonlarında zeytun və badam bağları salınacaq 5000 hektar sahənin 2400 hektarında tikinti işləri başa çatdırılaraq suvarma suyu ilə təmin ediləcəkdir. Eyni zamanda Neftçala və Yuxarı Mil kanallarının tikintisi davam etdirilərək Neftçala rayonunun 12433 hektar əkin sahəsinin su təminatı yaxşılaşdırılacaq, Ağcabədi rayonunda isə 1900 hektar yeni torpaq sahələrinə suvarma suyu çatdırılacaqdır.

Ötən il torpaq məcrada inşa olunmuş 54 km uzunluğunda Araz çayının Yeni qolunun cari ildə beton üzlüyə alınması ilə Saatlı, Biləsuvar və İmişli rayonlarında daha 13 min hektardan çox yeni torpaq sahələrinə suvarma suyunun verilməsi mümkün olacaqdır.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə bitişik Füzuli rayonunun Mirzənağılı və Qazaxlar kəndlərinin 280 ha əkin sahəsinə Araz çayından suvarma suyu verilməsi üçün nasos stansiyasının, təzyiqli boru kəmərinin tikintisi davam etdirilərək bu torpaqlar suvarma suyu ilə təmin ediləcəkdir.

Respublikanın içməli su təchizatı və kanalizasiya sistemləri infrastrukturunun bərpası üzrə 8 rayonda cari ildə çirkab su təmizləyici qurğuların tikintisi ilə layihə üzrə nəzərdə tutulan işlər başa çatdırılacaqdır.

Respublikanın 38 şəhər və rayonunun 248 yaşayış məntəqəsində 8740 hektar əkin sahəsinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, yeni suvarılacaq torpaqların suvarma suyuna, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün 300 ədəd subartezian quyuları cari ildə qazılaraq istifadəyə veriləcəkdir. Eyni zamanda Yuxarı Şirvan kanalının yenidən qurulmasının işçi layihə və tender sənədlərinin hazırlanması işləri davam etdiriləcəkdir.

2018-ci ildə kənd təsərrüfatının inkişafına bilavasitə təsir edən bu iri infrastruktur layihələrində nəzərdə tutulan meliorativ tədbirlərin həyata keçirilməsi nəticəsində yeni suvarılacaq torpaqların istifadəyə verilməsi və əkin sahələrinin su təminatının yaxşılaşdırılması nəticəsində ölkədə ixracyönümlü kənd təsərrüfatı məhsullarının inkişafına geniş imkanlar yaranacaqdır.

2018-ci ildə respublika üzrə 1447,0 min hektar sahədə kənd təsərrüfatı bitkilərinin suvarma suyu ilə təmin edilməsi nəzərdə tutulmuşdur. Bunun üçün cari ildə suvarma sistemlərində və kollektor-drenaj şəbəkələrində 62,0 mln kubmetr həcmində lildən təmizləmə işlərinin görülməsi, 5900 hidrotexniki qurğunun, 156 subartezian quyusunun, 270 nasos və mühərrikin təmir edilməsi nəzərdə tutulmuşdur. Bununla yanaşı, çay məcralarında 10,3 mln kubmetr həcmində məcratəmizləmə işləri aparılacaq, 10 min kubmetr şax-daş, faşın və qabion bəndlər quraşdırılacaq, torpaq mühafizə bəndlərində 6300 min kubmetr həcmində möhkəmləndirmə işləri, 2800,0 kubmetr həcmində daş və beton məmulatları ilə sahilbərkitmə işləri və daş-beton bəndlərdə 18 min kubmetr həcmində təmir işləri yerinə yetiriləcəkdir.

Möhtərəm Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə respublikamızda pambıqçılığın, taxılçılığın, baramaçılığın, tütünçülüyün, üzümçülüyün, sitrus meyvələrinin və digər kənd təsərrüfatı məhsulları istehsalının inkişaf etdirilməsi ilə əlaqədar təsdiq edilmiş dövlət proqramları və tədbirlər planlarında, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində meliorasiya və su təsərrüfatı sahəsi üzrə geniş tədbirlər nəzərdə tutulmuşdur. Bu tədbirlərin həyata keçirilməsi ilə suvarılan torpaqların su təminatının və meliorativ vəziyyətinin yaxşılaşdırılmasına, yeni suvarılan torpaqların istifadəyə verilməsi nəticəsində ölkə əhalisinin daxili istehsal hesabına çörək və ərzaq məhsulları ilə etibarlı təminatına, yaşayış məntəqələrinin, əkin sahələrinin, hidrotexniki qurğuların və digər infrastruktur obyektlərin sel və daşqın sularının zərərli təsirlərindən mühafizəsinə, çayların su ehtiyatlarının nizamlanması hesabına onlardan daha səmərəli istifadə edilməsinə geniş imkanlar yaranacaqdır.

Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursu, Heydər Əliyev siyasəti, Heydər Əliyev fəlsəfəsi, Heydər Əliyev ideologiyası bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən böyük əzmlə davam etdirilir. Heydər Əliyev kimi siyasət və idarəçilik korifeyindən sonra ölkənin idarə edilməsi nə qədər çətin görünsə də, Prezident İlham Əliyev bu işin öhdəsindən layiqincə gəlir və öz fəaliyyəti ilə artıq sübut etmişdir ki, polad dayaqlar üzərində mövqe tutan və xalqını xoşbəxt gələcəyə aparan liderdir. Təkcə doğma Azərbaycana deyil, Qərbin, bütövlükdə dünyanın qlobal problemlərinə həssaslıqla yanaşan, baş verən hadisələri dərhal analiz etmək və nəticə çıxartmaq imkanları ilə fərqlənən möhtərəm Prezidentin fəaliyyəti ilə yaxından tanış olarkən ondakı enerjiyə, xalqına olan sonsuz məhəbbət və sədaqətə heyran olmaya bilmirsən.

Azərbaycan xalqının ümummilli liderə, bu dahi şəxsiyyətə ehtiramı və ümumxalq sevgisi əbədidir. Bu gün hər bir Azərbaycan vətəndaşı dərin iftixar hissi ilə qeyd edir ki, müstəqil Azərbaycan dövləti ümummilli liderin şah əsəridir, onun öz xalqı qarşısında tarixi xidmətidir.

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun payına düşmüş Tanrı payıdır. Uzun illər keçəcək və Heydər Əliyev bir şəxsiyyət kimi daim yaddaşlarda yaşayacaqdır. Azərbaycanda həyatın elə bir sahəsi yoxdur ki, orada Heydər Əliyev zəkasının izi olmasın. Bu əməyin, bu zəkanın qədrini bilmək, onu qorumaq və gələcək nəsillərə ötürmək hər birimizin müqəddəs vətəndaşlıq borcudur.

***Əhməd ƏHMƏDZADƏ,***
***"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri***



# Tarìx yaradan lìder

**İnsan var ki, adı tarixə yazılır, insan da var ki, tarix yaradır. Ümummilli lider Heydər Əliyev, sözün əsl mənasında, tarix yaradan bir şəxsiyyətdir. Bəlkə də elə bu səbəbdəndir ki, insan onun barəsində nəsə fikirləşəndə keçmiş zamanda deyil, qeyri-ixtiyari olaraq indiki zamanda yazır. Çünki Azərbaycan dövlətinə, onun sosial, iqtisadi, siyasi, mədəni, bir sözlə, bütün sahələrdə Heydər Əliyev dühasının vurduğu möhürü, müəyyənləşdirdiyi yolu görürsən.**

Ulu öndər Azərbaycanı azərbaycanlıların ixtiyarına verən və Azərbaycan xalqı "öz taleyinin sahibidir" - deyən ilk böyük dövlət xadimidir. Ümummilli dəyərləri ideoloji baxımdan ilk dəfə təsbit edən şəxsiyyətdir Heydər Əliyev. Zaman keçdikcə Heydər Əliyev şəxsiyyətinin böyüklüyü və əzəməti, onun xalqı naminə gördüyü xilaskarlıq və quruculuq işlərinin möhtəşəmliyi daha aydın görünür. Məhz ulu öndərin rəhbərliyi altında həyata keçirilən məqsədyönlü və müdrik dövlətçilik siyasəti nəticəsində Azərbaycan dünya birliyində öz layiqli yerini tutub.

1969-cu ildə Heydər Əliyevin respublika rəhbərliyinə gəlişindən sonra Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mənəvi-mədəni həyatında köklü dəyişikliklərin əsası qoyuldu. Öz miqyasına görə həmin dəyişikliklər Azərbaycanın müasir inkişaf tarixinin ən dolğun səhifələrini təşkil edir. Ümummilli liderin respublikaya rəhbərliyinin birinci dövründə gördüyü işlər sonralar müstəqil Azərbaycanın iqtisadi bazasının formalaşdırılması və inkişafında müstəsna rol oynamışdır. Möhtərəm Prezident İlham Əliyevin dediyi kimi, "ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına dərin inteqrasiyası proseslərinin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən yaradılmış potensiala əsaslanır".

Ölkə iqtisadiyyatının, onun sosial həyatının istər ötən əsrin 70-80-ci illərindəki, istərsə də müstəqillik dövründəki dinamik inkişafı bir çox mühüm amillərlə yanaşı, elektrik enerjisi sisteminə də sirayət edir. Elektrik energetikasında sürətli inkişafı təmin etmək məqsədilə hələ 1970-80-ci illərdə təxirəsalınmaz tədbirlər həyata keçirildi, bir sıra irimiqyaslı layihələr reallaşdırıldı. Məhz həmin illərdə Heydər Əliyev respublikanın elektrik enerjisinə olan tələbatını yerli imkanlar hesabına ödəməyi qarşıya məqsəd qoyaraq bu istiqamətdə gərgin fəaliyyət göstərdi. Azərbaycanda enerji təhlükəsizliyi sisteminin təməli də məhz həmin illərdə qoyuldu.

Bütün bu işləri görməklə Heydər Əliyev Azərbaycanın bu gününü əvvəlcədən görürdü və hesab edirdi ki, vaxt gələcək, bu işlər müstəqil Azərbaycan dövlətinə və xalqına xidmət edəcək

Həmin dövrdə bir-birinin ardınca yeni elektrik stansiyalarının, yüksək gərginlikli elektrik verilişi xətlərinin və yarımstansiyaların inşa edilib istifadəyə verilməsi respublikanın sənaye potensialının artırılmasında mühüm addım oldu.

1969-cu ilə qədər Azərbaycan elektrik enerjisi idxal edirdisə, 1982-ci ildə artıq ölkəmiz elektrik enerjisi ixrac edən respublikaya çevrildi. Bununla da elektrik enerjisi sahəsində yeni inkişaf mərhələsinin başlanğıcı qoyuldu. Respublikaların maliyyə imkanlarının məhdud olduğu bir dövrdə çox böyük vəsait tələb edən bu irimiqyaslı işlərin görülməsi üçün ittifaq büdcəsindən vəsaitin ayrılmasına nail olmaq həmin dövrdə heç də asan deyildi. Heydər Əliyev 1970-80-ci illərdə energetika sahəsində gördüyü işlər haqqında sonralar belə deyirdi: "Hər dəfə elektrik stansiyası tikilməsi haqqında SSRİ rəhbərliyi qarşısında məsələ qoyarkən mənə deyirdilər ki, SSRİ-də vahid elektrik enerjisi sistemi var və Azərbaycana nə qədər elektrik enerjisi istəyirsiniz verək. Mən deyirdim ki, yox, istəyirəm bizim özümüzünkü olsun. Mən istəyirdim ki, müəyyən sahələrdə biz asılı olmayaq. Bu gün mən iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan elektrik enerjisi sahəsində asılı deyildir. Özü həmin elektrik stansiyalarında elektrik enerjisi istehsal edir".

Həmin dövrdə Bakı və onun qəsəbələrinin də elektrik təsərrüfatının inkişafında yeni mərhələ başladı. Belə ki, Badamdar, Musabəyov qəsəbələrində, 8-ci kilometrdə, Əhmədli, Günəşli yaşayış massivlərində, Respublika stadionunun ətrafında və s. sahələrdə möhtəşəm tikinti işləri gedirdi. Məhz həmin illərdə Bakı Metropoliteninin yeni stansiyaları, "Gülüstan" sarayı, Respublika Əl Oyunları sarayı, Bakı Dövlət Sirki, "Azərbaycan", "Bakı", "Abşeron" mehmanxanaları, elektrotexnika, elektron və digər sənaye sahələrinin iri müəssisələri istifadəyə verildi. Bütün bunların dayanıqlı enerji təchizatının təmin edilməsi bilavasitə Bakı Şəhər Elektrik Şəbəkəsinin üzərinə düşürdü və demək lazımdır ki, o, bunun öhdəsindən layiqincə gəlirdi.

1970-ci illərdə Sovet İttifaqı ərazisində yüksək gərginlikli elektrik enerjisinə 6 kvt-dan 10 kvt-a məhz Bakıda keçildi və şəbəkənin 220/127 voltdan 380/220 volt gərginliyə keçilməsi təmin edildi. Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu həmin dövrdə respublika iqtisadiyyatının sürətli inkişafına imkan verən və onun gələcəkdə iqtisadi cəhətdən müstəqilliyinə zəmin yaradan bir çox iri müəssisə və obyektlərin, o cümlədən Bakı Məişət Kondisionerləri, Dərin Özüllər və Bakı Yeni Neftayırma zavodlarının tikintisinə nail olundu. Onların da elektrik enerjisi təchizatının təminatı üçün yeni inşa edilmiş 110 kV-luq yarımstansiyalar istismara verildi.

Azərbaycan xalqının ümummili lideri Heydər Əliyevin 1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdışından sonra ölkədə bütün sahələrdə əsaslı islahatların aparılmasına başlandı. Azərbaycanın enerji sektorunun inkişafına, enerji təhlükəsizliyinə böyük önəm verən ulu öndərin diqqət və qayğısı sayəsində respublikamızın, o cümlədən Bakı şəhərinin elektrik şəbəkəsinin genişləndirilməsi və yenidən qurulması prioritet məsələyə çevrildi. 1990-cı illərdə hər birinin uzunluğu 1,4 kilometr olan 1-ci və 2-ci aeroport ("Qala" və "Suraxanı" yarımstansiyaları arasında hava xəttindən budaqlanma), 1-ci H.Aslanov hava xətləri çəkildi. Bakı ətrafındakı Kürdəxanı, Şağan, Türkan, Zirə, Nardaran qəsəbələrinin enerji təminatını yaxşılaşdırmaq məqsədilə 35 kV-luq yarımstansiyalar, habelə 99, 202, 212, 213, 431 saylı və s. yarımstansiyalar istismara verildi.

Heydər Əliyev xarici ölkələrə rəsmi və işgüzar səfərləri zamanı elektroenergetika təsərrüfatının yenidən qurulması məsələlərini də diqqət mərkəzində saxlayırdı. Tikintisi 1984-cü ildən yarımçıq qalmış "Şəmkir" SES-in davamı olan Yenikənd su elektrik stansiyasının inşasının başa çatdırılması buna əyani misaldır. Sovet İttifaqı süqut edərkən buradakı tikinti işlərinin 60 faizi görülmüşdü. Lakin maliyyə vəsaitinin və düzgün idarəçiliyin olmaması səbəbindən müstəqillik dövründə - 1992-ci ildə SES-in tikintisi dayandırılmışdı. Ulu öndər Heydər Əliyev 1995-ci ilin dekabrında Böyük Biritaniya və Şimali İrlandiya Krallığına işgüzar səfəri zamanı sərmayə məsələsinin həllinə nail oldu. Belə ki, Avropa Yenidənqurma və İnkişaf Bankı stansiyanın tikintisinin başa çatdırılması üçün maliyyə dəstəyi verdi. Energetiklərimizin və inşaatçılarımızın səylə və məsuliyyətlə işləmələri nəticəsində 2000-ci ilin dekabr ayında 150 MVt gücündə olan Yenikənd SES istifadəyə verildi.

Elektroenergetikanın inkişafı sahəsində Heydər Əliyev ideyalarını uğurla davam etdirən, onun siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti İlham Əliyevin diqqət və qayğısı da elektroenergetika sahəsindən yan keçmədi.

Yaradılma tarixi ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan müstəqil Azərbaycanın energetika sistemi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müxtəlif vaxtlarda təsdiq olunmuş dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində daha da inkişaf etdirilərək dünya standartlarına uyğun səviyyədə yenidən qurulmaqdadır.

Məqsədyönlü enerji siyasəti hər bir dövlətin milli təhlükəsizliyinin təmin edilməsində çox mühüm əhəmiyyətə malik olduğunu nəzərə alaraq, ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə respublikamızın energetika kompleksinin, o cümlədən elektrik enerjisi sisteminin inkişafına xüsusi diqqət yetirmiş, bu sahədə misilsiz quruculuq işləri həyata keçirilmişdir.

Energetika sahəsində müəyyənləşdirilmiş strateji kurs Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Azərbaycanın bu gün Avropanın ən etibarlı enerji təminatçısı olmasının səbəbi Azərbaycan Prezidentinin gərgin əməyi, uzaqgörən və məqsədyönlü siyasəti və qəbul etdiyi qərarlar nəticəsində mümkün olmuşdur. Həyata keçirilən uğurlu sosial-iqtisadi islahatların nəticəsidir ki, bütün sahələrdə olduğu kimi, Azərbaycan elektroenergetikasının sürətli inkişafı təmin edilmiş, 25 ədəd yeni tikilən müasir tipli elektrik stansiyaları hesabına generasiya (istehsal) gücləri 2400 MVt artırılaraq, 6400 MVt-a çatdırılması sayəsində Azərbaycan nəinki daxili enerji tələbatını ödəməyə nail olmuş, eyni zamanda elektrik enerjisi idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdir.

Cənab Prezidentin elektroenergetika sahəsində müəyyən etdiyi uğurlu strategiyanın davamı olaraq yaradılmış "Azərişıq" ASC tərəfindən ölkənin fasiləsiz, keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi məqsədilə "Azərbaycan Respublikasının şəhər və rayonlarında paylayıcı elektrik şəbəkələrinin yenidənqurulması və inkişaf etdirilməsi üzrə 2016-2025-ci illər üzrə Tədbirlər Planı (Master Plan) hazırlanmış və Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə təsdiq olunmuşdur. Həmin Tədbirlər Planında regional elektrik şəbəkələrinin normal istismar vəziyyətinə çatdırılması üçün irihəcmli investisiya qoyuluşları tələb edən işlərin görülməsi nəzərdə tutulur ki, bu da dövlətin sifarişi ilə Almaniyanın FİCHTNER şirkəti tərəfindən 2012-ci ildə hazırlanmış "Enerji Sektoru üzrə Baş Plan"da da öz əksini tapmışdır.

Müxtəlif vaxtlarda qəbul edilmiş dövlət proqramlarının icrası və istehlakçıların etibarlı, fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi üçün hökumətin dəstəyi ilə yerli və xarici investisiyalar cəlb edilməklə, habelə daxili imkanlar hesabına elektrik şəbəkələrində genişmiqyaslı yenidənqurma və tikinti işləri aparılır.

Həyata keçirilən tədbirlər nəticəsində regional elektrik şəbəkələrində ifrat yüklənmələr, daimi məcburi-planlaşdırılmış açılmalar, qəza açılmaları minimuma endirilmiş, şəbəkələrin güc qəbul etmə qabiliyyəti 2 dəfədən çox artırılmış, yeni güclərin şəbəkəyə qoşulması təmin edilərək istehlakçıların və böyük meqalayihələrin stabil elektrik enerjisi ilə təchizinə nail olunmuşdur.

Ümumilikdə ötən illər ərzində "Azərişıq"ASC tərəfindən paylayıcı elektrik şəbəkələrində 44 ədəd 110 kV-luq, 167 ədəd 35 kV-luq yarımstansiya tikilib və yenidən qurulmuş, 5120 ədəd transformator və komplekt transformator məntəqəsi inşa olunmuş, 692 350 ədəd elektrik dayağı quraşdırılmış, 53450 kilometr uzunluğunda hava və kabel xətti çəkilmiş, uçot sisteminin bərpası məqsədilə 1621871 ədəd müasir tipli elektron sayğaclar quraşdırılmışdır.

2015-ci ildə respublika üzrə elektrik şəbəkələrinin yük paylama qabiliyyəti 9 500 meqavolt amper olduğu halda, aparılmış tikinti və yenidənqurma tədbirləri sayəsində 2017-ci ilin sonuna bu göstərici 12 200 meqavolt amperə çatdırılmışdır.

Həyata keçirilmiş tədbirlər nəticəsində texniki itkilər Regional elektrik şəbəkələri üzrə 11,4 faizə, Bakı şəhəri üzrə 7,8 faizə endirilməklə ümumilikdə "Azərişıq" ASC üzrə 9,6 faiz təşkil etmişdir. Faydalı elektrik enerjisinə görə yığım Regional elektrik şəbəkələri üzrə 87 faizə, Bakı şəhəri üzrə 99,0 faizə yüksəldilməklə ümumilikdə "Azərişıq" ASC üzrə 93 faizə çatdırılmışdır. Alınan elektrik enerjisinə görə "Azərenerji" ASC-yə ödənişlər 100 faiz təmin olunmuş, vergi və digər büdcə ödənişləri artıqlaması ilə yerinə yetirilmişdir.

Göründüyü kimi, qoyulmuş investisiyalar nəticəsində uçotun bərpa olunması və itkilərin xeyli dərəcədə azaldılması hesabına cəmiyyətin gəlirləri əhəmiyyətli dərəcədə artmış və beləliklə, paylayıcı şəbəkələrin yenidənqurulmasına qoyulan investisiyalar qısa müddət ərzində özünü tam dogrultmuşdur.

Bakı şəhərinin elektrik şəbəkələrinin daim yüksək istismar vəziyyətində saxlanılması məqsədilə "Azərişıq" ASC tərəfindən irimiqyaslı yenidənqurma işləri aparılmaqla yeni güc mərkəzləri yaradılır, elektrik enerjisi itkilərinin azaldılması, enerji haqlarının vaxtında və tam şəkildə yığılması üçün mütəmadi olaraq təşkilati və texniki islahatlar aparılır.

Elektrik şəbəkələrində xroniki hal almış ifrat yüklənmələrin, sıçrayışların, döyüntülərin aradan qaldırılması məqsədilə 220 kV-luq 5 qovşaq yarımstansiyasının əlaqələndirilməsi üçün beynəlxalq standartlara uyğun 6 ədəd 110 kV-luq və 43 ədəd 35 kV-luq dairəvi elektrik təchizatı sxemi yaradılmış, mövcud hava xətləri kabel xətləri ilə əvəz olunmuşdur. Bunlara aşağıdakıları misal göstərmək olar:

- 220 kV-luq "Müşviq" - "Xırdalan" qovşaq yarımstansiyaları arasında olan "Badamdar"- "Bayıl"- "İçəri Şəhər" - "Liman"- 227 saylı - "Yeraltı 227" - "BMKZ" - 203 saylı yarımstansiyalar;
- 220 kV-luq "Xırdalan" - "Nizami" qovşaq yarımstansiyaları arasında olan 203 saylı - "BMKZ" - 204 saylı yarımstansiyalar;
- 220 kV-luq "Müşviq" - "Hövsan" qovşaq yarımstansiyaları arasında olan "Badamdar"- "Bayıl"- "İçəri Şəhər" - "Liman"- "Ağ Şəhər-1" - "Həzi Aslanov" - "Əhmədli" yarımstansiyalar.

Bundan başqa, 110, 35, 10, 6 və 0,4 kV-luq elektrik şəbəkələrinin infrastrukturu müasir texnologiyalar tətbiq edilməklə yenidən qurulmuş və bütün yarımstansiyalar uzaqdan idarə olunan intelektual SCADA sisteminə qoşulmuşdur.

Paytaxtın paylayıcı elektrik şəbəkələrinin normalara uyğun istismarının təşkili, qorunub saxlanılması, gözlənilən inkişafa uyğun artan elektrik güclərinin qarşılanması, habelə qəza hallarının operativ aradan qaldırılması məqsədilə 22 ədəd 110 kV-luq, 77 ədəd 35 kV-luq, 1974 ədəd 10-6 kV-luq TM və KTM inşa edilmiş, 28093 km müxtəlif gərginlikli hava və kabel xətləri çəkilmiş, 239532 ədəd dayaq quraşdırılmışdır.

Bakı şəhəri üzrə qəbul olunmuş aşağıdakı Dövlət Proqramlarının icrası ilə bağlı gücü 4300 MVt-dan artıq təşkil edən iri layihələrin enerji təminatı məqsədilə yeni 110 və 35 kV-luq yarımstansiyaların tikintisi, əlaqələndirici elektrik verilişi xətlərinin çəkilişi, 10-6 və 0,4 kV-luq paylayıcı elektrik şəbəkələrinin yenidən qurulması və gücləndirilməsi nəzərdə tutulur.

- Bakı Metropoliteninin yeni stansiyalarının tikintisi (520 MVt),
- "Ağ Şəhər" layihəsinin davamı (250 MVt),
- "Aypara Şəhərciyi" kompleksinin tikintisi (39 MVt),
- Port Baku Tower-2 layihəsinin icrası (20 MVt),
- Füzuli meydanı və ətraf ərazidə (Sovetski və s.) aparılan yenidənqurma işləri (60 MVt),
- Pilot layihələri üzrə köhnə binaların əvəzinə çoxmərtəbəli yeni yaşayış komplekslərinin inşası (2600 MVt),
- Bakı şəhəri üzrə sosial təyinatlı binaların tikintisi (750 MVt),
- "Xəyal adası" kompleksinin inşası (15 MVt),
- Pirallahı Yüksək Texologiyalar Parkının tikintisi (40 MVt).

"Ağ Şəhər" layihəsi üzrə işlərin 60 faizi yekunlaşıb, böyük və ən müasir paylayıcı elektrik şəbəkəsinin qurulması təmin edilmişdir. Hazırda qeyd olunan layihənin sonrakı mərhələsi üçün hazırlıq işləri davam etdirilir.

Füzuli meydanı ətrafı və "Sovetski" adlanan ərazidə, habelə şəhərin həmin hissəyə yaxın ərazilərində ( o cümlədən "Kubinka" adlanan hissəsində) inşa ediləcək coxsaylı yaşayış binalarının, sosial və yol infrastrukturunun enerji tələbatının qarşılanması üçün 1 ədəd 110/35/10 kV-luq yarımstansiyanın tikintisi, 110/35/10 kV-luq "Yasamal-1" yarımstansiyası ilə yeni tikiləcək yarımstansiya arasında 110 kV-luq 2 dövrəli kabel xəttinin çəkilməsi nəzərdə tutulur.

Pirallahı adasında ən müasir və böyük yaşayış mərkəzinin, dövlət əhəmiyyətli və turizm obyektlərinin tikintisi, inşa ediləcək texnoparkların enerji təminatı, habelə 20 minə yaxın əhalinin enerji təchizatının yaxşılaşdırılması üçün müvafiq texniki sənədlər hazırlanır.

Təhlillər göstərir ki, Bakı şəhərinin və şəhərətrafı ərazilərin inkişaf sürəti və istehlakçıların elektrik enerjisinə olan tələbatının artım dinamikası, şəhərsalmanın böyük vüsət alması, sənaye zonalarının yaradılması enerjiyə olan tələbatı kəskin artıracağından işlərimizi bu istiqamətdə davam etdiririk.

"Azərbaycan Respublikasının regionlarının 2014-2018 ci illərdə Dövlət Proqramı"na uyğun olaraq, habelə qeyri-neft sektorunun, turizmin, kənd təsərrüfatının, xüsusən də pambıqçılığın, tütünçülüyün, taxılçılığın, çaycılığın, çəltikçiliyin, baramaçılığın və digər sahələrin inkişafı, aqroparkların, texnoparkların, sənaye məhəllələrinin yaradılması və sahibkarlığın inkişafı ilə bağlı qəbul edilmiş fərman və sərəncamların icrası məqsədilə "Azərişıq" ASC tərəfindən regionlarda irimiqyaslı tədbirlər həyata keçirilir.

Hazırda artan əkin sahələri 1231 ədəd stasionar tipli su nasosları ilə suvarılır ki, onların elektrik təchizatı 35, 10 və 6 kV-luq 10360 ədəd transformatorlar vasitəsilə təmin olunur. Ümumi qoyuluş gücü 1125 MVA təşkil edən transformatorların elektrik təchizatı müxtəlif mənbələrdən olmaqla uzunluğu 10 000 km-dən cox olan və əsasən əhali qrupuna aid istismar müddəti keşmiş 10,6 və 0,4 kV-luq elektrik verilişi xətləri ilə həyata keçirilir.

Su nasos stansiyalarının elektrik şəbəkələrinin əhali qrupuna aid xətlərdən ayrılması məqsədilə "Azərişıq" ASC tərəfindən 5 ədəd 110 kV-luq, 17 ədəd 35 kV-luq yarımstansiya tikilmiş, 110 km-dən artıq elektrik veriliş xətləri yenidən qurulmuş və təmir olunmuşdur. Artezian quyularına xidmət edən 400 ədəd transformator əsaslı təmir olunmuş, 60 ədəd yararsız transformator yenisi ilə əvəz edilmişdir.

İstismara verilən 450 ədəd subartezian quyularının tələb etdiyi 10,7 MVt gücün qarşılanması üçün elektrik şəbəkələrində əsaslı yenidənqurma və təmir işləri aparılmışdır.

Pambıqçılığın inkişafı ilə əlaqədar Sabirabad, Saatlı və Bərdə rayonlarında keçirilən zona müşavirələrində tədarük və emal müəssisələrinin fasiləsiz və etibarlı elektrik enerjisi təchizatının təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilmiş tapşırıqların icrası məqsədilə "Azərişıq" ASC tərəfindən təxirəsalınmaz tədbirlər həyata keçirilir. Qeyd olunan obyektlərin artan tələbatının 175 MVA olması nəzərə alınaraq, onların dayanıqlı və fasiləsiz enerji ilə təchiz etmək üçün elektrik şəbəkələrinin, yarımstansiyaların gücü artırılmış, elektrik verilişi xətləri əsaslı təmir olunmuşdur. Lakin bu sahədə görüləcək işlər hələ çox olduğundan, Kənd Təsərrüfatı Nazirliyi və əlaqədar təşkilatlarla birgə təkliflər hazırlanır.

Aqroparkların elektrik təchizatı üçün ümumi gücü 111,5 MVt təşkil edən 10 aqroparkın şəbəkələrə qoşulması təmin olunmuş, Hacıqabul rayonunda gücü 2x50 MVA gücündə 110 kV-luq "Qarasu" yarımstansiyası tikilmiş və 25,3 km 110 kV-luq iki dövrəli elektrik verilişi xətti çəkilmiş, Şəmkir rayonunda 2x25 MVA gücündə 110 kV-luq "Şəmkir Aqro", Tovuz rayonunda 110 kV-luq "Tovuz Aqro", Samux rayonunda 2,5 MVA gücündə 35/10 kV-luq "Aqro Dairy" yarımstansiyası, Goranboy rayonunda 2x6,3 MVA gücündə 35/10 kV-luq "Goranboy Aqro" yarımstansiyaları inşa edilmiş, həmin yarımstansiyaların əlaqələndirilməsi üçün 65,4 km 35 kV-luq iki dövrəli hava xətləri çəkilmişdir.

Respublika ərazisində sahibkarlığın inkişafı və bununla əlaqədar obyektlərin keyfiyyətli və fasiləsiz elektrik təchizatı üçün tələb olunan 82,5 MVt gücün qarşılanması üçün "Azərişıq" ASC tərəfindən şəbəkələrin gücləndirilməsi və genişləndirilməsi məqsədilə 4 ədəd 110 kV-luq və 8 ədəd 35 kV-luq yarımstansiyalar yenidən qurulmuş və gücləndirilmişdir.

Dövlət proqramına uyğun tikintisi nəzərdə tutulmuş 8 texnopark və sənaye məhəllələrindən Masallı, Neftçala rayonlarında və Balaxanı qəsəbəsində 18 MVt gücündə 3 obyekt tikilərək istismara verilmişdir. 110/35/6 kV-luq 2x40 MVA gücündə "Neftçala" yarımstansiyası əhalinin və digər istehlakşıların keyfiyyətli enerji təchizatını təmin etməklə yanaşı, ərazidə yaradılan texnoparkın, Alətlər və Pivod suvarma sistemləri zavodlarının elektrik enerjisinə olan tələbatını tam qarşılayacaqdır. Həmin yarımstansiyanın tikintisi kənd təsərrüfatı üçün əlavə torpaq sahələrinin suvarılma sistemlərinin genişləndirilməsinə də təkan verəcəkdir.

Cəbhəyanı ərazilərdə yaşayan əhalinin və digər infrastrukturların elektrik enerji təchizatının yaxşılaşdırılması üçün Tərtər rayonunda 2x6,3 MVA gücündə 1 ədəd 35/10 kV-luq "Şıxarx", Cəbrayıl rayonu ərazisində 2x6,3 MVA gücündə 1 ədəd 35/10kV-luq "Cocuq Mərcanlı" və Qazax rayonu ərazisində 2x16 MVA gücündə 1 ədəd 110/35/10-6 kV-luq "Daş Salahlı" yarımstansiyaları tikilərək istismara verilmiş, əlaqələndirici xətlər inşa edilərək dairəvi enerji təchizatı sxemi yaradılmışdır. Hazırda Tərtər rayonunda 110 kv-luq "Tərtər" yarımstansiyasının tikintisi davam etdirilir.

Regionlarda yaşayan əhalinin, sosial, səhiyyə, turizm, kommersiya obyektlərinin, su təsərrüfatının, iaşə və digər infrastrukturların elektrik enerjisi təchizatının yaxşılaşdırılması məqsədi ilə tələb olunan əlavə 68,4 MVt gücün qarşılanması üçün Qax rayonunda müasir tipli 1 ədəd 110 kv-luq "Qax" yarımstansiyası, 6 ədəd 35 kV-luq yarımstansiyalar o cümlədən Gəncə şəhərində "Məhsəti", Mingəçevir şəhərlərində "Yeni Mingəçevir", Siyəzən rayonunda "Yeni Siyəzən", Quba rayonunda "Nohur Düzü", Xırdalan şəhərində "Yeni Xırdalan", İsmayıllı rayonunda "Yeni Basqal" yarımstansiyaları inşa edilərək istismara verilmişdir.

Gəncə şəhəri üzrə artan enerji tələbatının qarşılanması, əhalinin, xüsusən də şəhərin mərkəz hissəsində yerləşən dövlət əhəmiyyətli obyektlərin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin olunması məqsədilə, uzun müddət istismarda olduğundan müasir texniki parametrlərə cavab verməyən, 40 mindən artıq abonentə xidmət edən 110/35/6 kV-luq "Mərkəz" yarımstansiyasının yenidənqurulmaqla gücünün artırılması, əlaqələndirici 110 kV-luq xəttin çəkilməsi, mövcud hava xətlərinin yeraltı kabel xətləri ilə əvəz olunması, istehlakçıların etibarlı enerji təchizatının təmin olunması üçün dairəvi təchizat sxeminin yaradılmasının zəruriliyi nəzərə alınaraq lazımi texniki, layihə-smeta sənədləri hazırlanmışdır.

"Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə sahəsində əlavə tədbirlər haqqında" 22 dekabr 2017-ci il tarixli sərəncamın icrası məqsədilə "Azərişıq" ASC-nin balansına verilmiş Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrində yerləşən Külək Elektrik Stansiyalarında təmir və bərpa işləri aparılır. Bu işlərin cari ilin avqust ayında başa çatdırılması nəzərdə tutulur.

Şəffaflığın və vətəndaş məmnunluğunun təmin edilməsi fəaliyyətinin əsas məqsədi olduğundan, "Azərişıq" ASC tərəfindən "Asan xidmət" mərkəzləri vasitəsilə abunəçilərə texniki şərtlərə dair müraciətlərin qəbulu, elektrik şəbəkəsinə qoşulması, borcun araşdırılması, borcun olmamasına dair arayışın verilməsi, elektrik enerjisi istehlakçısının dəyişdirilməsi daxil olmaqla 11 növ xidmət göstərilir. Bu sahədə operativliyin təmin olunması məqsədilə səhmdar cəmiyyətdə "Perspektiv İnkişaf və Asan xidmətlə iş" idarəsi yaradılmış və onun əsas vəzifəsi "Asan kommunal" və "Asan xidmət" mərkəzlərindən daxil olan müraciətlərin, xüsusən də sahibkarlıq subyektlərinin elektrik şəbəkəsinə qoşulması ilə bağlı işlərin maksimum qısa müddətdə icrasını təmin etməkdən ibarətdir. Eyni zamanda idarənin yaradılmasında əsas məqsəd Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hər il dərc olunan və ölkələrin investisiya reytinqini müəyyən edən "Doing Business" hesabatlarında Azərbaycan Respublikasının "Elektrik təchizatı şəbəkələrinə qoşulma" indikatoru üzrə reytinqinin yüksəldilməsinə nail olmaqdır. Məhz görülmüş tədbirlərin nəticəsidir ki, hazırda sahibkarlıq subyektlərinin elektrik şəbəkələrinə qoşulmasına dair müraciətləri qısaldılmış müddətlərdə və sadələşdirilmiş prosedurlarla təmin olunur. Əməkdaşların normal iş şəraitinin təmin edilməsi və onların sosial vəziyyətinin yaxşılaşdırılması "Azərişıq" ASC-nin fəaliyyətinin əsas vəzifələrindən biridir. Keçən dövr ərzində əməkdaşların iş şəraitinin yaxşılaşdırılması məqsədilə ən müasir texniki avadanlıqlarla təchiz olunmuş 29 ofis binası inşa edilmişdir.

Qeyd olunan işlər möhtərəm Prezidentin "Azərişıq" ASC-yə göstərdiyi ardıcıl dəstək nəticəsində mümkün olmuşdur. Təkcə 2017-ci ildə və cari ilin 1-ci rübündə 8 yarımstansiyanın, 2 Avtomatik İdarəetmə və Nəzarət Mərkəzlərinin açılışlarında cənab Prezidentin şəxsən iştirakı elektroenergetika sahəsinə xüsusi diqqət və qayğısının göstəricisi olmaqla yanaşı, məsuliyyətimizi daha da artırmışdır.

**Baba RZAYEV,**
***"Azərişıq" ASC-nin sədri***





# Heydər Əliyevin 95 illik yubileyi Türkiyənin Mersin vilayətində təntənə ilə qeyd edildi






**Ulu öndər Heydər Əliyevin 95 illik yubileyi Azərbaycanın hüdudlarından kənarda da qeyd edilir. Bu günlərdə Türkiyənin Mersin vilayətində Bakının Xətai rayonu və yerli icra hakimiyyəti orqanlarının birgə təşkilatçılığı ilə keçirilən silsilə tədbirlər göstərdi ki, Heydər Əliyevin əziz xatirəsi qardaş ölkə ictimaiyyəti tərəfindən ehtiramla anılır.**












Tədbirlərdə Mersin vilayətindəki Tarsus şəhəri ilə qardaşlaşmış Bakının Xətai rayonunun nümayəndə heyəti də iştirak edib. Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyətinə Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri, Milli Məclisin deputatı Hüseynbala Mirələmov, Xətai RİH İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Pənah İmanov və digər şəxslər daxil idi.

Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə bağlı tədbirlərdən biri Tarsus şəhərindəki Heydər Əliyev parkında keçirildi. Qeyd edək ki, Heydər Əliyev parkı yerli sakinlər, eləcə də şəhərin qonaqlarının sevimli istirahət mərkəzlərindən biridir. Ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümü ilə bağlı tədbirlərin bu parkda keçirilməsi isə son illərin xoş ənənəsinə çevrilib.

Tədbirdə Mersin və Tarsusun icra orqanlarının rəhbərləri, Azərbaycan nümayəndə heyətinin üzvləri, yerli ictimaiyyətin nümayəndələri, ziyalılar iştirak edirdilər. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin və iki ölkənin şəhidlərinin xatirəsini ehtiramla yad etdilər. Azərbaycan və Türkiyənin dövlət himnləri səsləndirildi. Daha sonra Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin mənalı ömür yolunu və zəngin siyasi fəaliyyətini əks etdirən film böyük maraqla izləndi.

Tədbirdə çıxış edən Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov ümummilli lider Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin gücləndirilməsi, dövlət quruculuğu, eləcə də qardaş Türkiyə ilə münasibətlərin inkişafı istiqamətində misilsiz xidmətlərindən danışdı. Bildirdi ki, ulu öndərin müəyyən etdiyi siyasi kurs, o cümlədən qardaş Türkiyə ilə münasibətlər sahəsindəki strateji xətt bu gün Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir. Bu münasibətlər ölkələrimizin müxtəlif şəhərləri arasında da davam etdirilir. Bunun bariz nümunəsi isə Tarsusda ulu öndərin adını daşıyan parkın salınması, körpünün tikilməsi və ümummilli liderin abidəsinin ucaldılmasıdır.

Tarsus bələdiyyəsinin sədri Şevket Can, Milli Məclisin deputatı Hüseynbala Mirələmov, Azərbaycanın Ankaradakı səfiri Xəzər İbrahim və digər natiqlər çıxışlarında qeyd etdilər ki, ulu öndər Heydər Əliyev adını tarixin qızıl səhifəsinə yazdıran dahi şəxsiyyətlərdən biridir. Mersin bələdiyyəsinin sədri Bürhanəddin Kocamaz isə Heydər Əliyevin siyasi kursunun bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğuladı.

Yerli məktəblilər Azərbaycan-Türkiyə qardaşlığını əks etdirən rəqslər ifa etdilər. Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin parkda ucaldılmış heykəli önünə tər çiçəklər düzdülər. Daha sonra qonaqlar dahi şəxsiyyətin adını daşıyan parkı gəzərək ətrafında aparılan abadlıq işləri ilə tanış oldular.

Tarsusda ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə bağlı növbəti tədbir Xətai rayonundakı "Zəkalar liseyi" ilə qardaşlaşmış məktəb olan Tarsusdakı Kampus Okullarında keçirildi. Məktəbdəki Heydər Əliyev salonunda təşkil edilən toplantıda çıxış edən Xətai Rayon İcra Hakimiyyətinin başçısı Razim Məmmədov, Milli Məclisin deputatı Hüseynbala Mirələmov, Mersin Böyükşəhər Bələdiyyəsinin sədri Bürhanəddin Kocamaz, məktəbin direktoru Ender Portakal və digər natiqlər Heydər Əliyevin Azərbaycan xalqının tarixindəki müstəsna yeri, dahi şəxsiyyətin zəngin irsinin gənc nəsillərə çatdırılmasının əhəmiyyəti haqqında danışdılar. Tədbir məktəblilərin ifasında Azərbaycan mahnılarının səslənməsi ilə yekunlaşdı.

Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə Türkiyədə keçirilən tədbirlərdə iştirak etən Xətai rayonunun nümayəndə heyəti bir sıra görüşlər də keçirib. Mersin valisi Əli İhsan Su, Tarsus bələdiyyəsinin sədri Şevket Can, Mersin bələdiyyəsinin sədri Bürhanəddin Kocamazla görüşlərdə Xətai rayonu ilə Mersin və Tarsus arasındakı əməkdaşlıq əlaqələrinin perspektivləri müzakirə edildi.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə bağlı Mersində və Tarsusda keçirilən tədbirlər yerli televiziya tərəfindən canlı olaraq yayımlandı. Qəzetlər mövzu ilə bağlı materiallara geniş yer ayırdılar.

Bakının Xətai rayonu ilə Türkiyə Respublikasının Mersin vilayəti arasında əməkdaşlıq əlaqələri ildən-ilə genişlənir. Bu vilayətdə yerləşən Tarsus şəhəri ilə Xətai rayonu 2007-ci ildən qardaşlaşıblar. Bu əlaqələr Azərbaycanla Türkiyə arasındakı dostluq və qardaşlıq münasibətlərinə mühüm töhfələr verir. Xətai rayonu tərəfindən bu əməkdaşlığın inkişaf etdirilməsi sahəsində indiyədək xeyli iş görülüb, mühüm layihələr həyata keçirilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə Baş Prokurorluqda konfrans keçirilib



Mayın 8-də Baş Prokurorluqda xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr edilən "Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" mövzusunda konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfransı giriş nitqi ilə açan Baş prokuror Zakir Qaralov ötən əsrin 60-cı illərindən başlayaraq ölkəmizin 30 ildən artıq bir dövrünü əhatə edən ən yeni tarixinin və bu dövr ərzində müstəqil dövlət kimi formalaşan Azərbaycan Respublikasının və xalqımızın taleyinin Heydər Əliyev kimi dahi şəxsiyyətin adı, onun müdrik dövlətçilik siyasəti ilə bağlı olduğunu vurğulayıb. Qeyd edib ki, bu müddət ərzində ulu öndər tərəfindən həyata keçirilən möhtəşəm dövlətçilik tədbirlərinin nəticəsində azərbaycançılıq ideyası ətrafında birləşərək, siyasi və iqtisadi müstəqilliyə nail olan xalqımız hüquqi dövlətdə, milli dəyərlərə əsaslanan vətəndaş cəmiyyətində layiqli yaşamaq imkanı əldə edib. Müxtəlif siyasi quruluşların mövcudluğu şəraitində Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev şəxsiyyətinin böyüklüyü ondan ibarətdir ki, o, sovet dönəmində ölkəmizin gələcək müstəqilliyinin möhkəm iqtisadi əsaslarını yaratmaqla xalqımızı öz suverenliyi uğrunda mübarizəyə hazırlamağı bacarıb, dövlət müstəqilliyimizin itirilməsi və ölkəmizin parçalanması təhlükəsi yarandığı bir dövrdə xarici və daxili qüvvələrin məkrli cinayətkar hərəkətlərinin qarşısını almaqla sabitlik və əmin-amanlıq şəraiti yaradıb, daha sonra Azərbaycanın inkişaf etmiş bir ölkəyə çevrilməsini şərtləndirən misli görünməmiş quruculuq işləri həyata keçirib.

Baş prokuror qeyd edib ki, doğma xalqına və millətinə təmənnasız xidməti həyatının mənası və məqsədi kimi qəbul edən, bu yolda mümkün olan bütün addımları atan Heydər Əliyev siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə müstəqil Azərbaycan dövlətçiliyinin formalaşdırılması və daha da möhkəmləndirilməsi uğrunda mübarizə meydanında olub və millətinə rəhbərlik edib. Bu yolda çox böyük maneələrlə rastlaşmasına, fiziki cəhətdən məhv edilmək təhlükəsinə, çoxsaylı sui-qəsd və terror cəhdləri ilə üzləşməsinə baxmayaraq, Heydər Əliyev öz siyasi müdrikliyi, polad iradəsi və qətiyyəti, ən əsası, xalqının dəstəyi nəticəsində doğma Azərbaycanı bugünkü və gələcək nəsillər üçün qoruyub saxlayıb və müstəqil inkişaf yoluna çıxarıb. Bildirilib ki, müstəqil Azərbaycan Respublikasının mühüm dövlət təsisatlarından biri olan milli prokurorluq orqanları bugünkü vəziyyətdə mövcudluğuna və yenidən formalaşmasına görə ilk növbədə xalqımızın ümummilli lideri Heydər Əliyev şəxsiyyətinə borcludur. Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyimizin maraqlarına xidmət edən bir qurum kimi dövlət idarəçiliyi sistemində öz layiqli yerini tutması ölkəmizdə aparılan hərtərəfli məhkəmə-hüquq islahatlarının memarı kimi Heydər Əliyevin dövlətçilik siyasəti, onun gündəlik qayğı və dəstəyi nəticəsində mümkün olub.

Diqqətə çatdırılıb ki, Heydər Əliyevin 2000-ci il 26 aprel tarixdə respublika Prokurorluğunun rəhbər işçiləri ilə keçirdiyi müşavirə prokurorluğun tarixində əsl dönüş nöqtəsi olub. Ulu öndərin həmin müşavirədəki tövsiyə və göstərişləri məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluqda görülməsi vacib olan işlərin əsas istiqamətlərini müəyyənləşdirib. Həyata keçirilən tədbirlər sayəsində prokurorluğun müasir məzmunda yeniləşdirilməsi, mövcud neqativ təzahürlərin aradan qaldırılması, yüksək standartlar səviyyəsində işləməyə qadir olan kadr korpusunun formalaşdırılması, son nəticədə cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi işinin zəruri tələblər səviyyəsinə qaldırılması mümkün olub.

Xüsusi vurğulanıb ki, əldə etdiyi bütün uğurlara görə ilk növbədə ulu öndər Heydər Əliyevin dövlətçilik siyasətinə və rəhbər kimi hərtərəfli qayğısına minnətdar olan Azərbaycan Respublikası Prokurorluğunun kollektivi dahi şəxsiyyətin xatirəsini həmişə əziz tutur və yüksək ehtiram göstərir. Baş prokuror diqqətə çatdırıb ki, bu gün Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də prokurorluq orqanlarına hərtərəfli qayğı və diqqət göstərilir, fəaliyyətinin müasir standartlar səviyyəsində təkmilləşdirilməsi üçün zəruri tədbirlərin görülməsi təmin olunur.

Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyasının icra katibi-sədr müavini Əli Əhmədov ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinin xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qeyd edilməsinin dahi şəxsiyyətin xatirəsinə hörmət və ehtiramın göstəricisi olmaqla yanaşı, mühüm dövlətçilik ənənəsinə çevrildiyini diqqətə çatdırıb. Bu yüksək ehtiramın ulu öndər Heydər Əliyevin vətən və xalq qarşısında misilsiz xidmətlərinə görə dərin minnətdarlığın nümunəsi olduğunu vurğulayan Baş nazirin müavini diqqətə çatdırıb ki, Heydər Əliyev xalqımızın yetişdirdiyi ən böyük azərbaycanlıdır. Müasir Azərbaycan tarixinin bütöv bir qərinəsinin ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu deyən Əli Əhmədov qeyd edib ki, bu illər Azərbaycanın sürətli inkişafı, tərəqqisi və yüksəlişi ili olub. Ümummilli lider Heydər Əliyevin sovet dövründə ölkəmizə rəhbərliyi illərində Azərbaycanın sürətlə inkişaf edərək keçmiş SSRİ-nin qabaqcıl respublikalarından birinə çevrildiyini vurğulayan Baş nazirin müavini Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, ölkənin sürətli inkişaf yoluna çıxarılmasında dahi rəhbərin misilsiz xidmətlərindən bəhs edib. Diqqətə çatdırıb ki, məhz bu xidmətlərinə görə Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur.

Ulu öndərin xilaskarlıq missiyasında digər sahələrlə yanaşı, ictimai-siyasi sabitliyin, qanunun aliliyinin təmin edilməsinin də mühüm yer tutduğunu xatırladan Əli Əhmədov Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsi sayəsində Azərbaycanın bu gün dünyada ən sabit ölkələrdən biri kimi tanındığını vurğulayıb. Diqqətə çatdırıb ki, bu sahədə dövlət siyasətinin uğurla həyata keçirilməsi üçün etibarlı zəminin hazırlanmasında hüquq mühafizə orqanlarının, o cümlədən prokurorluq orqanlarının səmərəli və qətiyyətli fəaliyyətini xüsusi qeyd edib.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli ümummilli lider Heydər Əliyevin Azərbaycanın çoxəsrlik milli dövlətçilik tarixində ən qüdrətli və nadir dövlət xadimlərindən olduğunu vurğulayıb. Akademik ulu öndər Heydər Əliyevin görkəmli dövlət xadimi kimi yetişməsində dünyanın super dövlətlərindən biri olan SSRİ-nin siyasi sistemini dərindən mənimsəməsinin və həmin zəmində özündə müstəqil dövlətçilik dünyagörüşü formalaşdırmasının mühüm rol oynadığını qeyd edib. İ.Həbibbəyli ulu öndər Heydər Əliyevin dünyanın görkəmli şəxsiyyətləri tərəfindən nadir dövlət adamlarından biri kimi dəyərləndirildiyini vurğulayaraq, dahi rəhbərin istər sovet, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərliyi illərində ölkəmizdə elmin, təhsilin, ədəbiyyatın, mədəniyyətin görkəmli himayədarı olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, məhz dahi şəxsiyyətin diqqət və qayğısı sayəsində sovet dövründə Azərbaycanın vətənpərvər, qabaqcıl ziyalıları, o cümlədən şair və yazıçıları, alimləri nəinki təzyiqlərdən xilas olub, hətta SSRİ-nin ən yüksək dövlət təltiflərinə layiq görülüblər. Bu dövrdə Heydər Əliyevin ən böyük xidmətlərindən biri Azərbaycan SSR-in 1978-ci ildə qəbul edilən Konstitusiyasında respublikanın dövlət dilinin Azərbaycan dili olması ilə bağlı maddənin daxil edilməsi idi.

Müstəqilliyin əvvəllərində ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyasının əhəmiyyətini xüsusi vurğulayan AMEA-nın vitse-prezidenti ulu öndərin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizdə bütün sahələrlə yanaşı, Azərbaycan elminin də inkişafı üçün ən mükəmməl şəraitin yaradıldığını diqqətə çatdırıb.

Baş Prokurorluğun Hüquqi təminat idarəsinin rəisi Natiq Hüseynov çıxışında ümummilli lider Heydər Əliyevin Azərbaycanda müasir hüquqi dünyəvi dövlətin banisi olaraq milli dövlətçilik konsepsiyasının müəyyən edilməsində, ölkənin hüquq və qanunvericilik sisteminin qurulmasında, yüksək beynəlxalq standartlara uyğun məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində, müasir tələblərə cavab verən dövlət idarəetmə sisteminin, o cümlədən hüquq mühafizə orqanlarının formalaşdırılmasında misilsiz xidmətlərini qeyd edib. Bildirib ki, Azərbaycanda ölkənin əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, hakimiyyətin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələri olub.

Konfransın işinə yekun vuran Zakir Qaralov prokurorluq orqanlarının bütün əməkdaşları adından əminliyini bildirib ki, prokurorluğun kollektivi daim Heydər Əliyev ideyalarına sadiq olacaq, onun unudulmaz xatirəsini əziz tutacaq və bütün qüvvələrini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında bu möhtəşəm ideyaların həyata keçirilməsinə istiqamətləndirəcək.

Tədbirin sonunda "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış "Vətənə, xalqa həsr edilən ömür" filmi nümayiş etdirilib.

# Ulu öndərin əbədiyaşar xatirəsinə böyük ehtiram





Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 95 illiyi ilə əlaqədar Səbail rayonunda silsilə tədbirlər keçirilir. Rayonun idarə, müəssisə və təşkilatlarında, elm, təhsil, mədəniyyət və səhiyyə müəssisələrindəki tədbirlərdə ulu öndərin əziz xatirəsi dərin hörmət və ehtiramla anılır.

Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun, rayonun idarə və təşkilat, ali və orta təhsil müəssisələrinin, veteran və gənclər təşkilatlarının, din xadimlərinin, ictimaiyyətin nümayəndələrinin, Milli Məclis deputatlarının, elm və mədəniyyət xadimlərinin və çoxsaylı qonaqların iştirakı ilə Müslüm Maqomayev adına Dövlət Filarmoniyasında ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş klassik musiqi gecəsi keçirilmişdir.

Rayon icra hakimiyyətinin Dövlət Filarmoniyası ilə birgə təşkil etdikləri gecədə qeyd olunmuşdur ki, ulu öndərin Azərbaycanda hakimiyyətə gəldiyi ilk illərdə onun təşəbbüsü ilə mədəniyyətin bir çox sahələrinə, o cümlədən klassik və simfonik musiqiyə insanların marağının və bu sahədə biliklərinin artırılması, bu musiqini geniş tamaşaçı kütləsinə sevdirmək məqsədilə Müslüm Maqomayev adına Dövlət Filarmoniyasında respublikanın dövlət xadimlərinin, xalq təsərrüfatının bütün sahələrinin rəhbər işçilərinin, elm və mədəniyyət, partiya, həmkarlar ittifaqları və komsomol sahələrində çalışanların, bir sözlə, ovaxtkı siyasi elitanın iştirakı ilə klassik musiqi gecələri təşkil olunurdu. Dünya və Azərbaycan bəstəkarlarının simfonik və klassik əsərləri səslənən bu gecələrdə ulu öndər hər zaman özü, çox vaxt isə ailə üzvləri ilə birlikdə iştirak edirdi.

Ulu öndərin doğum günü ərəfəsində onun əziz xatirəsinə ehtiram olaraq ötən əsrin 70-ci illərindəki klassik musiqi gecələrini xatirələrdə əks etdirən və ulu öndər Heydər Əliyevin ən çox sevdiyi klassik əsərlərin yer aldığı proqram təşkil olunmuşdur.

Səhnədəki monitorlarda ulu öndər Heydər Əliyevin portreti canlandırılmışdı. İlk olaraq Azərbaycan Respublikasının xalq artisti Ağaverdi Paşayevin bədii rəhbəri və baş dirijoru olduğu Azərbaycan Dövlət Xalq Çalğı Alətləri orkestrinin ifasında Üzeyir Hacıbəylinin "Koroğlu" operasından "Cəngi" səsləndi.

Sonra Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestrinin müşayəti və İlahə Hüseynovanın dirijorluğu ilə dünya şöhrətli Azərbaycan bəstəkarları Fikrət Əmirov, Tofiq Quliyev, Müslüm Maqomayev, Niyazi, Cahangir Cahangirov, Firəngiz Babayeva, Polad Bülbüloğlu, Emin Sabitoğlu, Kamal, Musa Mirzəyevin ölməz əsərləri respublikanın əməkdar artistləri Zemfira İsmayılova, Almaz Orucova, Aqşın Abdullayev, İlham Nəzərovun və digər tanınmış incəsənət xadimlərinin ifalarında səslənmişdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# “Ədəbiyyatda Heydər Əliyev obrazı:

## tarixi gerçəklikdən ideala” adlı kitabın təqdimatı olub






Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən nəşr edilən ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş “Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala” adlı kitabın Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzi ilə birgə təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açaraq müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı əvəzsiz xidmətlərindən danışıb. Akademik İsa Həbibbəyli deyib: “Heydər Əliyev ədəbiyyatı, Azərbaycan ədəbi-ictimai fikrini xalqın böyük ideallarına doğru məharətlə istiqamətləndirmiş və inkişaf etdirmişdir. Məhz ulu öndər Heydər Əliyevin apardığı məqsədyönlü siyasət sayəsində XX əsrin 70-80-ci illərindən Azərbaycan ədəbiyyatı milli mənəvi dəyərləri vəsf etmiş və xalqın tarixi ilə bağlı mövzulara və şəxsiyyətlərə doğru böyük dönüş baş vermişdir. Bu isə nəticə etibarilə Azərbaycanda cəmiyyət həyatında ümummilli ideallar uğrunda mübarizənin böyük hərəkat səviyyəsinə qaldırılmasına gətirib çatdırmışdır”.

Bildirib ki, ulu öndər Azərbaycan xalqının çoxəsrlik tarixində azərbaycançılıq təlimini müstəqil dövlətin ideologiyası səviyyəsinə çatdırıb, respublikamızın siyasi-ideoloji və iqtisadi-mədəni inkişaf konsepsiyasının möhkəm əsaslarını yaradıb.

Akademik İsa Həbibbəyli qeyd edib ki, bu günə qədər Heydər Əliyevin ədəbiyyata qayğısından çox yazılsa da, bu mövzu bitməyib. Amma “Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala” kitabında ilk dəfə olaraq ədəbiyyatda Heydər Əliyev obrazı tədqiqata cəlb edilib. Kitabda görkəmli sənətkarların və yeni ədəbi nəsillərin müxtəlif janrlarında bu istiqamətdəki yaradıcılıq axtarışları geniş təhlil olunaraq elmi-nəzəri ümumiləşdirmələr aparılıb. Monoqrafiyada həmçinin müasir şəraitdə ədəbiyyatda Heydər Əliyev ideallarının yaşadılmasının davam etdirilməsi və bədii obrazın yeni təfəkkür əsasında canlandırılması məsələlərinə də işıq salınır.

Akademik çıxışında Azərbaycan-Misir ədəbi əlaqələrindən danışaraq bildirib ki, bu gün Misir universitetlərində Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Cəlil Məmmədquluzadə ayrıca kurs kimi tədris olunur.

Tədbirdə çıxış edən Misir Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin sədri Əhməd Sami Əl-Aydi ümummilli lider Heydər Əliyevin Azərbaycan-Misir əlaqələrinin banisi olduğunu bildirib. O qeyd edib ki, Misirdə xarici dövlət liderlərindən yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin heykəli vardır.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru Oktay Səmədov isə çıxışında kitabı ədəbiyyatda ulu öndərin obrazını verən mühüm tədqiqat əsəri kimi dəyərləndirib və bildirib ki, monoqrafiya tədqiqatçılar, mütəxəssislər üçün faydalı mənbədir.

Konfransda AMEA-nın müxbir üzvü Tehran Mustafayev “Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala” adlı məruzə ilə çıxış edib.

Daha sonra filologiya üzrə elmlər doktorları Yaşar Qasımbəyli, Elnarə Akimova, professor İmamverdi Həmidov çıxış edərək “Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala” kitabı haqqında fikirlərini bölüşüblər.

# “Prezident İlham Əliyev və mədəniyyət” silsiləsindən 2013-2018-ci illəri əhatə edən ikicildlik kitab işıq üzü görüb

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Prezident Kitabxanasının və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) birgə layihəsi olan “Prezident İlham Əliyev və mədəniyyət” silsiləsindən 2013-2018-ci illəri əhatə edən növbəti ikicildlik kitab çapdan çıxıb. AZƏRTAC xəbər verir ki, “Prezident İlham Əliyev və mədəniyyət (2013-2018)” kitabı dövlət başçısının birinci və ikinci prezidentliyi dövründə mədəniyyət və turizm sahələrinin inkişafı ilə bağlı görülən işlərə dair əvvəllər nəşr olunmuş ikicildliklər silsiləsinin davamı və bu seriyadan üçüncü topludur.

“Prezident İlham Əliyev və mədəniyyət (2013-2018)” ikicildliyinin 1-ci cildinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu illər ərzində milli-mədəni irsimizə, mənəvi dəyərlərimizə bağlılığını, ehtiramını, qayğısını ifadə edən nitqləri, çıxışları, müsahibələri, mədəniyyət və turizm obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakına dair materiallar daxil edilib.



Toplunun 2-ci cildinə Azərbaycanın ictimai-mədəni həyatında və turizm sahəsində baş verən mütərəqqi yeniliklərin, əldə olunan nailiyyətlərin və hər iki sahədə dinamik yüksəlişin fundamental bazasını təşkil edən normativ hüquqi sənədlər, dövlət başçısının mədəniyyət xadimlərinə, ölkəmizin təşəbbüsü ilə təşkil olunan beynəlxalq tədbirlərin iştirakçılarına və Azərbaycan xalqına ünvanladığı təbrik məktubları daxil edilib.

Növbəti ikicildlik də Prezident İlham Əliyevin mədəniyyət və turizm sahəsində həyata keçirdiyi mütərəqqi siyasəti araşdıran tarixçilər, ədəbiyyatşünaslar, kulturoloqlar, ali məktəblərin müəllim və tələbələri, həmçinin oxucular üçün zəngin məlumat mənbəyidir.

İkicildlikdə Prezident İlham Əliyevin iştirak etdiyi tədbirlərdə çəkilmiş fotoşəkillər də yer alıb.

“Prezident İlham Əliyev və mədəniyyət (2013-2018)” toplusunun layihə rəhbəri və ikicildliyin giriş sözünün müəllifi Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayevdir.

Kitabın tərtibçiləri UNESCO-nun “İnformasiya hamı üçün” Azərbaycan Komitəsinin sədri, tarix elmləri üzrə fəlsəfə doktoru, dosent Lətifə Məmmədova və Prezident Kitabxanasının direktoru, əməkdar mədəniyyət işçisi Mayıl Əhmədovdur.

# Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin XV iclası başa çatıb



Bakıda keçirilən Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin XV iclası mayın 8-də işini başa çatdırıb. AZƏRTAC xəbər verir ki, iclasın sonunda Birgə Bəyanat qəbul olunub. Bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normalarına uyğun həlli məsələsi bir daha dəstəklənib.

Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin XV iclasının ikinci - sonuncu günündə 1992-ci il mayın 8-də Şuşanın müdafiəsi zamanı həlak olmuş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. İclasın əsas müzakirə mövzusu da “Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar: mövcud vəziyyət və gözləntilər” olub.

Bu cür münaqişələrin regionda sabitliyin və təhlükəsizliyin pozulmasına gətirib çıxardığını deyən Xarici İşlər Nazirliyinin əməkdaşı, səfir Kamil Xasıyev Dağlıq Qarabağ problemi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qətnamələrini, Avropa Şurası Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının və digər qurumların məlum sənədlərini xatırladıb. Bildirib ki, beynəlxalq qurumların sənədlərinə və hüququn tələbinə baxmayaraq, Ermənistan hərbi təcavüzünü davam etdirir, Azərbaycan ərazilərini işğal altında saxlayır, azərbaycanlı qaçqın və məcburi köçkünlərin yurd-yuvasına qayıtmasının qarşısını alır. Ermənistan silahlı qüvvələri təmas xəttindəki yaşayış məntəqələrimizi də atəşə tutur, hərbçilərlə bərabər mülki şəxsləri də hədəfə alır. Diplomat diqqəti Avropa İttifaqı ölkələrinin şirkətlərinin Azərbaycanın işğal olunmuş ərazilərindəki qanunsuz fəaliyyətinə yönəldərək qurumun buna münasibət göstərməsinin vacibliyini önə çəkib. Əlavə edib ki, Ermənistan Suriyadan olan etnik erməniləri Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirməklə azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz evlərinə qayıtmasının qarşısını alır. Qurum Suriyadan gələn ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərində deyil, Ermənistanda yerləşdirilməsini dəstəkləməlidir. Azərbaycan Avropa İttifaqından ərazi bütövlüyü ilə bağlı birmənalı mövqe gözləyir.

XİN rəsmisi qeyd edib ki, Azərbaycan ikitərəfli, üçtərəfli əməkdaşlıq formatlarını ərsəyə gətirməyə nail olub. Azərbaycan-Rusiya-İran üçtərəfli əməkdaşlıq formatı “Şimal-Cənub nəqliyyat dəhlizi”nin formalaşmasında mühüm rol oynayır. Azərbaycan regional layihələrin ən fəal iştirakçısıdır. Ölkəmizdə Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu layihələri uğurla həyata keçirilib. Amma Dağlıq Qarabağ münaqişəsinin hazırkı durumu ölkəmizin iqtisadi inkişafını əngəlləyir.

Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən və 1993-cü ildə ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra qarşıda duran mühüm məsələlərdən birinin nəinki region dövlətləri, bütövlükdə dünya dövlətləri ilə əlaqələrin möhkəmləndirilməsi və Azərbaycanın beynəlxalq miqyasda tanıdılması olduğunu qeyd edib. O xatırladıb ki, 1994-cü ildə “Əsrin müqaviləsi” imzalanandan sonra Azərbaycanın region dövlətləri, eyni zamanda region ölkələri vasitəsilə Avropa dövlətləri ilə iqtisadi, siyasi, ticari əməkdaşlığı qurulub. Azərbaycan bu gün müstəqil siyasət aparan bir dövlətdir. Ölkəmiz region dövlətləri ilə əməkdaşlığı genişləndirib və Avropanın karbohidrogen ehtiyatları ilə təmin olunmasında mühüm rol oynayır. Bütün bunlar ona görədir ki, Azərbaycan müstəqil dövlətdir və müstəqil siyasət yürüdür. Ölkəmiz dünya dövlətləri ilə iqtisadi-ticarət münasibətlərini möhkəmləndirir. Bu əməkdaşlığın böyük potensialı var. Amma bu əməkdaşlığın genişləndirilməsinə mane olan yeganə səbəb var ki, bu da Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasətidir. “Biz, əlbəttə, istərdik Ermənistanla əməkdaşlıq olsun, sülh olsun, amma bir şərtlə ki, işğal edilmiş Azərbaycan torpaqları azad edilməli, Ermənistan özünün işğalçılıq siyasətindən əl çəkməlidir. Bütün regionda sabitlik və sülh yaranmalıdır ki, Cənubi Qafqaz regionu sürətlə inkişaf etsin. Sürətli inkişafa bütün potensial var, sadəcə, Ermənistan buna mane olur. Biz siyasətçi deyilik, parlamentarilərik. Hesab edirəm, burada səmimi söhbət edə bilərik. Azərbaycana qarşı ikili standartlar yürüdürlər, amma Ermənistana qarşı sanksiyalar tətbiq edilmir. Bu işdə Avropa İttifaqına, Avropa Parlamentinə nə mane olur?! Axı Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünün pozulmasına dair özü qətnamə qəbul edib”, - deyə Ziyafət Əsgərov bildirib.

“Beynəlxalq hüquqda ədalət prinsipi pozulub” deyən birinci vitse-spiker diqqətə çatdırıb ki, Avropa İttifaqı Azərbaycana qarşı ikili siyasət həyata keçirir. Bu gün Azərbaycanın işğal olunmuş ərazilərində narkotik bitkilər yetişdirilir. Hazırda Avropada satılan narkotik vasitələrin əksəriyyəti işğal altındakı ərazilərdə yetişdirilir. Avropa İttifaqı isə buna reaksiya vermir.

Ermənistanın işğalçılıq siyasəti nəticəsində bir milyondan artıq azərbaycanlı öz ölkələrində qaçqın və məcburi köçkün həyatı yaşayır. Onların böyük bir hissəsi qadın və uşaqlardır.

Bu fikirləri isə Milli Məclisin deputatı Sahibə Qafarova deyib.

Deputat diqqətə çatdırıb ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində minlərlə vətəndaşımız, o cümlədən qadın və uşaqlar qətlə yetirilib, bir milyondan çox vətəndaşımız qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olub. Azərbaycana qarşı bu işğalçılıq siyasətindən qadınların və uşaqların çəkdiyi zərərlər birbaşa itkilərlə yanaşı, həm də sonrakı mərhələdə ciddi iqtisadi, sosial çətinliklərlə müşayiət olunub. Qadın qaçqın və məcburi köçkünlərin bu gün üzləşdikləri əsas problemlərdən biri onların bərpa və inteqrasiyası ilə bağlıdır. Belə ki, qadın qaçqın və məcburi köçkünlərin münaqişə dövründə yaşadıqları zorakılıqların yaratdığı ciddi psixoloji travmalar sonrakı dövrdə onların həyatında mənfi fəsadlara yol açıb. Bu, onların cəmiyyətə inteqrasiyasında da böyük çətinliklər yaradıb. Başqa bir mühüm məsələ isə əsir və itkin düşmüş, girov götürülmüş şəxslərlə bağlıdır. Bir çox qadınlar müharibədə itirilmiş qohumlarının, ailə üzvlərinin yükünü bütün həyatları boyu daşıyırlar. Eyni zamanda, minlərlə azərbaycanlı qadın əsir və itkin düşüb. Azərbaycan dövləti 20 ildən artıqdır ki, beynəlxalq ictimaiyyətlə birlikdə həmin şəxslərin azad edilməsi uğrunda çalışır. Bu məsələdə beynəlxalq təşkilatların dəstəyi olduqca vacibdir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, deputatlar Asim Mollazadə, Flora Qasımova, Elman Nəsirov və başqaları da Ermənistanın işğalçılıq siyasətindən, Avropa İttifaqının ikili standartlarından danışaraq əməkdaşlığın inkişafı üçün qarşılıqlı etimadın və hörmətin vacibliyini önə çəkiblər. Dağlıq Qarabağ münaqişəsinin bütövlükdə Avropa üçün təhlükə olduğu qeyd edilib. Regionda sülhün və təhlükəsizliyin önəmi vurğulanaraq diqqətə çatdırılıb ki, Azərbaycan Cənubi Qafqazda sabitliyin qorunub saxlanılmasında çox önəmli tərəfdaşdır.

Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin sədri Sayyad Kərim bildirib ki, biz həmişə Azərbaycanın ərazi bütövlüyünü tanımışıq və tanımaqda da davam edəcəyik.

Avropa Parlamentinin vitse-spikeri Hadi Hautala münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduqlarını dilə gətirib.

Avropa Xarici Fəaliyyət Xidməti və Avropa Komissiyasının Qonşuluq və Genişlənmə Danışıqları üzrə Baş İdarəsinin rəhbəri Vassilis Maraqos vurğulayıb ki, qurumun Bakıdakı nümayəndəliyi vasitəsilə Azərbaycana yardım edilir. Bu il burada nəqliyyat sahəsində investisiya proqramları həyata keçiriləcək. Gənclərin akademik səviyyədə mübadiləsi ilə bağlı Şərq Tərəfdaşlığı ölkələri üçün 200 milyon avro ayrılıb. Bu sahədə də Azərbaycanla əməkdaşlıq ediləcək. O, Avropa İttifaqının Dağlıq Qarabağ ərazisindən heç bir mal və xidmət ixrac etmədiyini vurğulayıb. Bildirib ki, Avropa Komissiyası bununla bağlı ölkələrə müvafiq bildirişlər göndərib.

“Regional əməkdaşlıq və Azərbaycan üçün çağırışlar” mövzusunda müzakirələrdə bildirilib ki, ölkəmiz regional əməkdaşlığa böyük önəm verir. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təminində önəmli rol oynayır. “Şimal-Cənub nəqliyyat dəhlizi” çəkilir, yaxın zamanlarda TAP və TANAP enerji layihələrinin istifadəyə verilməsi nəzərdə tutulur.

Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Cavanşir Feyziyev yekun çıxışında bu müzakirələrin qurumla ölkəmiz arasında əlaqələrin inkişafına xüsusi töhfə verəcəyini, qarşıdakı əməkdaşlıq üçün yeni zəmin yaratdığını vurğulayıb: “Azərbaycan gözləyir ki, Avropa İttifaqının digər işğal olunmuş ərazilərdə tətbiq etdiyi normalar Azərbaycanın işğal olunmuş ərazilərində də tətbiq olunsun. Avropa İttifaqı mal və xidmətlərin işğal olunmuş ərazilərə çatdırılmasının qarşısını ala bilər. Avropa İttifaqı Azərbaycanın işğal olunmuş ərazilərində hüquqi və fiziki şəxslərin fəaliyyətinin qarşısını almalıdır”.

Aparılan müzakirələrin yekunu olaraq Birgə Bəyanat qəbul olunub.

Cavanşir Feyziyev qeyd edib ki, bəyanatda Dağlıq Qarabağ münaqişəsinin regiondakı vəziyyəti qeyri-sabit saxladığı bir daha vurğulanır, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn normalarına uyğun həlli dəstəklənir. Eləcə də Dağlıq Qarabağ münaqişəsi nəticəsində evlərindən köçkün düşmüş insanların hüquqlarının qeyd-şərtsiz bərpa edilməsinə, öz yurdlarına qaytarılmasına dəstək ifadə olunur. Bəyanatda Avropa İttifaqı ilə Azərbaycan arasında yüksəksəviyyəli yeni əməkdaşlıq sazişinin imzalanması da parlamentarilər tərəfindən dəstəklənir.

İclasın yekunu olaraq keçirilən mətbuat konfransında tərəflər müzakirə olunan məsələlərdən və qəbul edilən sənəddən razı qaldıqlarını bildiriblər.

“Azərbaycanda çox yüksəksəviyyəli görüşlər keçirdik. Əlaqələrin gələcəkdə də inkişaf etdirilməsi üçün hər iki tərəfdə siyasi iradə var. Parlamentarilər münasibətləri yaxınlaşdırmaqla hökumətlərarası əməkdaşlığa dəstək vermiş olurlar. Azərbaycan xalqı mühüm bir hadisəni - Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edir. Bu münasibətlə Azərbaycan xalqını təbrik edirəm”, - deyə Sayyad Kərim qeyd edib.

Komitənin növbəti toplantısı gələn ilin payızında Avropa ölkələrindən birində keçiriləcək.

# Ulu öndər Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsində ehtiramla anıldı



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsində “Heydər Əliyev Dövlət Sərhəd Xidmətinin yaradıcısıdır” mövzusunda konfrans keçirilmişdir.

Konfransda Milli Məclisin deputatları Musa Qasımlı, Aydın Mirzəzadə, Jalə Əliyeva və Yeni Azərbaycan Partiyasının Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov və digər şəxslər iştirak ediblər.

Konfrans iştirakçıları ilk öncə Sahil Mühafizəsinin Heydər Əliyev İdeoloji Mərkəzində ulu öndərin büstü önünə gül dəstələri qoymuş və ümummilli liderin həyat və fəaliyyətini əks etdirən zəngin fotoekspozisiya ilə tanış olmuşlar.

Tədbirdə çıxış edənlər ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərindən söz açmış, tarixə öz adını əbədi həkk etmiş nadir şəxsiyyətin, hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilmiş, vətəninə hədsiz məhəbbət, xalqının tarixinə, mədəniyyətinə, milli-mənəvi dəyərlərinə böyük sevgi nümunəsi olan qüdrətli siyasi xadimin həyat və fəaliyyətindən danışmışlar.

Dahi şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi illərin intibah, milli tərəqqi, müstəqil dövlət quruculuğu dövrü olduğunu qeyd edilən tədbirdə böyük dövlət xadiminin müstəqil Azərbaycanın sərhəd mühafizəsinin inkişafındakı misilsiz xidmətləri minnətdarlıq hissi ilə xatırlanmışdır.

Ulu öndərin müəllifi olduğu milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında müvəffəqiyyətlə həyata keçirilməsi, ardıcıl aparılan islahatlar sayəsində Dövlət Sərhəd Xidmətinin sürətlə inkişaf edərək ölkəmizin sərhədlərini ən yüksək standartlar səviyyəsində mühafizə etməyə qadir olan bir quruma çevrilməsi qürur hissi ilə vurğulanmışdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə əldə edilən uğurların ulu öndər Heydər Əliyevin zəkasının təcəssümü, əmanət qoyub getdiyi ideyalarının təntənəsi olduğu xüsusi qeyd edilmişdir.

Tədbirin sonunda ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş etdirilmişdir.

***E.HADIYEV,***
***“Azərbaycan”***

**Azərbaycan Qələbənin əldə olunmasında çox böyük rol oynamışdır - həm ön cəbhədə, həm də arxa cəbhədə. Altı yüz mindən çox Azərbaycan nümayəndəsi müharibədə iştirak etmiş, onlardan 300 mini həlak olmuşdur. Azərbaycan xalqı müharibə illərində qəhrəmanlıq göstərmişdir. Azərbaycanın bir çox nümayəndələri yüksək orden və medallarla təltif olunmuşlar. Arxa cəbhədə - Azərbaycanda böyük işlər görülmüşdür.**

**İlham ƏLİYEV**

GILAN HOLDING

Azərbaycan xalqını

9 MAY FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏ GÜNÜ

münasibətilə təbrik edir, işğal altında olan torpaqlarımızın

ALİ BAŞ KOMANDANIN

rəhbərliyi altında tezliklə azad olunmasını arzulayır!



# 1945 Faşizm üzərində Qələbədən 73 il keçir 2018

Müharibədən onu gözləri ilə görüb, həmin dəhşətləri yaşamağa məhkum olanlar daha yaxşı danışa bilərlər. Qayğısız uşaqlıq illərini yaşamağa macal tapmayan, "vaxtından tez böyüyən", evin, ailənin başbiləni kimi gecə-gündüz çalışmağa məcbur olan, aclığın, səfalətin nə demək olduğunu zülmət gecələrdə yuxusu ərşə çəkilmiş anasının qəm-qüssə dolu baxışlarından yağan kədər və hüzndən anlayanların sonrakı taleləri yaxşı gətirsəydi nə vardı ki...



## Odlu-alovlu illərin xatirələri

*96 yaşlı veteranın ömür yolunun səhifələrindən*

İndi o ölüm-dirim səhnələri ilə dolu müharibə illərindən xeyli vaxt keçir. Nə az-nə çox, bizi 73 illik bir zaman ayırır o dəhşətli günlərdən. Böyük Vətən müharibəsi tarixə sovet xalqlarının faşizm üzərində qələbəsi ilə yazıldı.

Həmin qanlı-qadalı günlərin canlı şahidlərindən, müharibənin ilk illərindən o dəhşətləri həyatında yaşadanlardan, əlinə silah alıb düşmən üzərinə gedənlərdən, sonda Vətənə qələbə müjdəli soraqla qayıdanlardan biri də 96 yaşlı Nuriyev Nəbi Balı oğludur. 1922-ci il mart ayının 12-də Vedibasar mahalının Vedi rayonunun Ərmik kəndində dünyaya göz açan Nəbi atasını erkən itirib. Ona görə də kiçik qardaşı Əyyubla ailənin qayğılarını çəkib: ağır işlərdə çalışmağa məcbur olub.

Veteranın nəvəsi, tarix müəllimi, Nizami adına Göyçay şəhər 7 saylı tam orta məktəbin tərbiyə işləri üzrə direktor müavini Aqil Kəngərli babasının ömürnaməsinə həsr etdiyi "Xatirələr dil açsaydı..." kitabında yazır: "Barmaqla sayılacaq qədər qalan veteranlarımızın döyüşlərdə göstərdiyi vətənpərvərlik bir örnəkdir. Ona görə də onların acılı-şirinli xatirələrinin toplanıb gələcək nəsillərə çatdırılması çox vacibdir. Mən də tarixçi olduğumdan, çalışıram ki, yüzə doğru addımlayan babamın döyüş yollarında qalan xatirələrini yaşadam. Maraqlı olduğu qədər də əzab və işgəncələrlə dolu ömürnaməsindən məlum olur ki, İkinci Dünya müharibəsinin başlanması babam Nəbini də çətin vəziyyətə salıb. O, 1942-ci il fevralın 28-də cəbhəyə yola salınıb. 130-cu atıcı alayın tərkibində döyüş yolu keçən Nəbi Nuriyev elin, mahalın və evin igid oğullarından biri kimi tanınıb. Döyüşlərdə göstərdiyi şücaətə görə ona çavuş rütbəsi verilərək bölmə komandiri vəzifəsi tapşırılıb. Sovet-yapon müharibəsində də o, ağır döyüşlərdən keçib. Yaponların cəngavər generalı sayılan Kvantın döyüşən ordusu ilə üz-üzə gəlib. O, burada da qəhrəmanlığını və cəsurluğunu göstərib. Yaponiyanın Vadlin şəhərinədək döyüş yolunu davam etdirən Nəbi Nuriyev həmin ordunun təslim olunması əməliyyatında da xüsusi fəallığı ilə seçilib".

...Müharibənin qələbə ilə başa çatması, gedənlərin geri qayıtması kimi xoş xəbərlər - müjdələr 1946-cı ilin dekabr ayında onun da ailəsinin qapısını döyüb. O, Azərbaycana qələbə ilə dönüb. Müharibənin hər sahəyə vurduğu zərbələrin Azərbaycandan da yan keçmədiyini görən Nəbi gəncliyini döyüş meydanlarında itirib, amma bir ildən sonra ailə qurub: "Ağlıma da gəlməzdi ki, uğrunda canımı verməyə hər an hazır olduğum İ.V.Stalin bir sənəd imzalamaqla yüz minlərlə vətənpərvər azərbaycanlını doğma yurdundan perik salacaq". Deportasiya adı altında onun da ailəsini, ata-babasının doğulduğu torpağı ermənilərə hədiyyə edəcək. İnanmazdı, amma bu, acı da olsa, tarixdir: SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 17 noyabr 1937-ci il tarixli qərarına əsasən, 1949-cu il dekabrın son günlərində o da digər həmvətənləri kimi, indiki Ermənistan adlanan yurdundan deportasiya edilib və Azərbaycanın İmişli rayonunun Qaralar (Əzizbəyov) kəndinə köçürülüb. Kəndin ağsaqqallarından olan Qurban kişi onun da ailəsinə sığınacaq verib. O zaman kolxoz sədri Mirəli Nəbini taxılçılıq sahəsinə briqadir təyin edib. O, dünyanın ağlı-qaralı günlərini yaşadığından, kolxoz sədrinin bu etimadını doğrultmaq üçün var qüvvəsi ilə çalışıb. Aclıq illərində bir buğda dənəsinin belə itkiyə getməməsinin qarşısını alıb. Bunu görən təsərrüfat rəhbəri onun oxuyub təhsil almasını da unutmayıb. Nəbi Nuriyev Ağdamdakı kənd təsərrüfatı kadrlarının ixtisasartırma məktəbinə daxil olub..."

Təqaüdə çıxana kimi kolxozda müxtəlif vəzifələrdə çalışan Nəbi Nuriyev müharibə və əmək veteranı kimi də el-oba, ictimaiyyət arasında sayılıb-seçilib.

...O, həm də qayğıkeş ailə başçısıdır: 4 oğul, 6 qız atası, 30-a yaxın nəvə, 30-dan artıq nəticənin sevimli babasıdır...

Şərəfli ömür sürmüş, həm də ağır döyüş yolu keçmiş veteran dövlət və hökumət tərəfindən daim qayğı görüb. Uzaq Şərqdə yaponlara qarşı aparılan döyüşlərdə göstərdiyi igidliyə və şücaətlərə görə, komandiri olduğu bölmənin şəxsi heyəti adından və Ali Baş Komandanın 23 avqust 1945-ci il tarixli əmrinə əsasən təşəkkürnamə alıb. 5 iyul 1946-cı ildə isə SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə yapon imperialistlərinə qarşı döyüşlərdə fədakar iştirakına görə səhra hərbi hissə komandiri, mayor Levçenkonun imzası ilə "Yaponiya üzərində qələbəyə görə", həmçinin faşizm üzərində qələbənin 20, 40, 50, 60 və 65 illik yubiley medalları ilə təltif edilib. O, SSRİ Ali Soveti Rəyasət Heyətinin 11 mart 1985-ci il tarixli fərmanı ilə 1941-1945-ci illər Böyük Vətən müharibəsində göstərdiyi şücaətə, sovet xalqlarının alman-faşist işğalçıları üzərində qələbənin 40 illiyi münasibəti ilə "II dərəcəli Vətən Müharibəsi Veteranı" yubiley medalı və SSRİ Ali Soveti Rəyasət Heyətinin 28 yanvar 1988-ci il tarixli Fərmanı ilə "SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" ordeninə layiq görülüb.

Nəbi Nuriyevin təltifləri sırasında bir sənəd də var. Bu sənədi əvvəlkilərindən daha dəyərli yadigar kimi əzizləyir. Bu, ulu öndər Heydər Əliyevin Böyük Vətən müharibəsində faşizm üzərində çalınan qələbənin 55 illiyi ilə əlaqədar 2000-ci ildə imzaladığı sərəncamdır. Həmin sərəncamla Nəbi Nuriyev də "1941-1945-ci illər müharibəsi veteranı" döş nişanı ilə təltif olunub.

Ömrünün yüzünə doğru yolda hələ qıvraq görünən Nəbi Nuriyevin bu il mart ayında 96 yaşı tamam olub. O illəri xatırlayan veteran deyir ki, Azərbaycandan çox-çox uzaqlarda düşmənlə üz-üzə gələndə arxa cəbhədəkilər onların yollarını və qələbəni səbirsizliklə gözləyirdilər. Bu hiss isə döyüşçülərimizi daim irəli, düşmən üzərinə qorxmadan, çəkinmədən aparırdı. Həmin döyüşlərdən alnıaçıq-üzüağ, qələbə ilə qayıdanların cəbhə xatirələri nəvə-nəticələrinə nağıl kimi gəlirdi. Sən demə, müharibənin od-alovları "müharibə nağılları" ilə böyüyənlərin özlərini də bir cəbhə həyatı gözləyirmiş.

Ötən əsrin doxsanıncı illərində erməni daşnaklarının torpaqlarımıza qəfil hücumlarında könüllü olaraq döyüşlərə yollananlara xeyir-dua verənlərdən biri də müharibənin od-alovunun içərisindən keçib gəlmiş Nəbi Nuriyev idi. Bu dəfə qanlı döyüşlər uzaqlarda yox, Azərbaycan torpaqlarında gedirdi. Azğınlaşmış erməni daşnak quldur dəstələrinin torpaqlarımıza amansız hücumlarının qarşısının alınmasında qəhrəmanlıq göstərib şəhidlik zirvəsinə ucalanlar arasında bədənində o illərin ağrı-acısını və güllə qəlpələrini gəzdirən Nəbi Nuriyevin də doğmaları, qohum-əqrabaları az deyil. Ömrünün ixtiyar çağlarında da Nəbi babanın arzuları təzə-tərdir. Deyir ki, bircə Qarabağımızı azad görsəydim, bir qayğım, dərd-sərim qalmazdı. Bu tarixi və şərəfli Qələbəni görəcəyinə isə əmindir veteran baba...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

## Stalinqraddan Berlinədək top arxasında olub

Daster Lerikin ucqar dağ kəndidir, rayon mərkəzindən 35-40 kilometr aralıdadır. İlk dəfə buraya yolum 1968-ci ilin baharında düşmüşdü. Meşələrdən keçən cığırla at belində getmişdim. Məktəbdə müəllimlərlə görüşmüşdüm, gəlişimin məqsədini demişdim: "Üç "Şöhrət" ordenli Əli Hüseynov haqqında yerli qəzetə material yazmaq istəyirdim".

O illərdə Əli dayı kənddəki "Mədəniyyət" kolxozunda briqadir işləyirdi. Gün günorta yerindən əyiləndə iş üstündən qayıtdı, evə dəvət etdi. Söz-sözü çəkdi, söhbət müharibə illərindən düşdü. Əlini dən düşmüş saçlarında gəzdirə-gəzdirə söhbətə başladı:

- 1939-cu ildə 21 yaşım vardı. Kolxozda hesabdar müavini işləyirdim. Evli idim, oğlum dünyaya gəlmişdi. Hərbi komissarlığa çağırıb orduya göndərdilər. Brest şəhərində xidmət edirdim. İki il keçməmişdi müharibə başlandı. Başqa hissələr kimi, bizim polk da düşmən gülləsinə birinci tuş gəlmişdi. Çox ağır vaxtlar idi. Hər qarış torpaq uğrunda ölüm-dirim mübarizəsi gedirdi. Sıravi topçusu olduğum divizya şərqə doğru çəkilirdi. Tozlu yollar, yanan kəndlər, bombardman edilmiş şəhərlər, güllələnmiş dinc əhali ürəyimi ağrıdırdı.

Əli dayı söhbətinə azca ara verib sözünə davam etdi: - Qırx ikinci ilin yayında Stalinin 277 nömrəli əmri elan olundu. Əmrdə deyilirdi ki, geriyə yol yoxdur. Torpaqlarımızın hər qarışını son damla qanımıza kimi müdafiə etməliyik. Bu əmr əldən-ələ gəzdi, qəlbimizi riqqətə gətirdi. Kurqan vilayətindən keçmiş traktorçu Pyotr Sitnikovla ikimiz bir topun arxasında Stalinqraddan Berlinədək döyüş yolu keçdik.

Söhbətin bu yerində Əli dayı nə fikirləşdisə, ayağa qalxıb qonşu otağa keçib qalın qovluqla qayıtdı. "Həyatımın müharibə dövrü bu qovluqdakı sənədlərdədir" deyə stolun üstünə qoydu. Təşəkkür məktublarını, cəbhə qəzetlərini, şəkilləri, orden və medalların kitabçalarını nəzərdən keçirtdik. Kağızların çoxu saralmışdı, yazılar çətin oxunurdu. Hər biri eloğlumuzun döyüşdəki şucaətindən xəbər verirdi. Cəbhə qəzetlərindən biri yazmışdı: "Güclü qar yağmışdı, hərəkət çətinləşmişdi. Artilleriyaçılar kiçik serjant Hüseynovun topunu əllərində aparırdılar. Hücuma keçən hissənin qabağını gözlənilmədən güclü pulemyot atəşi kəsdi. Atıcılar yerə uzandılar, hücum dayandırıldı. Əli Hüseynov Pyotr Sitnikovla topu atəş xəttinə çəkərək 3 mərmi ilə düşmən pulemyotunu susdurdu. Döyüşdə qəhrəmanlıq göstərdiklərinə görə, topçular "İgidliyə görə" medalı ilə təltif olundular. Bu, Əli Hüseynovun ilk mükafatı idi".

Başqa bir cəbhə qəzeti yazmışdı ki, 1944-cü il iyulun 18-də Mejilovo yaşayış məntəqəsi uğrunda döyüşlərdə düşmənin güclü artilleriya və minamyot atəşinə baxmayaraq, qvardiya serjantı Əli Hüseynov topunu birbaşa atəş xəttinə çıxarmış, faşistlərin 5 pulemyotunu və 35 əsgərini məhv etmişdir. O, yaralansa da döyüş tapşırığını yerinə yetirmişdir. Bu qəhrəmanlığına görə döşünə III dərəcəli "Şöhrət" ordeni taxılmışdır.

Həmin günlərdə Əli Hüseynovun yaxınlarına göndərdiyi üçkünc məktub da qovluqda saxlanılırdı. Evə yazmışdı: "Biz faşist cəlladlarından güclüyük. Düşməni öz yuvasına qovuruq. Berlinə doğru məsafə günbəgün azalır".

Sonralar Əli dayının döyüş yolu Belqorod və Oryol vilayətlərindən, Ukraynadan, Pribaltikadan keçmişdi. 1944-cü ilin oktyabrında 52-ci divizya Riqa şəhərini mühasirəyə almışdı. Bu zaman kəşfiyyatdan xəbər gəlir ki, alman avtomatçıları tankların köməyi ilə hissəyə soxulmaq istəyirlər. Qvardiya serjantı Əli Hüseynovun qorxmazlığı və mətinliyi artilleriyaçıları çətinlikdən xilas edir. O, topu atəş xəttinə birinci çıxarır. Hitlerçilər xeyli itki verib geriyə üz qoyurlar. Riqanın azad edilməsində şücaəti II dərəcəli "Şöhrət" ordeninə layiq görülür.

...Əli dayı ilə divardan asılmış bir şəklin qabağında dayandıq. Dərindən köks ötürüb söhbətini davam etdirdi:

- 1944-cü il aprel ayının son günləri idi. Piyadalarımız düşməni qova-qova min kilometrlərlə yol keçmişdi. Səngərlər, minalanmış sahələr arxada qalmışdı. Berlinin lap yaxınlığında topları atəşə hazır saxladıq. Piyadalarımız şəhərə tərəf irəliləyirdi. Birdən düşmən pulemyotlarından atəş açıldı. Tüstü gələn yerə baxan kimi atəşin açıldığı yeri müəyyənləşdirdik. Topu qarşıdakı binanın ikinci mərtəbəsinə tuşladıq. Pyotr Sitnikova əmr verdim: "Ağac tərəfdəki pəncərədən atırlar, vaxt itirmə, atəş aç!" Mərmi hədəfə çatmadı, ağaca dəyib partladı. Bir göz qırpımında topun yerini dəyişdik. Bu dəfə atəşimiz sərrast oldu. Düşmənin iki topunu, 14 pulemyotçusunu məhv etdik. Şəkil onda çəkilib...

Reyxstaq alınan gün Əli Hüseynov divarlara yaxınlaşıb avtoqraf yazanlardan biri olmuşdu. Yazmışdı ki, "Azərbaycanın Daster kəndindən Əli Nəcəf oğlu Hüseynov burada olmuşdur".

Qələbə sevincinin üstünə daha bir sevinc gəldi. Berlinin alınmasında göstərdiyi qəhrəmanlığa görə Əli Hüseynov I dərəcəli "Şöhrət" ordeni almışdı. O, bu ordenin hər üç dərəcəsi ilə təltif olunan 14 nəfər Azərbaycan əsgərlərindən biridir.



Qvardiya serjantı Əli Hüseynov 1945-ci ildə cəbhədən qayıdıb təsərrüfatda çalışmışdı. Nədənsə xidmətləri diqqətdən kənarda qalmışdı. Ancaq bu uzun sürməmişdi. Ulu öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə gələndən sonra müharibə veteranlarına qayğı artdı, onların rəşadətinə layiqincə qiymət verildi. Bir gün Sovet İttifaqı Qəhrəmanları və üç "Şöhrət" ordenli veteranlarla ulu öndərin görüşü keçirildi. Görüş respublika Ali Sovetinə seçkilər ərəfəsinə düşmüşdü.

Heydər Əliyev veteranları bir-bir dinləyir. Əli Hüseynov həyatı və keçirdiyi döyüş yolu barədə rəhbərə danışır. Ulu öndər: "Belə insanları yaddan çıxarmaq olmaz" demişdi və Lerik seçicilərinə onun deputatlığa namizədliyini irəli sürməyi məsləhət görmüşdü.

Bu məsləhət Lerikin hər bir kəndində eşidilib alqışlandı. Əli Hüseynov Çayrud seçki dairəsindən deputatlığa namizəd irəli sürüldü, seçki günü ona səs verdilər. Ali Sovetin birinci sessiyasına o, Rəyasət Heyətinin üzvü seçildi. Ömrünün müdrik çağında dasterlilər yerli sovetin sədrliyini Əli Hüseynova etibar elədilər. Yol çəkdirdi, körpü saldırdı, xəstəxana tikdirdi.

Əli Hüseynovla son görüşüm 1983-cü il iyulun 13-də rayon qəzetinin redaksiyasında oldu. Ordenlərini taxmışdı, çox şən görünürdü. Sevincini bizimlə bölüşdü: "Bu gün mənimçün bayramdır. Qırx il əvvəl Kursk uğrunda döyüşlərdə düşmənə ağır zərbə qələbəyə yol açdı".

Yaşa dolduqca səhhəti ağırlaşırdı. Müharibədə üç dəfə kantuziya almışdı, bədənində qəlpələr gəzdirirdi. Uzunmüddətli müalicənin xeyri olmadı. 1987-ci il fevralın 17-də dünyasını dəyişdi. Lerik ictimaiyyəti indi unudulmaz qəhrəmanın 100 illik yubileyinə geniş hazırlıq görür. Qəhrəmanın adı ürəklərdə, arzuları övladlarının və nəvələrinin əməllərində yaşayır. Xatirəsi əbədiləşdirilmişdir. Kənddəki məktəb onun adını daşıyır.

***Həmzə VƏLİMƏMMƏDOV,***
***əməkdar jurnalist***

# Azərbaycan Respublikasının “Gəmiçilik sahəsində xidmətlərə görə” medalının və “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12, I kitab, maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12, I kitab, maddələr 2242, 2269; Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 1001-VQD nömrəli və 23 fevral tarixli 1018-VQD nömrəli qanunları) 2-ci maddəsində “Azərbaycan avtomobil yolları - 100 il (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı” hissəsindən sonra nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin:

“Gəmiçilik sahəsində xidmətlərə görə” medalı;

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” yubiley medalı.”.

**Maddə 2.** “Gəmiçilik sahəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Gəmiçilik sahəsində xidmətlərə görə” Azərbaycan Respublikası medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**Maddə 4.** “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 5.** “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” Azərbaycan Respublikası yubiley medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2018-ci il*

***Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli qanunu ilə təsdiq edilmişdir***

# “Gəmiçilik sahəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

“Gəmiçilik sahəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalı ilə vəzifələrini nümunəvi icra edən, istehsal fəaliyyətində yüksək nəticələr göstərən gəmiçilik sahəsində çalışan işçilər, habelə Azərbaycan Respublikasında gəmiçilik sahəsinin inkişafı və təkmilləşdirilməsində xüsusi rolu olan şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

“Gəmiçilik sahəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxsləri müvafiq icra hakimiyyəti orqanı təltif edir.

**Maddə 3. Taxılma qaydası**

“Gəmiçilik sahəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

***Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli qanunu ilə təsdiq edilmişdir***

# “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” Azərbaycan Respublikasının yubiley medalı ilə vəzifələrini nümunəvi icra edən, fəaliyyətində yüksək nəticələr göstərən gəmiçilik sahəsində çalışan işçilər, habelə Azərbaycan Respublikasında gəmiçilik sahəsinin inkişafı və təkmilləşdirilməsində xüsusi rolu olan şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxsləri müvafiq icra hakimiyyəti orqanı təltif edir.

**Maddə 3. Taxılma qaydası**

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

***Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli qanunu ilə təsdiq edilmişdir***

# “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” Azərbaycan Respublikasının yubiley medalı bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, bir-birinin üzərinə qoyulmuş iki səkkizguşəli ulduz formalı, diametri 40 mm olan lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Guşələri ikitərəfli hamar şüalı olan üst ulduzun üzərində iki tərəfdən konturlanmış dairəvi zolaq yerləşdirilmişdir. Zolağın yuxarı hissəsində qövs boyunca “AZƏRBAYCAN”, aşağı hissəsində qövs boyunca “XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ” sözləri yazılmışdır. “AZƏRBAYCAN” sözündən sol tərəfdə “1858”, sağ tərəfdə “2018” rəqəmləri həkk olunmuşdur. Yazılarla rəqəmlərin arasında kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

2.2. Zolağın daxilində üzərində tünd göy minalı fonda səkkizguşəli ulduzun və gəmi sükanının fraqmentləri, gəmi silueti və dəniz dalğalarından ibarət kompozisiya təsvir olunmuş dairəvi lövhə yerləşdirilmişdir. Dalğaların üzərində “160” rəqəmi həkk olunmuşdur.

2.3. Bütün yazılar, rəqəmlər və elementlər relyefli olaraq qabarıqdırlar. Səthi hamar olan alt ulduzun guşələrinin arası dalğavarı konturla işlənmişdir.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfi hamarsəthlidir, mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentin mərkəzində 5 mm enində boz rəngli, mərkəzdən sol və sağ tərəflərə doğru ardıcıl olaraq 1 mm enində ağ rəngli, 2,5 mm enində mavi rəngli, 6,5 mm enində tünd göy rəngli, 2 mm enində mavi rəngli, 1 mm enində tünd göy rəngli, 1 mm enində mavi rəngli və 2 mm enində tünd göy rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.2. Xara lentin yuxarı hissəsinə üzərində dalğalar əks olunmuş 40 mm x 5,5 mm ölçülü lövhə bərkidilmişdir.

4.3. Medala paltara bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.




***Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli qanunu ilə təsdiq edilmişdir***

# “Gəmiçilik sahəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Gəmiçilik sahəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalı bürüncdən tökülmüş və gümüş suyuna çəkilmiş, dairəvi formalı, diametri 38 mm olan lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində kənardan başlayaraq və ardıcıl olaraq hər tərəflərindən konturlanmış iki dairəvi zolaq yerləşdirilmişdir. 1-ci zolağın üzərində tünd göy minalı fonda yuxarı hissədə qövs boyunca “GƏMİÇİLİK SAHƏSİNDƏ XİDMƏTLƏRƏ GÖRƏ” sözləri yazılmış, zolağın aşağı hissəsində isə səkkizguşəli ulduz təsvir olunmuşdur. 2-ci zolağın üzərində dairə boyunca palıd yarpaqlarından ibarət çələng təsvir olunmuşdur.

2.2. Medalın ön tərəfinin mərkəzində 2-ci zolaq ilə əhatə olunmuş, üzərində gəmi sükanı, lövbər və dəniz dalğalarından ibarət kompozisiya təsvir olunmuş dairəvi lövhə yerləşdirilmişdir. Bütün yazılar və təsvirlər relyefli olaraq qabarıqdırlar.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfi hamarsəthlidir, mərkəzində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentin mərkəzində 8 mm enində mavi rəngli, mərkəzdən sol və sağ tərəflərə doğru ardıcıl olaraq 6,5 mm enində göy rəngli, 1 mm enində tünd göy rəngli, 1 mm enində qızılı rəngli, 2 mm enində tünd göy rəngli, 1,5 mm enində bənövşəyi rəngli, 2,5 mm enində tünd göy rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.2. Elementin yuxarı hissəsinə üzərində dalğalar təsvir olunmuş 40 mm x 5,5 mm ölçülü lövhə bərkidilmişdir.

4.3. Medala paltara bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.




# “Azərbaycan Respublikasının “Gəmiçilik sahəsində xidmətlərə görə” medalının və “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1049-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının “Gəmiçilik sahəsində xidmətlərə görə” medalının və “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1049-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının “Gəmiçilik sahəsində xidmətlərə görə” medalının və “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının 2018-ci il 3 aprel tarixli 1049-VQD nömrəli Qanunu ilə təsdiq edilmiş “Gəmiçilik sahəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə”nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

3. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin sədrinə verilsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının “Gəmiçilik sahəsində xidmətlərə görə” medalının və “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin 160 illiyi (1858-2018)” yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2018-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının bəzi dövlət orqanlarının rəhbər işçilərinə yeni vəzifə maaşlarının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 348 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 30 noyabr tarixli 3428 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 434 nömrəli fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 846; 2003, № 2, maddə 81; 2005, № 3, maddə 160; 2008, № 7, maddə 615; 2011, № 7, maddələr 636, 640, № 10, maddə 904; 2013, № 6, maddə 644; 2014, № 12, maddə 1581; 2017, № 6, maddə 1077) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamə”nin 5.3-cü bəndinin on birinci abzasından və 5.6-cı bəndinin ikinci cümləsindən “(Fondun İcraçı direktoru istisna olmaqla)” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2018-ci il*

# “Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 30 mart tarixli 2071 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının bəzi dövlət orqanlarının rəhbər işçilərinə yeni vəzifə maaşlarının müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 348 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 30 noyabr tarixli 3428 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

“Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 30 mart tarixli 2071 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 297; 2008, № 7, maddə 615; 2010, № 7, maddə 689; 2013, № 6, maddə 688) 4.2-ci bəndindən “(Fondun İcraçı direktoru istisna olmaqla)” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2018-ci il*

# “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanını “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 736-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

“Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 fevral tarixli 1834, 1837 nömrəli, 6 mart tarixli 1868 nömrəli, 7 mart tarixli 1878 nömrəli, 19 mart tarixli 1893 nömrəli və 29 mart tarixli 1895 nömrəli fərmanları) 5.70-ci bəndində “lotereya təşkilatçısına, lombardlara, valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslərə və daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və ya hüquqi şəxslərə” sözləri “lombardlara və valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslərə” sözləri ilə əvəz edilsin və həmin bənddən “Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (qiymətli daşların, qiymətli metalların, o cümlədən qiymətli daşlardan və ya qiymətli metallardan hazırlanmış zərgərlik və ya digər məişət məmulatlarının alqı-satqısı ilə məşğul olan fiziki və ya hüquqi şəxslərə münasibətdə),” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2018-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanı ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanı ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nı “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 736-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 fevral tarixli 1835 nömrəli, 6 mart tarixli 1865, 1869 nömrəli və 7 mart tarixli 1879 nömrəli fərmanları) ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 14.1-ci bəndində “lotereya təşkilatçısına, lombardlara, valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslərə və daşınmaz əmlakın alqı-satqısı üzrə vasitəçilik xidmətləri göstərən fiziki və ya hüquqi şəxslərə” sözləri “lombardlara və valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslərə” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2018-ci il*

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Şuşanın işğalının ildönümü ilə bağlı bəyanat yayıb

“Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyi Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 26-cı ildönümü ilə əlaqədar bəyanat yayıb. Bu barədə AZƏRTAC-a ictimai birlikdən məlumat verilib.

Bəyanatda deyilir ki, son 200 ildə erməni millətçiləri tarixi Azərbaycan torpaqları hesabına uydurma “böyük Ermənistan” ideyasını həyata keçirmək məqsədilə 1905-1906-cı, 1918-1920-ci, 1948-1853-cü, 1988-1993-cü illərdə xalqımıza qarşı soyqırımı, terror, deportasiya və etnik təmizləmə kimi cinayətlər törədiblər. XX əsrin sonunda monoetnik dövlət yaratmağa nail olan Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun inzibati ərazisinə aidiyyəti olmayan Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələri işğal edilib. Bütün bu ərazilər ermənilər tərəfindən etnik təmizləməyə məruz qalıb.

Dağlıq Qarabağın erməni icmasının öz müqəddəratını təyin etmək cəhdi kimi qələmə verdiyi Ermənistanın bu hərbi təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyondan çox əhali öz doğma torpağından məcburən köçkün düşüb və hazırda Azərbaycan ərazisinin 20 faizindən çox hissəsi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bütün dövrlərdə olduğu kimi, ermənilərin həyata keçirdiyi bu işğalçılıq siyasəti kütləvi qırğınlarla müşayiət olunub. 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 min azərbaycanlı həlak olub, 100 min nəfərdən çoxu yaralanıb, 50 min nəfər müxtəlif dərəcəli xəsarət alaraq əlil olub, 5 min nəfərdən çox insan isə əsir və itkin düşüb. Eyni zamanda, bu dövrdə dövlət terrorizmi və soyqırımı siyasəti yeridən Ermənistan tərəfindən müxtəlif səpkili 373 terror aktı törədilib ki, nəticədə 1200 nəfər dinc insan həlak olub və 1705 nəfər yaralanıb. XX əsrin sonunda bütün dünyanın gözü qarşısında baş verən, qəddarlığı və amansızlığı ilə seçilən Xocalı soyqırımı isə bu təcavüzkar siyasətin ən qanlı və yaddaşlardan silinməyən səhifəsi olub. Dinc insanlara qarşı törədilən vəhşiliklər bütün beynəlxalq normalara zidd olmaqla yanaşı, bəşəriyyətə qarşı törədilən amansız cinayətlərdir. Çox təəssüf ki, Ermənistanın yürütdüyü etnik təmizləmə və soyqırımı siyasəti uzun illərdir dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki soyqırımı ən ağır cinayət olmaqla yanaşı, beynəlxalq hüquqa görə, sülh və təhlükəsizliyə qarşı yönələn cinayətlər qrupuna aid edilir. Soyqırımı cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş “Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında” Konvensiya ilə müəyyən olunub.

Bu cinayətlərin içərisində 26 il bundan əvvəl - 1992-ci il mayın 8-də Azərbaycanın tarixi mədəniyyət mərkəzi olan Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi Azərbaycanın mədəni irsinə vurulan ağır zərbədir. Bu işğal zamanı Şuşa şəhəri və rayonun 30 kəndi dağıdılıb, 195 dinc sakin həlak olub, 165 nəfər yaralanıb, 58 nəfər itkin düşüb, 24 mindən çox insan doğma torpağından məcburən köçkün düşüb.

Azərbaycan tarixində mühüm yer tutan, canlı təbiət muzeyi və abidələr şəhəri olan Şuşanın Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində 25 məktəbi, 31 kitabxanası, 20 səhiyyə müəssisəsi, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriyası, turist bazası, 2 mehmanxanası, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq Musiqi Alətləri Fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq Sağlamlıq Məktəbi talan edilib, yandırılıb və dağıdılıb.

Bütün bunlarla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəni və tarixi abidə də erməni vandalları tərəfindən dağıdılıb, məbədgah və məscidlər təhqirlərə məruz qalıb, çox sayda nadir əlyazma nümunələri məhv edilib. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansara, Molla Pənah Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, ikimərtəbəli karvansara, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Əbdürrəhim bəy Haqverdiyevin, Qasım bəy Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, Nəcəf bəy Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir bəy Hacıbəylinin, Bülbülün ev muzeyləri, Xan Şuşinskinin, Tarzən Sadıqcanın evləri, Realnı məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunələri erməni işğalçıları tərəfindən talan edilib və dağıdılıb.

Ümumilikdə 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın tarixi, memarlıq və dini abidələri, xüsusilə 600-dən çox tarixi və memarlıq abidəsi, onlardan 144 məbəd və 67 məscid Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə dağıdılıb. Bununla yanaşı, 40 min eksponatın qorunduğu 22 muzey, 927 kitabxanada 4,6 milyon kitab və qiymətli tarixi əlyazmalar məhv edilib, o cümlədən Azərbaycanın tarixi irsinə aid olan qiymətli nümunələr muzeylərdən oğurlanaraq sonradan müxtəlif hərraclarda satılıb.

Ermənistan Respublikası tərəfindən Azərbaycanın ərazi bütövlüyünün pozulması, dünya mədəniyyətinin nümunələri sayılan memarlıq abidələrinin dağıdılması və mənimsənilməsi, insan hüquqlarının, o cümlədən mədəni hüquqların kütləvi şəkildə, kobudcasına pozulması beynəlxalq hüquq normalarına və prinsiplərinə tamamilə ziddir. Azərbaycanın tarixi və mədəniyyət, eyni zamanda, dini abidələrinin vəhşicəsinə dağıdılması və qəsdən məhv edilməsi “Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında” 1954-cü il Haaqa Konvensiyası, “Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında” UNESCO-nun 1972-ci il Konvensiyası, eləcə də “Arxeoloji irsin mühafizəsi haqqında” 1992-ci il Avropa Konvensiyasına zidd olsa da, beynəlxalq birlik bu cinayətlərin qarşısının alınmasında qəti mövqe göstərmir, bu vandalizmə ikili standartlarla yanaşır.

Bəyanatda deyilir: “Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 26-cı ildönümündə Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin 80 mindən artıq, o cümlədən Şuşa rayonunun 33 mindən çox olan azərbaycanlıları beynəlxalq birliyi Azərbaycan xalqına qarşı bu gün də davam edən təcavüz hərəkətlərinə obyektiv siyasi-hüquqi qiymətin verilməsi üçün ölkəmizin haqlı mövqeyini dəstəkləməyə çağırırıq.

Biz dünya ictimaiyyətini və beynəlxalq təşkilatları Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunana qədər “Kiçik Paris”, “Qafqazın sənət məbədi”, “Azərbaycan musiqisinin beşiyi” və “Şərqin konservatoriyası” adlandırılan, bir sıra görkəmli xadimlərin vətəni, eləcə də mədəniyyət mərkəzi və Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı əhalisinin yüzilliklər boyu yaşadığı Şuşa şəhərində Azərbaycanın tarixi, memarlıq və dini abidələrin məqsədyönlü şəkildə dağıdılması, talan edilməsi və mənimsənilməsinə, eləcə də bu işğala son qoyulmasına çağırırıq.

Biz humanizm ideyalarının daşıyıcısı olan bütün beynəlxalq təşkilatlardan tələb edirik ki, Ermənistanın işğalçılıq siyasətinin ifşa olunması üçün təsirli tədbirlər görülsün. Bununla yanaşı, Ermənistanın təcavüzünün qurbanı olan bir milyondan çox insanın haqq səsi eşidilsin və pozulmuş hüquqlarımızın bərpa olunması üçün ermənilərin cinayətkar əməlləri beynəlxalq səviyyədə qınaq obyektinə çevrilsin.

Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilir. BMT Təhlükəsizlik Şurasının sənədlərində işğalçı qüvvələrin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal çıxması qeyd olunsa da, Minsk qrupunun göstərdiyi səylər indiyə kimi Ermənistan Respublikasının açıq-aşkar hərbi işğalçılıq mövqeyi tutması ucbatından təsirli nəticələr verməyib. ATƏT-in regionda sülhpərvərlik fəaliyyətinin uğursuzluqlarının başlıca səbəbi məhz Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının birbaşa təcavüzü faktının etiraf olunmaması ilə bağlıdır. Hesab edirik ki, münaqişənin ədalətli həlli Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılmasından, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə oradan təcavüzə məruz qalaraq qovulmuş 80 mindən çox azərbaycanlının doğma torpaqlarına qayıtmasından sonra mümkündür.

Bu səbəbdən münaqişənin nizama salınması prosesində Ermənistanın Azərbaycana təcavüzündən birbaşa danışmadan, işğal etdiyi ərazilərdən çıxmasını tələb etmədən və qəbul edilən sənədlərdə bu barədə heç nə demədən münaqişənin ədalətli həlli yolunda müsbət irəliləyişə nail olmaq çətindir. Ona görə də böyük dövlətlər qəti addımlar atmalı və Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər”.

Bəyanat “Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyinin toplantısında qəbul edilib.

# N.Paşinyan Ermənistanın yeni baş naziri seçildi

## *İşğalçı ölkədə gərginlik yeni hakimiyyət dönəmində də səngiməyəcək*

Ermənistanda baş nazir seçkiləri ilə bağlı hər hansı sürpriz yaşanmadı. Gözlənildiyi kimi, baş nazir seçkilərinin ikinci turunda müxalifət lideri Nikol Paşinyan bu vəzifəyə seçildi. Amma 1 may seçkilərində yaşananların təkrar olunmasından ehtiyat etdiyindən tərəfdarlarını Respublika meydanına toplaşmağa çağırmağı da unutmamışdı. Beləliklə, Ermənistan parlamenti ikinci turda yeni baş naziri seçdi. Baş nazir vəzifəsinə Nikol Paşinyan yeganə namizəd olub.

İclasda 105 deputatdan 101-i iştirak edib. Onların 59-u Paşinyanın lehinə, 42-si isə əleyhinə səs verib. Xatırladaq ki, mayın 1-də keçirilən birinci turda Paşinyanın lehinə cəmi 45 deputat səs vermişdi. Ermənistanın hakim Respublika Partiyası onun baş nazir seçilməsinin əleyhinə çıxmışdı. Ölkə konstitusiyasına əsasən, baş nazir ən azı 53 deputatın səsi ilə seçilir. Paşinyanın bu dəfə baş nazir seçilməsinə Respublika Partiyası şərait yaradıb.

“Joxovurd” qəzeti bununla bağlı yazır: “Seçkilərdən 1 gün əvvəl Serj Sarkisyanın rəhbərliyi ilə Ermənistanın Respublika Partiyasının icraçı orqanının iclasında partiyanın parlament fraksiyasının deputatlarından kimin Nikol Paşinyana səs verəcəyi uyğunlaşdırılıb”.

Nəşrin yazdığına görə, Respublika Partiyasının deputatlarına siyahı təqdim edilib. “Joxovurd”un mənbələri iddia edir ki, Nikola Paşinyana əsasən partiyanın biznes qanadında yer alan 12 deputat və generalların səs verməsi razılaşdırılıb. Beləliklə, onlardan Samvel Aleksanyan, Aşot Arsenyan, Artur Qevorkyan, Seyran Saroyan, Naqapet Qevorqyan, Şırak Torosyan, Taçat Vardanyan, Arutün Karapoqosyan, Arkadi Ambartsumyan, Arsen Mixaylov, Knyaz Həsənov və həmçinin mayın 1-də keçirilən iclasda Paşinyana səs verən Feliks Solakyan müxalifətin yeganə namizədini dəstəkləyibilər.

Respublika Partiyasının fraksiyasının siyasi qanadına gəlincə, Arpin Ovannisyan, Eduard Şarmazanov, Armen Aşotyan, Qalust Saakyan, Vaqram Baqdasaryan və başqaları müxalifət liderinə qarşı səs veriblər. Nəşrin yazdığına görə, Paşinyana səs verən 2 deputat partiyanın qurtuluşu üçün son addım kimi təqdim edilib.

Bununla hakim partiyada yer alan oliqarxlar, o cümlədən Serj Sarkisyan təqiblərdən və məsuliyyətdən yaxa qurtarmağı düşünsələr də, son proseslər bunun əksini göstərir. Belə ki, müəyyən siyasi qüvvələrin və erməni lobbisinin təsiri ilə təhqiqat aparıldıqdan sonra Qərb Serj Sarkisyanın və onun yaxın ətrafındakı iş adamlarının hesablarını dondurmaq niyyətindədir. Bu tədbirlərin son məqsədi xarici ölkələrdə aşkar olunmuş bütün maliyyə vəsaitlərinin Ermənistana geri qaytarılmasıdır.

Avropa Erməni İttifaqları Forumunun sədri Aşot Qriqoryanın sözlərinə görə, onun ünvanına Ermənistanın keçmiş prezidentinin ofşor sövdələşmələrinin təhqiqatının aparılması ilə bağlı təkliflər gəlib. Qriqoryan Serj Sarkisyanın prezidentliyi dövründə korrupsiya sxemlərindən əziyyət çəkmiş bütün iş adamlarından xahiş edib ki, müvafiq məlumatları təqdim etsinlər.

Bütün bunlar Sarkisyan və komandasını artıq çətin günlər gözlədiyini deməyə əsas verir. Artıq indidən şayiə məlumatlar səslənir ki, küçə müxalifətinin təzyiqi ilə baş nazir postunu ələ keçirən Paşinyan dərhal hakimiyyətdə olmuş varlı insanların pullarını dövlətin xeyrinə əllərindən alacaq. Baş verənləri diqqətlə izləyəndə görmək olur ki, həqiqətən ölkənin narazı elektoratı keçmiş prezidentə nifrətini ifadə etməkdə daha fəaldır, nəinki Paşinyanı müdafiə etməkdə.

Digər tərəfdən, Ermənistandakı siyasi hakimiyyətə və buna müxalif qüvvələrə həmişə güclü təsir imkanına malik diaspor Sarkisyanın hakimiyyətdən getməsini alqışlasa da, Paşinyanı alqışlamaqda tələsmir. Çünki onun hakimiyyətə gələcəyi təqdirdə uzun müddət baş nazir postunda qalacağına əmin deyil.

***Elçin CƏFƏROV, “Azərbaycan”***


## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

### *Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə bağlı KİV nümayəndələri arasında “Azərbaycan Xalq Cümhuriyyəti dövrünün iqtisadiyyatı” mövzusunda yaradıcılıq müsabiqəsi*

### elan edir

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu və Azərbaycan Mətbuat Şurası ilə birgə keçirilən müsabiqəyə təqdim ediləcək analitik məqalələrdə, televiziya və radio süjetlərində Azərbaycan Xalq Cümhuriyyəti dövrünün iqtisadiyyatı təhlil edilməli, o dövrdə aparılmış iqtisadi islahatlar, beynəlxalq iqtisadi əlaqələrin yaradılması, həmçinin AXC-nin varisi olan müstəqil Azərbaycanın iqtisadi qüdrətinin artırılması istiqamətində görülən tədbirlər öz əksini tapmalıdır.

Müsabiqədə Azərbaycanda dövlət qeydiyyatına alınmış KİV əməkdaşları və müstəqil jurnalistlər tək və ya qrup halında iştirak edə bilərlər.

Hər bir jurnalist və ya jurnalistlər qrupu müsabiqəyə yalnız bir məqalə (və ya süjet) təqdim edə bilər.

Müsabiqəyə təqdim olunacaq məqalənin həcmi 8 min çap işarəsindən, televiziya və radio süjeti isə 3 dəqiqədən az olmamalıdır.

Məqalə, televiziya və radio süjeti Azərbaycanda dövlət qeydiyyatına alınmış KİV-də dərc olunmalı və ya yayımlanmalıdır.

Müsabiqəyə 2018-ci il mayın 7-dən iyunun 1-dək olan müddətdə qəzet, jurnal, informasiya agentlikləri və xəbər saytları, həmçinin televiziya və radio kanallarında gedən materiallar buraxılacaq.

Materialın sonunda “İqtisadiyyat Nazirliyi tərəfindən KİV nümayəndələri arasında elan edilmiş “Azərbaycan Xalq Cümhuriyyəti dövrünün iqtisadiyyatı” mövzusunda müsabiqəyə təqdim edilir” sözlərindən ibarət titr qeyd olunmalıdır.

Materiallar 1 iyun 2018-ci il tarixinədək İqtisadiyyat Nazirliyində yaradılmış komissiyaya təqdim edilməli, elektron versiyası isə vusala.guliyeva@economy.gov.az poçt ünvanına göndərilməlidir. Təqdim edilmiş materiallar 15 iyun 2018-ci il tarixinədək qiymətləndiriləcək və qaliblər mükafatlandırılacaqdır.

Müsabiqənin şərtləri ilə daha ətraflı İqtisadiyyat Nazirliyinin internet səhifəsindən ***(www.economy.gov.az)*** tanış olmaq olar.

**Əlavə məlumat üçün: İqtisadiyyat Nazirliyi (Ünvan: Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 84 (Hökumət evi), 10-cu mərtəbə, 1004-cü otaq, tel: 493-88-67 (daxili 20-45), əlaqələndirici şəxs Vüsalə Quliyeva).**

## Bildiriş

**Azərbaycan Respublikasının Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət Pedaqoji Universiteti idarənin mühafizəsi işinin təşkili (221330 yarımmaddəsi) üzrə kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.**

Maraqlanan təşkilatlar (+994 12) 493 00 26 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 14 may 2018-ci il 17:00 tarixinədək qəbul olunur.

Ünvan: Bakı şəhəri, Üzeyir Hacıbəyli, 68.

***Tender komissiyası***


## Beynəlxalq aləm
### HADİSƏLƏR, FAKTLAR

### Nikaraqua polisi jurnalistin qatillərini saxladı

Nikaraqua polisi ötən ay hökumət əleyhinə çıxışlar zamanı jurnalist Anhel Eduardo Qaona Lopesin qətlində şübhəli bilinən iki nəfəri saxlamışdır. Bu barədə Milli polisin ictimaiyyətlə əlaqələr idarəsinin başçısı Vilma Rosa Qonsales yerli KİV-ə məlumat vermişdir.

Asayiş keşikçiləri 42 yaşlı jurnalisti öldürən və milli polisin 43 yaşlı əməkdaşı Karlos Anselmo Rodrigesi yaralayan cinayətkarların izinə düşmüşlər.

TASS agentliyinin xəbərinə görə, bunlar Brandon Kristofer Lovo Tayler və Qlen Sleytdir.

“Meridiano” xəbərlər portalının direktoru Anhel Eduardo Qaona Lopes hökumət əleyhinə nümayişlər zamanı canlı yayımda reportaj apararkən güllələnmişdir.

Cari ilin aprel ayının ortalarında ölkədə başlamış etiraz aksiyalarının səbəbi sosial sığorta sisteminin islahatı idi. Hüquq müdafiəçilərinin bildirdiyinə görə, nümayişlər zamanı onlarca adam həlak olmuşdur. Bundan əlavə, 2 polis əməkdaşı öldürülmüş, 121-i xəsarət almışdır. Aprelin 22-də Nikaraqua Prezidenti Daniel Orteqa narazılığa səbəb olmuş islahatı ləğv etmişdir. Dövlət başçısının dediyinə görə, pensiya təminatı sisteminin yaxşılaşdırılmasına yönəlmiş yeni layihə üzərində iş danışıqlar masası arxasında davam etdirilməlidir.



### Suriyada Rusiya helikopteri qəzaya uğradı

Rusiyanın Ka-52 helikopteri Suriyada qəzaya uğramışdır. Bu barədə TASS agentliyi xəbər verir.

Məlumata görə, hadisə planlı uçuş yerinə yetirilərkən baş vermişdir. Hər iki pilot həlak olmuşdur.

Rusiya Müdafiə Nazirliyindən bildirmişlər ki, qəzaya səbəb texniki nasazlıqdır.

Xatırladaq ki, cari ilin yanvar ayında Suriyada Rusiyanın Mi-24 helikopteri qəzaya uğramışdı. Nəticədə hər iki pilot həlak olmuş, heyətin bir üzvü yaralanmışdı. Həmin vaxt da qəzanın texniki nasazlıq səbəbindən baş verdiyi bildirilmişdi.

### Əfqanıstanda taliblər strateji rayonu ələ keçirdilər

Əfqanıstanın şimal-qərbində yerləşən Fəryab əyalətində başlanmış qızğın döyüşlər nəticəsində “Taliban” hərəkatının silahlıları Quliyen rayonunu ələ keçirmişlər. Rayona Bilçaraq qəzasının 12 kəndi daxildir. Toqquşma zamanı xalq polisinin 40 döyüşçüsü öldürülmüş, yaralanmış, yaxud əsir götürülmüşdür. Əfqanıstanın strateji əhəmiyyətli rayonu dünən səhər taliblərin nəzarətinə keçmişdir. Bu barədə “İnterfaks” agentliyi xəbər verir.

Srağagün Herat əyalətində çadra geyinmiş taliblər üç polis əməkdaşını öldürmüşlər.

Son vaxtlar ölkədə taliblərin və digər ekstremist qruplaşmaların fəaliyyəti xeyli artmışdır. Təkcə mayın 7-də ölkənin 14 əyalətində bir neçə xüsusi əməliyyat keçirilmişdir. Nəticədə 59 ekstremist məhv edilmiş, 30-a yaxın silahlı yaralanmışdır.

Əfqanıstan aviasiyası 124 uçuş keçirərək ekstremistlərin bir çox bazasını, habelə silah və döyüş-sursat anbarlarını bombalamışdır.

### Aralıq dənizində 400-dən çox qeyri-leqal miqrant xilas edildi



Liviyanın sahil mühafizəsi dəstəsi Aralıq dənizində bir neçə üzgü vasitəsində Avropaya yollanan qeyri-leqal miqrantları xilas etmişdir. Bu barədə “İnterfaks” agentliyi xəbər verir.

Ümumilikdə üç rezin gəmidə 400 nəfər, o cümlədən 70 qadın olmuşdur. Onlar Misirin, Tunisin və Afrikanın daha bir neçə ölkəsinin vətəndaşlarıdır.

Bildirilir ki, qaçqınlar Trablis yaxınlığındakı hərbi dəniz qüvvələrinin bazasına aparılmışlar. Orada onlara lazımi tibbi və psixoloji yardım edilmişdir. Hazırda miqrantlar qanunsuz mühacirətlə mübarizə üzrə xüsusi xidmətin sərəncamına verilmişlər.


## Bildiriş

“İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC hesablama texnikası, katric dolumu və servis xidmətlərinin satın alınması məqsədilə 18 mart və 06 aprel 2018-ci il tarixlərində elan etdiyi, 14 aprel 2018-ci il tarixdə vaxtını uzatdığı açıq tender üzrə yetərli sayda tender təklifi daxil olmadığı üçün “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11.1-ci naddəsinə əsasən tenderin davamından imtina edir.

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə bacısı

**YEVA BAĞI QIZI YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə bacısı

**YEVA BAĞI QIZI YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ombudsman Elmira Süleymanova SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə bacısı

**YEVA YUSİFZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Aviasiya Akademiyasının rəhbərliyi, professor-müəllim və tələbə heyəti akademiyanın İqtisadiyyat və hüquq fakültəsinin III kurs tələbəsi

**SAHİL ARİF OĞLU TEYMURLUNUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

“Azərişıq” ASC-nin sədri Baba Rzayev SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə bacısı

**YEVA YUSİFZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Mətanət A” şirkətinin rəhbəri Elxan Bəşirov və şirkətin kollektivi SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadəyə bacısı

**YEVA YUSİFZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Mən həmişə səninləyəm,

## Azərbaycan, Azərbaycan, Azərbaycan!














































HEYDƏR ƏLİYEV və Heydər Əliyev


BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*

*e-mail:*

secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru

www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 8770
Sifariş 1363